20 iyun 2025-ci il, cümə №4 (66)

YENİ FİKİR

Təsisçi: Naxçıvan Dövlət Universiteti



NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ AZƏRBAYCANIN ƏN DƏYƏRLİ, QABAQCIL ALİ MƏKTƏBLƏRİNDƏN BİRİDİR.

# Naxçıvanda II Karyera Sərgisi keçirilib

Naxçıvan şəhərində “Karyera Sərgisi 2” keçirilib. Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Musiqi Kollecinin “Nağaraçalanlar” ansamblı sərgi iştirakçılarını maraqlı ifa ilə qarşılayıblar.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli bildirib ki, Naxçıvanda keçirilən digər mühüm tədbirlər kimi, karyera sərgisi də artıq ənənə halını alıb. Bu sərgi ikinci dəfədir təşkil olunur və əhəmiyyətlidir. Səlahiyyətli nümayəndə qeyd edib ki, muxtar respublikada həyata keçirilən islahatlar kadrları və iqtisadiyyatı, eləcə də digər sahələri əhatə edir.

“Karyera qurmaq uzun və çətin bir yolun başlanğıcıdır. Bu yol heç də hamar deyil. Hər bir insanın karyera yolunda qarşısına böyük çətinliklər çıxır. Bu çətinliklərin öhdəsindən yalnız əzmlə çalışmaqla gəlmək olar”, - deyən Fuad Nəcəfli bildirib ki, artıq süni intellekt həyatımıza daxil olub və bir çox sahələrdə insanları əvəz etməyə qadirdir. Əgər bu yeniliklər “yaşıl enerji”, kənd təsərrüfatı, iqtisadiyyat, nəqliyyat infrastrukturu və turizm kimi sahələrdə tətbiq edilsə, böyük uğurlar əldə olunacaq.

“Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı üzrə 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın əhəmiyyətinə toxunan səlahiyyətli nümayəndə Dövlət Proqramının icrasında gənclərin rolundan danışıb, karyera sərgisinin fəaliyyətinə uğurlar arzulayıb.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev bildirib ki, ötən il keçirilən I karyera sərgisində təqdim olunan şəxsi məlumatlar əsasında artıq 100-ə yaxın şəxs işlə təmin edilib. Budəfəki sərgidə 28 dövlət, 14 özəl müəssisə olmaqla, ümumilikdə 42 təşkilat vakant vəzifə çıxarıb.

Məlumat verilib ki, iki gün davam edən sərgidə 5 mindən çox tələbə və məzun olmaqla, ümumilikdə 7 min iştirakçının qatılmışdır. Onlar müəssisə nümayəndələri ilə görüşüb, şəxsi məlumatlarını təqdim edib, təcrübə və vakant iş yerləri haqqında birbaşa məlumat almaq imkanı əldə etmişdirlər. Sərgi müddətində Bakı şəhərindən dəvət olunmuş peşəkar mütəxəssislər tərəfindən müxtəlif mövzularda təlimlər keçirilmişdir.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti, Naxçıvan Şəhər İcra Hakimiyyəti və Naxçıvan Dövlət Universitetinin təşkilatçılığı ilə keçirilən II karyera sərgisi Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Musiqi Kollecinin rəqs qrupu və “Sazçalanlar” ansamblının ifasında mahnı və rəqs nömrələri ilə davam edib.









# Naxçıvan Dövlət Universitetinin tələbələri üçün “Dövlət sektorunda audit” mövzusunda keçirilən təlimlər yekunlaşıb

Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədovun rəhbərlik etdiyi nümayəndə heyətinin Naxçıvan şəhərinə səfəri çərçivəsində Naxçıvan Dövlət Universitetində tədbir keçirilib.

Tədbirdə Türkiyə Hesablama Məhkəməsinin sədri Metin Yenerin rəhbərlik etdiyi nümayəndə heyəti, Milli Məclisin komitə sədrləri Azər Əmiraslanov və Sadiq Qurbanov, Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev, eləcə də Hesablama Palatası və universitetin digər əməkdaşları iştirak ediblər.





Görüşdə çıxış edən Hesablama Palatasının sədri Vüqar Gülməmmədov Naxçıvan Dövlət Universiteti ilə əməkdaşlıq münasibətləri barədə ətraflı məlumat verib. O, bu əməkdaşlıq çərçivəsində “Dövlət sektorunda audit” mövzusunda keçirilən təlimlərdən danışaraq, onların dövlət maliyyə nəzarətinin gücləndirilməsi və kadr hazırlığının təkmilləşdirilməsi baxımından əhəmiyyətini vurğulayıb. Vüqar Gülməmmədov təlimdə yüksək fəallıq göstərmiş tələbələrin gələcəkdə peşəkar kadr kimi yetişdirilməsinin Palatanın hədəflərindən biri olduğunu bildirib. Eyni zamanda tələbələrə elmi fəaliyyətlərində və gələcək karyeralarında uğurlar arzulayıb.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxış edərək, tədbiri vacib və çoxdan gözlənilən əlamətdar görüş adlandırıb. Hesablama Palatası ilə əməkdaşlığın universitet üçün böyük əhəmiyyət daşıdığını vurğulayıb. Elbrus İsayev təlim proqramlarının tələbələrin peşəkar bilik və bacarıqlarının artırılmasına töhfə verdiyini qeyd edib. Rektor eləcə də universitetin bakalavriat və magistratura təhsil səviyyəsində təhsil alan mühasibat uçotu və audit, maliyyə və digər bu profilli ixtisaslardan olan tələbələrinin cəlb olunduğu təlim proqramını muxtar respublikanın kadr ehtiyaclarının qarşılanması prosesinə müsbət təşəbbüs olaraq dəyərləndirib.

Tədbir zamanı “Dövlət sektorunda audit” mövzusunda keçirilən təlim proqramının əsas istiqamətləri və nəticələri barədə ümumi təqdimat da nümayiş etdirilib. Təqdimatda təlimlərin məqsədi, proqramın strukturu və əhatə etdiyi mövzular barədə geniş məlumat verilib. Bildirilib ki, ümumilikdə üç aylıq müddəti əhatə edən təlimlərdə universitetin 22 tələbəsi iştirak edib və onların nəticələri qiymətləndirilib. Qiymətləndirmə prosesi bir neçə mərhələdə həyata keçirilib, ilkin mərhələdə test, sonra yazılı imtahan, daha sonra isə müsahibələr təşkil olunub.

Sonra Naxçıvan Dövlət Universiteti tərəfindən təlimin təşkilində göstərdikləri dəstəyə görə Hesablama Palatası nümayəndələrinə təşəkkürnamələr, plaketlər və hədiyyələr təqdim edilib.

Sonda təlim proqramını uğurla başa vuran tələbələrə nəticələrinə uyğun sertifikatlar təqdim olunub.



Tədbir Naxçıvan Dövlət Universiteti Konservatoriyasının Kamera Orkestrinin ifasında konsert proqramı ilə davam edib.

Qeyd edək ki, tədbir AR Hesablama Palatası və NDU arasında 18 fevral 2025-ci il tarixində imzalanmış Əməkdaşlıq Memorandumu çərçivəsində həyata keçirilib.

*Kifayət Mahmudova*
*NDU Media və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri*

# 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş konsert proqramı

Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında Naxçıvan Dövlət Universitetinin Simfonik Orkestrinin 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş konsert proqramı təşkil edilib.

Konsert proqramını Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, dövlət və hökumət rəsmiləri, deputatlar, universitetin professor-müəllim heyəti, tələbələr, ictimaiyyət nümayəndələri izləyiblər.





Tədbirdə 15 İyun – Milli Qurtuluş Gününün əhəmiyyətindən, Ümummilli Liderimiz Heydər Əliyevin milli kinomuzun inkişafındakı tarixi xidmətlərindən danışılıb, Ulu Öndərin Azərbaycanın milli kinoları ilə bağlı çıxışlarına dair videoçarxlar nümayiş etdirilib.

Konsertdə Fikrət Əmirov, Tofiq Quliyev, Süleyman Ələsgərov, Qara Qarayev, Rauf Hacıyev, Arif Məlikov, Cahangir Cahangirov, Üzeyir Hacıbəyli kimi dahi bəstəkarların sevilən kino musiqiləri ifa olunub, milli kinomuzun incilərindən fraqmentlər səhnədə canlandırılıb. Proqrama uyğun solistlər, tanınmış Xalq artistləri və Əməkdar artistlər, Prezident mükafatçıları, universitetin müəllim və tələbələri çıxış ediblər. Konsertin bədii rəhbəri Azərbaycan Respublikasının Əməkdar artisti, dosent Mübariz Əsgərov, rejissoru Xalq artisti Kamran Quliyev, dirijorları isə Naxçıvan Dövlət Universitetinin müəllimi, Xalq artisti, professor Çingiz Axundov və Naxçıvan Dövlət Universitetinin müəllimi, Əməkdar artist Səməd Əsgərov olub.

Konsertin sonunda Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli səhnə arxasına keçərək sənət adamları ilə səmimi söhbət edib, çıxışları yüksək dəyərləndirib, sənət yolunda hər birinə uğurlar arzulayıb. Sənət adamları göstərilən diqqət və dəstəyə görə minnətdarlıq ediblər.

Konsert proqramı Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi və Naxçıvan Dövlət Universitetinin birgə təşkilatçılığı ilə təşkil edilib.



# Elbrus İsayev Dövlət Proqramının icrası çərçivəsində Ankara Universitetində olub

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" üzrə Naxçıvan Dövlət Universitetinin əsas icraçısı olduğu layihələrlə bağlı rektor Elbrus İsayev, Beynəlxalq əlaqələr üzrə prorektor Aidə Cəlilzadə və NDU Xəstəxanasının baş həkimi Elmar Rzayev Türkiyə Respublikasının Ankara şəhərinə işgüzar səfər edib.



Səfər çərçivəsində rektor Elbrus İsayevin rəhbərliyi ilə nümayəndə heyəti Ankara Universitetində olublar.

NDU nümayəndə heyətini qarşılayan Ankara Universitetinin rektoru Necdet Ünüvar qardaş ölkə universitetləri arasında çoxşaxəli əməkdaşlıq sahələrinin



əhəmiyyətindən və əlaqələrin daha məhsuldar istiqamətdə irəliləməsi üçün gələcək fəaliyyətlərdən bəhs edib.

Rektor Elbrus İsayev Ankara Universiteti müəllim və həkimlərinin Naxçıvan Dövlət Universiteti tələbələrinin mobillik, təcrübə, yay istehsalat təcrübəsi, rezidentlərin rotasiyası və digər sahələrdə inkişafına verəcəyi töhfələrdən söz açıb və əməkdaşlığın əhəmiyyəti barədə fikirlərini bölüşüb. Rektor, həmçinin professor-müəllim heyətinin peşəkarlığının artırılması istiqamətində qarşılıqlı əməkdaşlıqlara diqqət çəkərək Ankara Universiteti müəllim və həkimlərinin NDU-da tədris və tədqiqata cəlbi sahəsində fəaliyyətlərin davam etdirilməsinin önəmini vurğulayıb.

Görüşdə universitetlər arasında imzalanması nəzərdə tutulan "Kompüter mühəndisliyi" ixtisası üzrə ikili diplom danışıqlarının gedişatı heyətlər arasında qarşılıqlı müzakirə edilib və potensial birgə proqramlar barədə razılıq əldə olunub. Ali təhsil müəssisələri arasında işçi qruplarının yaradılması və müəyyənləşdirilmiş fəaliyyət sahələrinin sistemli şəkildə icrası razılaşdırılıb.

Görüşdə Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı Səfirliyinin Təhsil məsələləri üzrə müşaviri Nəcibə xanım Nəsibova da iştirak edib.

***Kifayət Mahmudova***
***Media və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri***

# NDU rektoruna Səmərqənd Tibb Universitetindən yüksək təltif

***Səmərqənd Tibb Universiteti NDU rektorunu Fəxri professor elan etdi***

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev və universitetin nümayəndə heyəti Özbəkistanın Səmərqənd şəhərində keçirilən "Tələbələrin və gənc tədqiqatçıların 79-cu elmi-praktik konfransı"nda iştirak ediblər. Konfransın açılış mərasimində çıxış edən Elbrus İsayev elm və təhsilin inkişafında beynəlxalq əməkdaşlığın roluna toxunub, universitetlər arasında təcrübə mübadiləsinin əhəmiyyətini vurğulayıb.



Tədbirdə dünyanın müxtəlif ölkələrindən olan 35 universitetin nümayəndələri iştirak edib. Konfrans çərçivəsində Elbrus İsayevə Səmərqənd Dövlət Tibb Universitetinin Elmi Şurasının qərarı ilə "Fəxri professor" diplomu təqdim olunub. O, bu ada tibb sahəsində beynəlxalq əməkdaşlıqların qurulmasında göstərdiyi fəaliyyətə, Beynəlxalq Tibbi Forum və Türk Dövlətlərinin Tibbi Konqresinin təşkili və uğurla idarə olunmasına görə layiq görülüb.

Qeyd edək ki, NDU-nun Tibb fakültəsinin 7 tələbəsi də nümayəndə heyətinin tərkibində konfransa qatılıb. Tələbələr müxtəlif panellərdə çıxış edərək elmi mövzular ətrafında müzakirələr aparıblar.

# NDU rektoru Elbrus İsayevlə Pekin Çin Tibb Universitetinin prezidenti Tang Zhishu arasında görüş

Özbəkistan Respublikasının Səmərqənd şəhərində keçirilən "Tələbələrin və gənc tədqiqatçıların 79-cu elmi-praktik konfransı"nda Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev ilə Pekin Çin Tibb Universitetinin (Beijing University of Chinese Medicine-BUCM) prezidenti, professor Tang Zhishu arasında görüş keçirilib.

Görüşdə Naxçıvan Dövlət Universiteti ilə Pekin Milli Çin Tibb Universiteti arasında Tibb sahəsi üzrə qarşılıqlı əməkdaşlığın qurulması haqqında müzakirələr aparılıb.



Qeyd edək ki, Pekin Milli Çin Tibb Universiteti (Beijing University of Chinese Medicine-BUCM) 1956-cı ildə Çində ən erkən qurulan ənənəvi Çin təbabəti üzrə ali təhsil müəssisələrindən biri kimi yaradılıb. Əvvəlcə Pekin Çin Tibb Kolleci (Beijing College of Chinese Medicine) adı ilə tanınan bu universitet, 1963-cü ildə hazırkı adını alıb. 2000-ci ildə Pekin Akupunktura, Ortopediya və Travmatologiya Kolleci ilə birləşərək, Çin Təhsil Nazirliyinin birbaşa nəzarətində olan prioritet universitet statusu qazanıb.

# NDU-nun rektoru Elbrus İsayev I Rektorlar Forumunda iştirak edib

Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 13-cü iclasında nəzərdə tutulan tapşırıqların icrası və elm, ali təhsil sahəsində əlaqələrin genişləndirilməsi məqsədilə Əndican şəhərində "Azərbaycan-Özbəkistan: Ali təhsildə əməkdaşlığın inkişafında prioritet istiqamətlər" mövzusunda I Rektorlar Forumu keçirilib.

Tədbir Azərbaycan Respublikasının elm və təhsil nazirinin müavini İdris İsayevin rəhbərlik etdiyi nümayəndə heyətinin Özbəkistana səfəri çərçivəsində təşkil olunub. Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayevin rəhbərliyi ilə universitetin nümayəndə heyəti də forumda iştirak ediblər.



Forumda çıxış edən Özbəkistanın ali təhsil, elm və innovasiyalar nazirinin birinci müavini Şaxrux Daliyev və Azərbaycan Respublikasının elm və təhsil nazirinin müavini İdris İsayev iki ölkə arasında elm və ali təhsil sahəsində əməkdaşlığın yüksələn xətt üzrə inkişaf etdiyini vurğulayıb, forumun universitetlərarası tərəfdaşlıqların genişlənməsinə və birgə layihələrin təşviqinə töhfə verəcəyini bildiriblər. Sessiyalar zamanı ikili diplom proqramlarının yaradılması, tələbə və müəllim mübadiləsi, birgə elmi tədqiqatlar kimi mövzular müzakirə olunub.

Forum çərçivəsində Azərbaycan bir sıra tanınmış universitetləri ilə Özbəkistanın aparıcı ali təhsil müəssisələri arasında əməkdaşlıq sənədləri imzalanıb, yeni layihələrin əsasını qoyan razılaşmalar əldə olunub.

# Elbrus İsayev Macarıstanın dünya şöhrətli yazıçısı və dövlət xadimi Şandor Lejak ilə görüşüb

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev Macarıstanın dünya şöhrətli yazıçısı və dövlət xadimi Şandor Lejak ilə görüşüb. Görüşdə Macarıstanın ölkəmizdəki səfiri Tamaş Yojef Torma, Con fon Neyman Universitetinin rəhbərliyi və kollektivi, NDU-nun rəhbər heyəti iştirak ediblər.



Rektor Elbrus İsayev görüşdən məmnunluq ifadə edib, Şandor Lejakın daha öncə ölkəmizə səfərinin yaddaqalan olduğunu, hörmətlə xatırlandığını bildirib. Bu gün isə ölkəmizin ayrılmaz tərkib hissəsi olan, qədim Naxçıvanda Naxçıvan Dövlət Universitetinə qonaq gəlməsini olduqca əhəmiyyətli və əlamətdar görüş adlandırıb. Vurğulanıb ki, Azərbaycan və Macarıstan dost ölkələrdir və bütün istiqamətlərdə qarşılıqlı əlaqələr davamlı inkişaf edir. Həmçinin təhsil istiqamətində də əməkdaşlıqlar var və bu çərçivədə NDU da pay sahibidir. Elbrus İsayev Con fon Neyman Universitetinin Himayəçilər Şurasının sədri Şandor Lejakın təşəbbüsü və dəstəyi ilə ötən il Macarıstanın Con fon Neyman Universiteti ilə NDU arasında tədrisi ingilis dilində olan Kompüter mühəndisliyi ixtisası üzrə bakalavr pilləsində ikili diplom müqaviləsinin imzalanma mərasimini xatırladıb. Həmin görüşlərin səmərəliliyindən bəhs edib, bu ildən qeyd olunan ixtisas üzrə tələbə qəbulu aparılacağını vurğulayıb. İki universitet arasında işbirliyinə diqqət çəkən rektor irəlidə müəllimlərin ezam olunacağını və əlaqələrin inkişaf etdikcə yeni əməkdaşlıq sahələrinin yaranacağını, birgə fəaliyyətin daha da genişlənəcəyini qeyd edib.

Macarıstan Milli Assambleyasının sədr müavini, Con fon Neyman Universitetinin himayəçilər şurasının sədri dünya şöhrətli yazıçı Şandor Lejak görüşü



məmnunluqla qarşılayıb və nümayəndə heyəti haqqında məlumat verib. Bildirib ki, Macarıstanın Con fon Neyman Universiteti ilə NDU arasında əməkdaşlıq əlaqələrinin qurulması hər iki tərəf üçün faydalıdır. O, Macarıstandan olan tələbələrin NDU-ya gələrək burada qısamüddətli tədris proqramlarında iştirak etməsinin və Azərbaycan mədəniyyətini yaxından tanımasının vacibliyini vurğulayıb. Eyni zamanda NDU-nun müəllim və tələbələrinin Macarıstanda təhsil alma imkanlarının yaradılmasını təklif edib. Şandor Lejak çıxışında idman sahəsindən də söz açıb, Macarıstanın milli oyunu olan teqballun Naxçıvanda təbliği istiqamətində həyata keçiriləcək fəaliyyətlərdən bəhs edib. Şandor Lejak, həmçinin müəllim-tələbə mübadiləsinin genişləndirilməsi və ikili diplom proqramlarının tətbiqi ilə bağlı təkliflərini də bölüşüb. Bildirib ki, bu proqramlar tələbələrə həm Macarıstanın, həm də Naxçıvan Dövlət Universitetinin diplomunu əldə etməyə imkan verəcək.

Sonra görüşdən xatirə olaraq qarşılıqlı hədiyyələr təqdim edilib. Rektor Elbrus İsayev Şandor Lejakın universitet rəssamları tərəfindən ərik ağacı üzərində yağlı boya ilə çəkilmiş portretinin əks olunduğu şəkli və



nümayəndə heyətinə hədiyyələri təqdim edib. Sonda görüşdən xatirə fotosu çəkilib.

***Kifayət Mahmudova***
***Media və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri***

# Naxçıvan Dövlət Universiteti və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Əmək və Sosial Münasibətlər Akademiyası arasında Əməkdaşlıq Memorandumu imzalanıb

Naxçıvan Dövlət Universiteti və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Əmək və Sosial Münasibətlər Akademiyası arasında görüş olub.

Görüşdə Naxçıvan Dövlət Universitetinin, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının və Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının nümayəndələri iştirak ediblər.



Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev yeni əməkdaşlığın qurulması təşəbbüsünü yüksək qiymətləndirib, ikitərəfli əlaqələrin təhsil mühitinin inkişafına yönəldiyini bildirib. Universitetin ümumi fəaliyyətindən, kampusundan, çoxşaxəli kadr hazırlığından bəhs edib. Rektor ali təhsil müəssisəsinin 10 fakültə, 45 kafedra, 3 kollec, 2 elmi tədqiqat institutu, 1 rəsədxana, 1 Kembric Məktəbi və 1 İngilis dili Təmayüllü Gimnaziya ilə fəaliyyət göstərdiyini və 4 istiqamətdə 250-yə yaxın proqram üzrə yüksəkixtisaslı mütəxəssislər hazırlandığını vurğulayıb. Tələbəyönümlü təhsil sistemi tətbiq edildiyini, Azərbaycan dili ilə yanaşı, tədrisi ingilis dilində olan ixtisasların da tədris olunduğunu əlavə edib. Elbrus İsayev birgə əlaqələrin qurulmasında ümumilikdə əmək bazarında məzunların müvəffəqiyyət göstəricilərinin yüksəldilməsində maraqlı tərəf kimi gözləntilərinin yüksək olmasına, dövlət-universitet əməkdaşlığının əhəmiyyətinə diqqət çəkib.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədr müavini, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Qəzənfər Abdullayev görüşdən məmnunluğunu ifadə edib, birgə əməkdaşlıqların rəqabətədavamlı kadrların hazırlanmasına və bir sıra yeniliklərə əsas olacağını vurğulayıb.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası sədrinin müşaviri Orxan Ərəbov qurulacaq ortaq fəaliyyəti əhəmiyyətli və uğurlu əməkdaşlıq olaraq qiymətləndirib. Konfederasiyanın fəaliyyətindən, mövcud



əməkdaşlıqlarından bəhs edib. NDU ilə ciddi işbirliyinin daha uğurlu göstəricilərin əldə olunmasına vəsilə olacağını ifadə edib, əməkdaşlıq çərçivəsində səmərəli olacaq təklifləri səsləndirib.

Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası rektor vəzifəsini müvəqqəti icra edən Yusif Ağayev görüşdən duyduğu razılığı bildirib. Qeyd edib ki, görüş hər iki qurum arasında tədris, təlim və elmi-tədqiqat sahələrində fəal əlaqələr yaratmaq və inkişaf etdirmək mahiyyətini ifadə edir. Vurğulanıb ki, əməkdaşlıq hər iki tərəfin mövcud imkanları çərçivəsində qarşılıqlı faydalı olmaq və ikitərəfli əməkdaşlığın genişləndirilməsi istiqamətində səylərini birləşdirmək istəklərinə əsaslanır. Perspektivdə planlaşdırılan fəaliyyətlərin aktiv işbirliyinə hədəfləndiyini söyləyib, turizm, iqtisadiyyat, maliyyə, sosial iş və digər sahələrdə mövcud təcrübələrin bölüşdürülməsində maraqlı tərəf kimi uğurlu əməkdaşlığın nəzərdə tutulduğunu ifadə edib.

Memorandumun şərtlərinə əsasən hər iki tərəf üçün qarşılıqlı maraq kəsb edən digər istiqamətlərdə birgə işlər təşkil etmək və həyata keçirmək planlaşdırılıb. Aparılan ikitərəfli müzakirələrdən sonra memorandumdan irəli gələn məsələlərin operativ həlli məqsədi ilə məsul şəxslər təyin edilib, işçi qrupların yaradılmasına qərar verilib və Əməkdaşlıq Memorandumu imzalanıb.



Sonda birgə əməkdaşlıq münasibəti ilə görüşdən xatirə olaraq qarşılıqlı hədiyyə təqdim edilib və foto çəkilib.

# NDU və AMEA arasında Əməkdaşlıq Memorandumu imzalanıb

Naxçıvan Dövlət Universiteti və Azərbaycan Milli Elmlər Akademiyası arasında universitetin Elmi Kitabxanasında görüş olub.

Görüşdə NDU-nun rektoru Elbrus İsayev, AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev, AMEA Mərkəzi Elmi Kitabxanasının direktoru Hüseyn Hüseynov, AMEA-nın Xarici əlaqələr və beynəlxalq təşkilatlarla iş şöbəsinin müdiri Esmira Əlirzayeva, eləcə də universitetin rəhbər və akademik heyəti iştirak ediblər.





Tədbir çərçivəsində AMEA və NDU arasında elmi əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb. Memoranduma əsasən birgə tədqiqat layihələrinin icrası, elmi kadrların hazırlanması və qarşılıqlı mübadiləsi, elmi konfransların, simpoziumların və seminarların təşkili nəzərdə tutulur. Eyni zamanda kitabxana işi üzrə təcrübə mübadiləsi və kadr hazırlığına dəstək, elmi məlumatların, nəşrlərin və əsərlərin mübadiləsi, NDU-nun professor-müəllim heyəti və tələbələri üçün AMEA-nın Mərkəzi Elmi Kitabxanasının Elektron resurslarından ödənişsiz istifadənin təmin edilməsi hər iki qurumun kitabxanaları arasında əməkdaşlığın genişləndirilməsi istiqaməti sırasında planlaşdırılır.

NDU-nun rektoru Elbrus İsayev ortaq fəaliyyəti əhəmiyyətli və uğurlu əməkdaşlıq olaraq qiymətləndirib, AMEA-nın 80 illik yubileyi münasibəti ilə akademik İsa Həbibbəylini və heyətini təbrik edib, fəaliyyətində uğurlar arzulayıb. İkitərəfli əlaqələrin təhsil mühitinin inkişafına yönəldiyini, elmi əlaqələrin genişlənməsinə hədəfləndiyini bildirib. Rektor NDU ilə Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Dillər Universiteti və digər ali məktəblərlə kitab mübadiləsinin aparıldığını xatırladıb, kitabxanaların elmi mübadilə platforması kimi məsuliyyətli roluna diqqət çəkib.




AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli görüşdən məmnunluğunu ifadə edib, əməkdaşlıqların elmin inkişafına dəyərli töhfə verəcəyini bildirib. Akademik Azərbaycan Respublikası Prezidentinin 18 mart 2025-ci il tarixli "Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyinin qeyd edilməsi haqqında" Sərəncamını diqqətə çatdıraraq bu sənədin elmə, Akademiyaya və alimlərə verilən yüksək dəyərin bariz nümunəsi olduğunu vurğulayıb. O, yubiley tədbirinin ilk dəfə məhz doğma Naxçıvanda keçirilməsinin xüsusi əhəmiyyət daşıdığını bildirib. Akademik İsa Həbibbəyli, eyni zamanda Naxçıvan Dövlət Universitetinin son illərdə qazandığı uğurları, elmi nailiyyətləri və beynəlxalq əməkdaşlıq əlaqələrini yüksək qiymətləndirib.



AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev Naxçıvan Dövlət Universitetinin ölkənin ən qabaqcıl ali təhsil müəssisələri sırasında xüsusi yeri olduğunu söyləyib. Qeyd edib ki, əməkdaşlıq hər iki tərəfin mövcud imkanları çərçivəsində qarşılıqlı faydalı olmaq və ikitərəfli əməkdaşlığın genişləndirilməsi istiqamətində səylərini birləşdirmək istəklərinə əsaslanır.

AMEA Mərkəzi Elmi Kitabxanasının direktoru Hüseyn Hüseynov, NDU-nun Elmi Kitabxanasının direktoru Xumar Məmmədova çıxış edərək, birgə əməkdaşlığın daha uğurlu və səmərəli göstəricilərin əldə olunmasına vəsilə olacağını ifadə ediblər.

Daha sonra akademik İsa Həbibbəyli rektor Elbrus İsayevə və direktor Xumar Məmmədovaya AMEA Mərkəzi Elmi Kitabxanasının üzvlük vəsiqələrini təqdim edib.

Sonda birgə əməkdaşlıq münasibəti ilə görüşdən xatirə olaraq qarşılıqlı hədiyyələr təqdim edilib və foto çəkdirilib.

# Naxçıvan Dövlət Universiteti ilə İordaniyanın Əl-Əl Beyt Universiteti arasında Əməkdaşlıq Memorandumu imzalanıb

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayevin rəhbərlik etdiyi nümayəndə heyəti İordaniya Haşimilər Krallığına rəsmi səfər çərçivəsində bir sıra görüşlər keçirib. Səfərin əsas məqsədi NDU ilə İordaniyanın ali təhsil müəssisələri arasında əməkdaşlıq imkanlarını genişləndirmək olub.

Əl-Əl Beyt Universitetində keçirilən görüş zamanı rektor Elbrus İsayev və professor Osama Nasirin rəhbərlik etdiyi tərəflər qarşılıqlı təhsil və tədqiqat sahəsində birgə fəaliyyətləri müzakirə ediblər.



Görüşdə Azərbaycanın İordaniyadakı səfiri Eldar Səlimov da iştirak edərək, ölkələr arasında dostluq və mədəni yaxınlığa dair fikirlərini bölüşüb.

Görüşdə Azərbaycan Respublikasının İordaniya Haşimilər Krallığında fövqəladə və səlahiyyətli səfiri Eldar Səlimov, NDU-nun nümayəndə heyəti, Əl-Əl Beyt Universitetinin və səfirliyin rəsmiləri iştirak ediblər.

Səfir Eldar Səlimov ölkələrimizin tarixi keçmişindən söz açıb, Azərbaycan və İordaniya arasında tarixi, mədəni, dini, mənəvi oxşarlıqları nəzərə çatdırıb. Ölkələrimiz arasındakı münasibətlərin dost, qardaş münasibətləri olduğunu vurğulayıb. İki ölkə arasındakı əməkdaşlıq əlaqələrindən bəhs edib.

Rektor Elbrus İsayev görüşdən məmnunluq ifadə edib, təhsil sahəsində əlaqələrin inkişaf etdirilməsi ilə bağlı fikirlərini bölüşüb. Birgə əməkdaşlığın hər iki universitetin həyatında əlamətdar olacağını bildirib, ortaq fəaliyyətlərin irəlidə uğurlu layihələrə yol açacağını, iordaniyalı tələbələrin NDU-da təhsil almalarında maraqlı olduğunu əlavə edib. Rektor Əl Əl Beyt və NDU arasında əlaqələrin elmin, təhsilin inkişafında yeni fikir və idealar qazandıracağını söyləyib, xüsusilə ərəb dili ixtisasında akademik və tələbə mübadiləsinin, ortaq tədqiqatların planlaşdırıldığını diqqətə çatdırıb.

Rektor Elbrus İsayev çıxışı zamanı universitetlərarası tərəfdaşlıqların həm təhsil, həm də elmi tədqiqat baxımından önəmini vurğulayıb. Ərəb dili ixtisası üzrə müəllim və tələbə mübadiləsi, ortaq layihələr və elmi simpoziumların təşkili kimi planlar gündəmə gəlib.



Əl-Əl Beyt Universitetinin rektoru, professor Osama Nasirin görüşün hər iki qurum arasında tədris, təlim və elmi-tədqiqat sahələrində fəal əlaqələr yaratmaq və inkişaf etdirmək mahiyyətini ifadə etdiyini bildirib. Osama Nasirin NDU ilə qurulacaq ortaq fəaliyyəti əhəmiyyətli və uğurlu əməkdaşlıq olaraq qiymətləndirib.

Görüşdə əməkdaşlığın inkişafı və tərəfləri maraqlandıran digər mövzular ətrafında fikir mübadiləsi aparılıb. Sonra iki universitet arasında birgə akademik əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Memorandum çərçivəsində akademik və elmi əməkdaşlığın təşviqi üçün tərəflər arasında, təcrübə mübadiləsi və birgə elmi iş, tədqiqat, tələbə və professor mübadiləsi, ortaq konfrans və seminarların təşkili, NDU-nun "Ərəb dili" ixtisasında tədrisə və Ərəb dili mərkəzinə müəllimlərin cəlbi ilə bağlı birgə fəaliyyət planlaşdırılıb.

Sonra NDU-nun nümayəndə heyəti Əl-Əl Beyt Universiteti ilə Azərbaycan Respublikasının İordaniyadakı Səfirliyinin birgə təşkilatçılığı ilə keçirilən "Azərbaycan Mədəniyyəti Günü" tədbirində iştirak ediblər. Rektor Elbrus İsayev tədbirdə açılış nitqi ilə çıxış edib. Tədbirdə NDU-nun rəqs qrupu Azərbaycan xalq rəqslərini məharətlə nümayiş etdirib. Dialoq və İnkişaf naminə Dünya Mədəni Müxtəliflik Gününə təsadüf edən tədbir xoş təəssüratlar ilə yadda qalıb.

Eyni gündə NDU-nun nümayəndə heyəti Əl-Əl Beyt Universitetində "Azərbaycan Mədəniyyəti Günü"nə həsr olunan elmi-praktik konfransda iştirak edib. Konfrans iştirakçılarının sertifikatları rektor Elbrus İsayev tərəfindən də təqdim olunub.



Sonda Naxçıvan Dövlət Universitetinin nümayəndə heyəti universitet kampusu və infrastrukturu, müəllim və tələbələr üçün yaradılan şərait, laboratoriyalar, mərkəzlər ilə tanış olublar. Nümayəndə heyəti Əl-Əl Beyt Universitetində keçirilən idman yarışlarında iştirak edib, rektor Elbrus İsayev qaliblərə mükafatlarını təqdim edib.

# NDU-nun rektoru Elbrus İsayev Azərbaycanın Əmmandakı səfiri Eldar Səlimov ilə görüşüb, İordaniyanın Ali Təhsil və Elmi Tədqiqatlar Nazirliyində olub

20-23 may tarixlərində Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayevin rəhbərliyi ilə universitetin nümayəndə heyəti İordaniya Haşimilər Krallığına səfər edib. İordaniyaya səfər çərçivəsində rektor Azərbaycan Respublikasının İordaniyadakı Səfirliyində olub, Azərbaycanın Əmmandakı səfiri Eldar Səlimov ilə görüşüb.

Görüşdə səfir Eldar Səlimov Azərbaycan-İordaniya əlaqələrinin yüksələn xətlə inkişaf etdiyini bildirib, ölkələrimiz və dövlət başçılarımız arasındakı münasibətlərin dost, qardaş münasibətləri olduğunu vurğulayıb.





Rektor Elbrus İsayev görüşdən məmnunluğunu ifadə edib, iki ölkə arasında elm və təhsil sahəsində əməkdaşlığın inkişaf etdirilməsində NDU-nun da təşəbbüskar tərəf olaraq iştirakda maraqlı olduğunu ifadə edib. Bu istiqamətdə perspektivlər, xüsusilə əcnəbi tələbələrin cəlbinə dair fikir mübadiləsi aparılıb.

Görüşdən sonra səfirlikdə təşkil edilmiş "Qərbi Azərbaycan mədəni irsi" adlı sərginin açılış mərasimi keçirilib. Yaxın və Orta Şərqin tanınmış kolleksionerlərindən biri, tədqiqatçı, əntiq əşyalar və şərq xalçaları üzrə mütəxəssis Məhəmməd Əl-Bağdadinin kolleksiyasından seçilmiş, Qərbi Azərbaycan mədəni irsinin zənginliyini, orijinallığını və tarixi dərinliyini əyani şəkildə nümayiş etdirən tekstil, zərgərlik, metal məmulatları, tarixi sikkələr və digər əşyalar sözügedən sərgidə nümayiş olunub. Ekspozisiyada Qərbi Azərbaycan ərazisində yaşayan soydaşlarımızın istifadə etdikləri XVIII-XIX əsrlərə aid məişət və bəzək əşyaları, silah və zirehlər, milli geyimlər, Qərbi Azərbaycan xovlu və xovsuz xalçaları, həmçinin 1654-1720-ci illər ərzində İrəvanda zərb olunmuş Səfəvilərə aid 5 ədəd sikkə nümayiş etdirilib.

Eyni gündə rektor Elbrus İsayev İordaniya Ali Təhsil və Elmi Tədqiqatlar Nazirliyinin müavini - baş katib Mamun Əl-Dəbai ilə görüşüb. Görüşdə Azərbaycan Respublikasının İordaniya Haşimilər Krallığında fövqəladə və səlahiyyətli səfiri Eldar Səlimov, NDU-nun nümayəndə heyəti, o cümlədən nazirliyin və səfirliyin bir sıra rəsmiləri iştirak ediblər.



Əl-Dəbai Azərbaycan nümayəndə heyətini salamlayaraq, İordaniya ilə Azərbaycan arasında dərin köklərə malik qarşılıqlı əlaqələrdən danışıb. NDU və Əl-Əl Beyt Universiteti arasında ali təhsil, tələbə-müəllim mübadiləsi, elmi tədqiqatlar sahəsində əlaqələrin tənzimlənməsi və inkişaf etdirilməsi üçün imzalanan əməkdaşlıq müqaviləsinin önəmli mahiyyət kəsb etdiyini ifadə edib. İordaniya ali təhsil müəssisələrində təhsil alan əcnəbi tələbələrin qəbul qaydaları, onlara təklif olunan imkanlar ilə bağlı məlumatlardan bəhs edib. O, həmçinin Ərəb dili və İslam hüququ ixtisaslarını öyrənmək istəyən qeyri-ərəb dilli ölkələrdən olan müsəlman tələbələrə universitet təhsil haqlarının ödənilməsində İordaniya tələbələri ilə bərabər şəkildə təklif olunan qaydaları diqqətə çatdırıb.



Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev səmimi qəbula və qonaqpərvərliyə görə Əl-Dəbaiyə minnətdarlığını bildirib, ikitərəfli əlaqələrin təhsil mühitinin inkişafına yönəldiyini qeyd edib. Rektor vurğulayıb ki, NDU-da beynəlmiləlləşmə əsas strateji inkişaf prioritetləri sırasında yer alır və dünyanın 150-yə yaxın universiteti ilə birbaşa əlaqələri var. Əcnəbi tələbə kontingentinə görə ölkə universitetləri arasında ön sırada qərarlaşır ki, hazırda ali təhsil ocağında 15 ölkədən 2000-ə yaxın əcnəbi tələbə təhsil alır. Universitetdə Azərbaycan dili ilə yanaşı, tədrisi ingilis dilində olan ixtisaslar da var. Rektor vurğulayıb ki, universitetdə xarici ölkələrin ali təhsil müəssisələri arasında əməkdaşlıqlar, birgə proqramların təşkili, beynəlxalq tələbə-müəllim mübadiləsi, universitetlər arasında beynəlxalq təcrübənin öyrənilməsi kimi məsələlər gündəmdə saxlanılır. Əcnəbi universitetlər ilə ortaq kadr hazırlanması sahəsində mühüm əhəmiyyət kəsb edən ikili diplom proqramları, beynəlxalq təlimlər və beynəlxalq əməkdaşlıqda yeni layihələrin reallaşması yönündə geniş fəaliyyət təşkil olunur. Bu fəaliyyətlər çərçivəsində İordaniyanın Əl-Əl Beyt Universiteti ilə qurulan əməkdaşlıq da xüsusi mahiyyət kəsb edir, irəliyə doğru yeniliklər nəzərdə tutulur. Xüsusilə ali təhsil və elmi tədqiqatlar sahəsində əlaqələrin daha da inkişaf etdirilməsi, müxtəlif ixtisaslar üzrə iordaniyalı professorların tədrisə cəlbi, ərəb dili ixtisasında akademik və tələbə mübadiləsinin, ortaq tədqiqatların planlaşdırıldığını diqqətdə çatdırıb. Rektor Elbrus İsayev və baş katib Əl-Dəbai NDU-nun ixtisaslarının İordaniyada akkreditasiyası ilə bağlı məsələləri müzakirə ediblər.

Sonda görüşdən xatirə olaraq qarşılıqlı hədiyyələr təqdim edilib və foto çəkilib.

# Hacəttəpə Universiteti ilə birgə əməkdaşlığa dair yeni razılaşmalar əldə olunub

Təhsil və səhiyyə sahəsində beynəlxalq tərəfdaşlığın inkişafı məqsədilə NDU nümayəndə heyəti Ankarada Hacəttəpə Universitetində olub.

Görüşdə Hacəttəpə Universiteti rektoru Mehmet Cahit Güran ali təhsil müəssisələri arasındakı əməkdaşlıqdan məmnunluğunu ifadə edib, səmərəli əməkdaşlıqdan söz açıb. Xüsusilə tibb təhsili sahəsində görülmüş işlər və gələcək fəaliyyətlərdən bəhs edib. Rektor Mehmet Cahit Güran əməkdaşlığın davam etdirilməsi üçün qarşılıqlı müzakirələrin aparıldığını və bu görüşlərin rektorluq tərəfindən daim diqqətdə saxlanıldığını bildirib.



NDU rektoru Elbrus İsayev səmimi qarşılamaya görə təşəkkür edib, qarşılıqlı fəaliyyətlərin əhəmiyyətini vurğulayıb, bildirib ki, Hacəttəpə nümunəsində və ortaq proqramla yaradılmış 4 illik Tibb bacısı işi ixtisasında tədris uğurla davam edir. Rektor Elbrus İsayev Tibb bacısı işi ixtisasının Hacəttəpə Universitetinin Hemşirelik fakültəsi tərəfindən daim diqqətdə saxlanıldığını və bu ixtisasda təhsil alan tələbələrin təcrübə və mübadilələrinin Hacəttəpə Universitetində təşkili, Hemşirelik fakültəsinin akademik heyətinin mütəmadi olaraq NDU-da sözügedən ixtisasda təlim-tədris prosesinə cəlbi, proqram və dərs vəsaiti sahəsində dəstək göstərilməsi məsələlərini yüksək qiymətləndirib. Rektor bu ixtisasda ikili diplom proqramı üçün hazırlıqların getdiyini vurğulayıb.

Rektor Elbrus İsayev Hacəttəpə Universiteti ilə qarşılıqlı əməkdaşlıq çərçivəsində bir çox istiqamətlər üzrə fəaliyyətlərin davam və inkişaf etdirilməsi, yeni layihələrin icrası ilə bağlı müzakirələr aparıb.



Akademik heyət və tələbə mübadiləsinin təşkil edilməsi, tibb tələbələrinin yay təcrübəsində iştirakında tələbə sayının artırılması, rezidentlərin Hacəttəpə Universitetinə rotasiyası, Tibb bacısı işi ixtisası üzrə tədrisin təkmilləşdirilməsi, ixtisaslı Hacəttəpə fakültəsi Hemşirelik ixtisası müəllimlərinin NDU-da tədrisə cəlbi, Hacəttəpə Universiteti xəstəxanalarında fəaliyyət göstərən həkimlərin Naxçıvan Dövlət Universitetində tədrisə, muxtar respublika xəstəxanalarında müayinə və əməliyyatlara cəlbi müzakirə olunan istiqamətlər arasında yer alıb. Eyni zamanda "Tibb bacılarının inkişaf proqramı" çərçivəsində "Yaşam Boyu Öğrenme Merkezi"ndə muxtar respublika xəstəxanlarında fəaliyyət göstərən tibb bacılarının ixtisasartırma proqramlarına və 50 nəfər tələbə-müəllimin müşahidəçi qismində Hacəttəpədə tədrisə və xəstəxanalara cəlbi, qısamüddətli təkmilləşdirmə



proqramlarının Hacəttəpədə təşkili kimi məsələlər müzakirə olunub. Həmçinin NDU Tibb Kollecinin tədris proqramlarının təkmilləşdirilməsində Hacəttəpə dəstəyi, əla qiymətlərlə məzun olan NDU Tibb fakültəsi məzunlarının Hacəttəpə Universitetində ixtisasartırma və rezidentura təhsilinə cəlb edilməsi, ortaq simpozium, konfrans və tədbirlərin təşkili və işçi və tədqiqat qruplarının yaradılması da görüşdə fikir mübadiləsi aparılan məsələlər sırasında yer alıb.

Görüşdə Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı Səfirliyinin Təhsil məsələləri üzrə müşaviri Nəcibə xanım Nəsibova da iştirak edib.

Qeyd edək ki, aprelin 29-da NDU nümayəndə heyəti ilə Hacəttəpə Universitetinin bir neçə fakültəsi arasında növbəti görüşlər olub. Tibb bacısı, Diş həkimliyi və Tibb fakültələrində bir çox mövzular ətrafında müzakirələr aparılıb. Tibb bacısı işi, Stomatologiya ixtisasında təcrübə və tədris proqramlarının təkmilləşdirilməsi, akademik dəstək, Hacəttəpə professor-həkimlərinin NDU-da tədrisə cəlbi və hibrid dərslərin təşkili və digər məsələlərə dair qarşılıqlı razılaşmalar əldə edilib.

***Kifayət Mahmudova***

# NDU ilə İstanbul Universiteti arasında ikili diplom müqavilələri imzalanıb

Türkiyənin İstanbul şəhərində Naxçıvan Dövlət Universiteti ilə İstanbul Universiteti arasında iki ixtisas üzrə ikili diplom layihəsinin imzalanma mərasimi olub.

İkili diplom müqavilələri Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev və İstanbul Universitetinin rektoru Osman Bülent Zülfikar tərəfindən imzalanıb.

Türkiyənin ilk və köklü universiteti olaraq 1453-cü ildə yaranmış İstanbul Universiteti ilə Azərbaycanın ən geniş profilli universiteti - Naxçıvan Dövlət Universiteti arasında əməkdaşlıq yeni istiqamətdə rəsmiləşib. Tərəflər arasında ikili diplom layihəsi üzrə əməkdaşlıq magistratura səviyyəsində "Türk dünyası tarixi" və "Strateji idarəetmə" ixtisaslarını əhatə edəcək. İki ixtisas üzrə mütəxəssislərin hazırlanmasını hədəfləyən yeni əməkdaşlıq dövlət proqramı çərçivəsində həyata keçirilib.





Yeni ixtisaslarda təhsil alacaq tələbələr təhsillərinin bir ilini NDU-da, bir ilini İstanbul Universitetində davam etdirəcək. Hər iki universitetin təcrübəsinə yiyələnəcək tələbələr sonda tərəfdaş universitetlərin diplomlarını əldə edəcəklər.

# "APTIS" layihəsinin yekununa dair sertifikatların təqdimatı

Naxçıvan Dövlət Universitetinin Beynəlxalq Kembric Məktəbində BP və Britaniya Şurasının Azərbaycandakı nümayəndəliyinin NDU-da "APTIS" layihəsinin yekununa dair sertifikatların təqdimetmə mərasimi keçirilib.



Tədbirdən öncə məktəbin 6-cı sinif şagirdlərinin hazırladığı əl işlərindən ibarət elmi layihələrin təqdim olunduğu sərgiyə baxış olub.

Sonra NDU və Britaniya Şurasının Azərbaycandakı nümayəndəliyi arasında əməkdaşlıq memorandumu yenilənib.

Rektor Elbrus İsayev çıxış edərək tədbiri vacib və əhəmiyyətli görüş adlandırıb. BP və Britaniya Şurasının ölkəmiz üzrə nümayəndəliyi ilə əməkdaşlığı faydalı, səmərəli işbirliyi olaraq dəyərləndirib. Bu çərçivədə Azərbaycan ali təhsil məkanında ilk dəfə olaraq NDU-da 2022-ci ildə yaradılan IELTS Qeydiyyat və İmtahan Mərkəzinin yaradılmasını, müəllimlərin ingilis dili biliklərini qiymətləndirən beynəlxalq səviyyəli ingilis dili "APTIS" təlimini tərəfdaşlığın mühüm nəticəsi olduğunu bildirib.

BP-nin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli əməkdaşlıqdan məmnunluğunu ifadə edib və çoxdan gözlənilən görüş olduğunu söyləyib. Bəxtiyar Aslanbəyli ikitərəfli əlaqələrin təhsil mühitinin inkişafına yönəldiyini vurğulayıb, BP-nin sosial layihə tərəfdaşlıqları sırasında xüsusi yer alan NDU ilə yeni layihələrin həyata keçiriləcəyini qeyd edib.

Britaniya Şurasının Azərbaycan üzrə direktoru Nərgiz Hacıyeva çıxışında ömürboyu təhsil konsepsiyasından söz açıb, NDU ilə tərəfdaşlığın ən dəyərli partnyorlar sırasında olduğunu söyləyib. Nərgiz Hacıyeva NDU-da "APTIS" və perspektivdə planlaşdırılan fəaliyyətlərin aktiv işbirliyinə hədəfləndiyini bildirib.



NDU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru Aidə Cəlilzadə bildirib ki, 16 oktyabr 2024-cü il tarixində ilk olaraq təlimdə iştirak etmiş müəllimlər üçün "APTIS" diaqnostik testi keçirilib. Daha sonra universitetin ingilis dili və tədrisi ingilis dilində olan ixtisaslarda dərs deyən müəllimləri beş aya yaxın davam edən təlimlərdə iştirak ediblər. Proqrama uyğun olaraq, müəllimlərin ingilis dili nəzəri bilikləri və tədris bacarıqları təkmilləşdirilib. Bu əsasda onların yazı, oxu, dinləmə, danışıq bacarıqları, söz ehtiyatı və qrammatika üzrə bilikləri qiymətləndirilib. Britaniya Konsulluğunun dörd təlimçisi nəzərdə tutulan dərslər əsaslı onlayn təlimlər keçib. 120 saatlıq onlayn təlimlər öncə 39 müəllimin iştirakı ilə başlanıb. Yekunda isə təlimləri uğurla tamamlayan 28 müəllim imtahanda iştirak hüququ qazanıb. NDU-nun IELTS Mərkəzində yekun "APTIS" imtahanı keçirilib.

"APTIS" layihə iştirakçıları adından çıxış edən Beynəlxalq Kembric Məktəbinin ingilis dili müəllimi Elçin Mirzəyev universitet tərəfindən müəllimlər üçün yaradılan şəraitə görə təşəkkürünü bildirib.

Sonra layihəni uğurla başa vuran müəllimlərə sertifikatlar təqdim edilib.



Yekunda rektor Elbrus İsayev tərəfindən tərəfdaşlara plaketlər və hədiyyələr təqdim edilib, tədbirdən xatirə fotosu çəkilib.

# Süni intellekt və qeyri-səlis məntiqə dair elmi intellektual görüş

NDU-nun nəzdində fəaliyyət göstərən Beynəlxalq Məktəbdə Azərbaycan Dillər Universitetinin rektoru Kamal Abdulla, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, texnika elmləri doktoru, professor Rafiq Əliyev universitetin kollektivi ilə görüşüb. Tədbirdə universitetin rəhbər heyəti, müəllim və tələbələr, NDU-nun nəzdində İngilis dili Təmayüllü Gimnaziyanın şagirdləri iştirak ediblər.

Universitetin rektoru Elbrus İsayev giriş nitqi ilə çıxış edərək qonaqları salamlayıb və görüşdən məmnunluq ifadə edib. Rektor bu cür elmi görüşlərin universitetin intellektual mühitinə dəyərli töhfə verdiyini vurğulayıb. Təqdim olunacaq çıxışların süni intellekt sahəsində beynəlxalq yanaşmaların öyrənilməsi baxımından əhəmiyyətli olacağını bildirib.





NDU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru Aidə Cəlilzadə qonaqları təqdim edərək qeyd edib ki, akademik Kamal Abdulla dövlət və elm sahəsində zəngin fəaliyyəti ilə tanınır. O, AMEA-nın həqiqi üzvü, Azərbaycan Dillər Universitetinin rektoru, birinci dərəcəli dövlət müşaviri olmaqla yanaşı, bir sıra nüfuzlu elmi qurumların da üzvüdür. Eyni zamanda yüzlərlə elmi əsərin müəllifidir. Professor Rafiq Əliyev haqqında məlumat verən prorektor onun texnika elmləri doktoru, AMEA-nın müxbir üzvü, süni intellekt və qeyri-səlis məntiq sahəsində tanınmış alim olduğunu diqqətə çatdırıb. Vurğulayıb ki, alimin 70-dən çox kitabı, 350-dən artıq məqaləsi mövcuddur və müxtəlif ölkələrdə onlarla doktoranta elmi rəhbərlik edib.

Qonaq professorlar Kamal Abdulla və Rafiq Əliyev müəllifi olduqları "Kitabi-Dədə Qorqud və qeyri-səlis məntiq" və "Qeyri-səlis məntiq və nitq-dil" adlı kitablar haqqında məlumat veriblər. Bildirilib ki, hər iki nəşr qeyri-səlis məntiqin banisi Lütfizadənin xatirəsinə həsr olunub. Akademik Kamal Abdulla çıxışında qeyd edib ki, qeyri-səlis məntiqin dil və nitq müstəvisində araşdırılması elmi baxımdan yeni yanaşmadır və bu istiqamətdə aparılan tədqiqatlar diqqətəlayiq nəticələr vəd edir. Professor Rafiq Əliyev isə qeyri-səlis məntiqin sosial elmlərə tətbiqi ilə bağlı fikirlərini bölüşüb. Bildirib ki, bu yanaşma müasir elmi paradiqmalarda mühüm istiqamətlərdən birinə çevrilməkdədir. O, həmçinin süni intellektin inkişaf tarixi və onun cəmiyyətə təsiri barədə fikirlərini də tədbir iştirakçıları ilə paylaşıb.

Görüş iştirakçıların sualları ilə davam edib. Sonda qonaqlar NDU-nun rektoru Elbrus İsayevə müəllifi olduqları kitabları hədiyyə ediblər.

***Nardanə Əliyeva***

# Robot moderatorla beynəlxalq konfrans: Süni intellektin yeni addımı












Konfransdan öncə universitetin Memarlıq və mühəndislik fakültəsinin tələbələrinin süni intellekt proqramı ilə hazırlanan yaradıcılıq nümunələrindən ibarət sərgiyə baxış olub. Sərgidə moderator robot "Banu", radio siqnal ilə idarə olunan robot qol, müasir gömrük sistemi, CNC printer-lazer, hərbi sənaye üçün müdafiə sistemi, rəssam printer, ağıllı ev, ağıllı şəhər, NDU üçün prototip tramvay, ağıllı dayanacaq, ağıllı avtomobil dayanacaqları, ağıllı eynək, süni intellekt modeli-proqram, tullantı qablardan flament istehsal edən qurğu nümayiş olunub.

"Süni intellekt: nəzəriyyədən praktikaya" II Beynəlxalq elmi konfrans süni intellekt sistemlərinin müxtəlif sahələrdə tətbiqi ilə bağlı videoçarxın izlənilməsi ilə başlanıb. Naxçıvan Dövlət Universiteti, ARETN İdarəetmə Sistemləri İnstitutu, Türkiyənin İstanbul Universiteti-Cərrahpaşa, Düzce Universiteti, Gümüşhane Universiteti, Rusiyanın "Cənub" Universitetinin birgə təşkilatçılığı ilə keçirilib.

Konfrans robot moderator "Banu"nun təqdimatında baş tutub.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev iştirakçıları açılış nitqi ilə salamlayıb, qeyd edib ki, süni intellekt ilə bağlı maarifləndirmə işində ali təhsil müəssisələrinin də qarşısında mühüm vəzifələr dayanır. Bu mənada konfrans tədqiqatçılar üçün bilik və təcrübə mübadiləsi imkanı yaratmaqla yanaşı, eyni zamanda yeni tədqiqat istiqamətlərinin təməlini qoymaq üçün də əhəmiyyətli bir platformadır. Çünki irəlidə bu sahədə tədqiqatlar aparmaq, kadrlar hazırlamaq, süni intellekt ekosisteminin formalaşmasında iştirakçı tərəf olmaq üçün uğurlu bir təşəbbüsdür. Elbrus İsayev qeyd edib ki, artıq universitetdə tədris olunan ixtisaslarda süni intellekt seçmə fənn olaraq şaxələndirilib. İki gün ərzində keçirilən bu əlamətdar tədbir də xüsusi mahiyyət kəsb edir. "Ötən il olduğu kimi, bu il də ikincisinə ev sahibliyi etdiyimiz konfrans vasitəsi ilə müxtəlif ölkələrdən olan tədqiqatçılar arasında əməkdaşlıq əlaqələri inkişaf etdiriləcək, elmi yeniliklər geniş auditoriya ilə paylaşılacaq. Həmçinin gənc tədqiqatçıları elmi fəaliyyətə təşviq edərək, onların süni intellekt sahəsində daha da ixtisaslaşmasına şərait yaradacaq"-deyə rektor bildirib.

Naxçıvan MR rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini, nazir səlahiyyətlərini icra edən Azər Məmmədrəhimov bildirib ki, Naxçıvan Dövlət Universiteti süni intellekt sahəsində məqsədyönlü fəaliyyətlər həyata keçirir. Universitet nazirlik ilə sıx əməkdaşlıq edir, tələbələrinə yeni təcrübələr qazandırır. Sərgi və konfrans da öz növbəsində süni intellektin yeni idarəetmə, yeni baxış modelini zəngin proqramı ilə ictimailəşdirir və maariflənmədə xüsusi rol oynayır.

ARETN İdarəetmə Sistemləri İnstitutunun baş direktoru, akademik Əli Abbasov müasir dövrdə insan həyat fəaliyyətinin bütün sahələrinə sürətlə nüfuz edən süni intellekt texnologiyalarının inkişafından bəhs edib, Prezident İlham Əliyevin 2025-ci il 19 mart tarixli Sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası"ndan irəli gələn vəzifələrdən söz açıb. Akademik konfransı yüksək dəyərləndirib, süni intellekt texnologiyalarının daha da inkişaf etdirilməsinə, innovasiyaların tətbiqinə və elmi ictimaiyyətin gücləndirilməsinə mühüm töhfə verəcəyini bildirib. Eyni zamanda proqramda elmi etik prinsiplərə uyğun olaraq hazırlanan məqalə və tezislərin dəyərli mənbə kimi xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb. Akademik Əli Abbasov qeyd edib ki, universitetin belə məsuliyyətli bir işdə yüksək təşkilatçılığı təqdirəlayiqdir.

Türkiyənin İstanbul Universiteti-Cərrahpaşa rektoru, professor Nuri Aydın, Rusiyanın "Cənub" Universitetinin rektoru professor İmran Əkbərov, Gümüşhane Universitetinin rektoru, professor Oktay Yıldız məruzə ilə çıxış ediblər. Natiqlər konfransı süni intellektin nəzəri və texniki aspektlərini əhatə edən elmi fikir mübadiləsi aparmaq üçün əhəmiyyətli platforma adlandırıb. Universitetin intellektual yöndə təşəbbüskar layihələrə ev sahibliyi etməsini yüksək dəyərləndirib, konfransda iştirakdan məmnunluq ifadə ediblər.

Çıxışlardan sonra rektor Elbrus İsayev konfransın təşkilində əməyi olan əməkdaşlara təşəkkürnamələr, həmçinin nin tərəfdaşlara göstərdiyi dəstəyə görə hədiyyələr təqdim edib.

Eyni zamanda konfrans proqramı çərçivəsində Naxçıvan Dövlət Universiteti ilə İstanbul Universiteti – Cerrahpaşa, Gümüşhane Universiteti, ARETN İdarəetmə Sistemləri İnstitutu arasında birgə təhsil və elmi-tədqiqat fəaliyyətlərində əməkdaşlıq istiqamətində ayrı-ayrılıqda Əməkdaşlıq Memorandumu imzalanıb.

Açılış tədbirindən sonra konfrans öz işini bölmə iclasları ilə davam etdirib. İki gün davam edən bölmə iclaslarında Azərbaycanın və dünyanın müxtəlif ölkələrinin elm-təhsil müəssisələrinin tədqiqatçılarının üz-üzə və onlayn iştirakı ilə ümumilikdə 4 salonda, 26 paneldə çıxışlar olub. 59 təşkilatın 282 tədqiqatçısı tərəfindən 210 tədqiqat üzrə məruzələr dinlənilib. Konfransın sonunda iştirakçılara sertifikatlar təqdim edilib. Vurğulayaq ki, konfransda Azərbaycanın 33 elm-təhsil müəssisəsindən nümayəndələr iştirak edib.

Qeyd edək ki, "Süni intellekt: nəzəriyyədən praktikaya" II Beynəlxalq Elmi Konfransın materialları beynəlxalq standartlara uyğun indeksləşmiş, hər bir məqalə DOİ kodu ilə elektron və çap variantında nəşr olunacaq. "Süni intellekt: nəzəriyyədən praktikaya" II Beynəlxalq Elmi Konfransına təqdim olunan, hakim yoxlamalarından keçmiş, müsbət rəy almış və jurnalların şərtlərinə cavab verən məqalələr Scopus bazalı Electrica və digər indeksli beynəlxalq jurnalların nəzərdən keçirilməsi prosesi vasitəsilə tam mətn formatda nəşr olunacaq.

***Kifayət Mahmudova***

# Elbrus İsayev Tibb Festivalının açılışında: Akademik əlaqələr gücləndirilir

Mayın 6-da Azərbaycan Tibb Universitetinin 95 illik yubileyi və Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş Tibb Festivalının açılış mərasimi keçirilib. Türkiyə, Özbəkistan və Belarusdan gəlmiş alimlərin, tibb ictimaiyyəti nümayəndələrinin də qatıldığı festival aktual elmi mövzuların müzakirəsinə həsr edilib.

Tədbir iştirakçıları əvvəlcə Ulu Öndər Heydər




Əliyevin büstünün və ölkəmizin suverenliyi və torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhid həkimlərin xatirəsinə ucaldılmış abidənin önünə gül dəstələri düzüblər. Sonra qonaqlar Tibb Festivalının sərgi və startap guşəsinə baxıblar.

Mərasimdə açılış nitqi ilə çıxış edən Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli 95 il öncə ali məktəbin yaradılmasını ölkəmizdə səhiyyənin və tibb təhsilinin inkişafı tarixində önəmli bir dönüş nöqtəsi kimi qiymətləndirib. Rektor Ulu Öndər Heydər Əliyevin elmə, təhsilə, xüsusilə də tibb sahəsinin inkişafına böyük diqqət və qayğı ilə yanaşdığını, Azərbaycan Tibb Universitetinin inkişafını strateji əhəmiyyətli bir məsələ kimi dəyərləndirdiyini bildirib.

Çıxışın sonunda rektor G.Gəraybəyli yubiley münasibətilə hər kəsi təbrik edib, festival iştirakçılarına məhsuldar müzakirələr, elmi nailiyyətlər arzulayıb.

Sonra ATU-nun tarixi inkişaf yolundan və bu gündən bəhs edən "95 ilin işığında" filmi nümayiş olunub.

Festivalın açılış mərasimində AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının rektoru, professor Əziz Əliyev, Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev iştirak ediblər.

Elbrus İsayev təbrik nitqi ilə çıxış edib. Bildirib ki, Naxçıvan Dövlət Universiteti ilə Azərbaycan Tibb Universiteti arasında uzun illərdir davam edən əməkdaşlıq əlaqələri var. Hər iki universitet arasında birgə fəaliyyət rəsmi əməkdaşlıq müqaviləsi ilə möhkəmlənib və bu gün ortaq işbirliyimiz davam edir. Rektor festivalda iştirak etməkdən məmnunluq ifadə edib və universitet tələbələrinin əl işlərindən ibarət Ümummilli Lider Heydər Əliyevin və akademik Zərifə Əliyevanın fotosunun əks olunduğu rəsm əsərini xatirə olaraq Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyliyə təqdim edib, konqresin işinə uğurlar arzulayıb.

Eyni zamanda Türkiyənin Sağlamlıq Elmləri Universitetinin rektoru, professor Kəmaləddin Aydın, Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun direktoru, professor Nazim Qasımov, Səmərqənd Dövlət Tibb Universitetinin rektoru, professor Cəsur Rzayev, Belarus Dövlət Tibb Universitetinin rektoru Sergey Rubnikoviç və Buxara Dövlət Tibb Universitetinin rektoru, professor Şöhrət Taşayev də festivalda təbrik nitqi ilə çıxış ediblər.

Qeyd edək ki, Tibb Festivalı öz işini paralel panel




sessiyalarla davam etdirib. Sessiyalarda daxili xəstəliklər, radiologiya, nevrologiya, klinik mikrobiologiya, pediatriya, epidemiologiya və cərrahiyyə sahəsində yeniliklərə, müasir çağırışlara həsr olunmuş elmi müzakirələr aparılıb.

Festival geniş konsert proqramı ilə yekunlaşıb.

# NDU-nun Tibb fakültəsinin 25 illik yubileyi təntənəli mərasim ilə qeyd olunub

29 may tarixində Naxçıvan Dövlət Universitetində Tibb fakültəsinin 25 illik yubileyinə həsr edilmiş "Tibb təhsili: qabaqcıl təcrübələr və innovasiyalar" I Respublika elmi konfransının və "Cərrahi və mama-ginekoloji problemlərə multidissiplinar yanaşmalar" Beynəlxalq elmi-praktik konfransının açılış tədbiri olub.

Tədbirdən öncə konfrans iştirakçıları Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyub, əziz xatirəsini ehtiramla yad edib, Ulu Öndərin adını daşıyan muzeyi ziyarət ediblər.

Konfranslar Naxçıvan Dövlət Universitetinin, Azərbaycan Tibb Universitetinin, Qarabağ Universitetinin, Səmərqənd Dövlət Tibb Universitetinin, Əziz Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun birgə təşkilatçılığı ilə baş tutub. Tədbirdə Türkiyə Respublikasından və Azərbaycanın müxtəlif bölgələrindən 120-dək yüksəkixtisaslı həkim-mütəxəssislər iştirak edib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.



Açılış tədbirində Tibb fakültəsi haqqında videoçarx təqdim olunub.

Tədbiri giriş sözü ilə açan rektor Elbrus İsayev konfrans iştirakçılarını salamlayıb, qonaqlara əlamətdar təqvimdə iştirakları üçün təşəkkürünü bildirib. Rektor Naxçıvan Dövlət Universitetində Tibb fakültəsinin yaradılmasını muxtar respublikada səhiyyənin inkişafında önəmli bir dönüş nöqtəsi olaraq qiymətləndirib. Bildirilib ki, Naxçıvan Muxtar Respublikasının səhiyyə sistemində tibbi kadrlara olan zəruri ehtiyacları nəzərə alan Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və dəstəyi ilə 1999-2000-ci tədris ilində Naxçıvan Dövlət Universitetində baza ali tibb təhsilinin əsası qoyulub, universitetə böyük və əvəzsiz etimad göstərilib. Rektor fakültənin fəaliyyəti və əldə olunan nailiyyətlərdən danışıb, Naxçıvan Muxtar Respublikası səhiyyəsi üçün ixtisaslı həkim kadrlarının hazırlanmasını fakültənin yaradılmasında başlıca məqsəd adlandırıb. Bu günədək Tibb fakültəsindən mindən artıq həkim məzun olduğunu qeyd edən Elbrus İsayev hazırda Tibb fakültəsində 9 ixtisas üzrə, o cümlədən SABAH qruplarında Azərbaycan və ingilis dili bölmələrində 2000-dən artıq tələbə təhsil aldığını diqqətə çatdırıb: "2012-ci ildən Tibb fakültəsinin nəzdində rezidentura hazırlığı başlanıb və bu gün fakültədə 33 ixtisas üzrə 88 rezident təhsil alır. Ümumilikdə isə bu günədək rezidentura üzrə məzun sayı 109 nəfər təşkil edib. Tələbə və rezident məzunlar arasından isə 226 nəfəri xarici ölkə vətəndaşı olub".

Fakültənin məzunlarının dünyanın dörd bir yanında peşəkar həkimlər və alimlər olaraq fəaliyyət göstərib, ölkəmizi layiqincə təmsil etdiyini qeyd edən rektor ötən illərdə hər zaman Tibb fakültəsinin region üçün strateji əhəmiyyət daşıdığını vurğulayıb, bütün



inkişaf dövlərində dövlət dəstəyinin olduğunu diqqətə çatdırıb. Rektor Elbrus İsayev ölkə başçısının 2023-cü il 5 iyun tarixli "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"ı haqqında Sərəncamı ilə Naxçıvan Dövlət Universitetində tibb elmləri proqramlarının tətbiqinin prioritet istiqamətlərdən biri kimi müəyyən edildiyini bildirib, bu əsasda universitetdə yaradılacaq Tibb kampusu barədə ətraflı məlumat verib. Rektor Sərəncamın icrası ilə əlaqədar olaraq, 2024-2025-ci tədris ilində Naxçıvan Dövlət Universitetində müsabiqə yolu ilə 21 nəfər tələbə qəbul olunmaqla ölkə universitetləri arasında da ilk dəfə "Tibb" ixtisası üzrə SABAH qrupları yaradıldığını vurğulayıb.

Elbrus İsayev yubiley tədbiri çərçivəsində müxtəlif konfranslar, seminarlar, vorkşoplar, masterklaslar, kitab təqdimatları təşkil edildiyini söyləyib, çıxışının sonunda yubiley münasibətilə hər kəsi təbrik edib, konfrans iştirakçılarına məhsuldar müzakirələr, elmi nailiyyətlər arzulayıb.

Sonra Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli çıxış edib. Vurğulanıb ki, 25 il öncə Naxçıvan Dövlət Universitetində Tibb fakültəsinin yaradılması gələcəyə hesablanmış tarixi hadisə olub. Bu gün tam formalaşmış tibb təhsil ocağında, müasir tibb sahəsini əks etdirən tədris proqramları həyata keçirilir. Rektor Gəray Gəraybəyli qeyd edib ki, Azərbaycan Tibb Universiteti ilə NDU arasında əlaqələr Əməkdaşlıq Memorandumu ilə rəsmiləşib, ortaq layihələr ilə davamlı inkişaf etdiyini və möhkəmləndiyini bildirib, ATU adından rektor Elbrus İsayevə hədiyyə təqdim edib.

Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru, cənab Nazim Qasımov konfransda iştirakdan məmnunluq ifadə edib, Tibb fakültəsinin təkmil strukturda fəaliyyətindən bəhs edib. Fakültədə tədrisin auditoriya dərsləri, klinikaya hazırlıq və kilinika dərsləri şəklində təşkil olunmasının mühüm əhəmiyyət daşıdığını vurğulayıb. Nazim Qasımov əlamətdar təqvimin aktual mövzular başlığında konfranslar çərçivəsində işıqlandırılmasının daha yaddaqalan olacağını bildirib, uğurlar arzulayıb və rektor Elbrus İsayevə hədiyyə təqdim edib.

Videotəqdimatla çıxış edən Səmərqənd Dövlət Tibb Universitetinin rektoru, professor Cəsur Rzayev yubiley münasibətilə təbrik edib, NDU ilə əməkdaşlığın davamlı və hər zaman yenilikçi fəaliyyətlərə yol açdığını ifadə edib.

Qarabağ Universiteti Klinikasının direktoru cənab Samir Babayev çıxışında dəvətə görə təşəkkürünü çatdırıb və NDU ilə işbirliyinin qurulmasını, Tibb fakültəsinin 25 il ərzində qazandığı təcrübələrin bölüşülməsi yolunda əməkdaşlıqlarını yüksək qiymətləndirib, tədbirdə iştirakdan məmnunluq ifadə edib.

Eyni zamanda Türkdilli Dövlətlərin Tibb Cəmiyyətlər Birliyinin sədri Serkan Eroğlu, Sakarya Universitetinin Tibb fakültəsinin dekanı Fatih Altıntoprak, Naxçıvan Dövlət Universiteti Xəstəxanasının baş həkimi, Naxçıvan Dövlət Universiteti Tibb fakültəsinin məzunu, Naxçıvan MR Ali Məclisinin deputatı Elmar Rzayev təbrik nitqi ilə çıxış edərək, Tibb fakültəsinə fəaliyyyətində uğurlar arzulayıblar.

Çıxışlardan sonra tədbir Naxçıvan Dövlət Universiteti Tibb fakültəsinin əməkdaşlarına fəxri adların təqdimatı ilə davam edib.

NDU-nun Tibb fakültəsinin "Stomatologiya" kafedrasının müdiri tibb üzrə fəlsəfə doktoru Rauf Cəfərova, Azərbaycan Tibb Universitetinin Rezidentura və magistratura şöbəsinin müdiri, tibb üzrə fəlsəfə doktoru, dosent İlhamə Mustafayevaya, Naxçıvan Dövlət Universiteti Xəstəxanasının baş həkimi, Naxçıvan Dövlət Universiteti Tibb fakültəsinin məzunu, tibb üzrə fəlsəfə doktoru, dosent Elmar Rzayevə Naxçıvan Muxtar Respublikası Əməkdar həkimi fəxri adı təqdim olunub. Eyni zamanda Naxçıvan Dövlət Universitetinin Elm və innovasiya məsələləri üzrə prorektoru, biologiya üzrə fəlsəfə doktoru, dosent Elsevər Əsədova, Naxçıvan Dövlət Universitetinin Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin dekan əvəzi, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Bəhruz Məmmədova Naxçıvan Muxtar Respublikası Əməkdar müəllimi fəxri adı, Naxçıvan Dövlət Universitetinin "Klinik fənlər və hərbi tibb" kafedrasının dosenti, tibb üzrə fəlsəfə doktoru Mətləb İbrahimova və Naxçıvan Dövlət Universitetinin "Stomatologiya" kafedrasının baş müəllimi, həkim-stomatoloq Zaur Hüseynova Naxçıvan Muxtar Respublikasının "Rəşadətli əməyə görə" nişanları təqdim olunub.

Daha sonra Naxçıvan Muxtar Respublikasında tibb təhsilinin inkişafına göstərdiyi dəstəyə görə, rektor Elbrus İsayev tərəfindən qonaqlara təşəkkür plaketləri və hədiyyələr verilib.

Konfransın rəsmi hissəsi başa çatdıqdan sonra Naxçıvan Dövlət Universitetinin incəsənət kollektivi və Tibb fakültəsinin tələbələrinin iştirakı ilə hazırlanmış bədii hissə təqdim olunub.



Açılış tədbirindən sonra konfrans Naxçıvan Dövlət Universitetində Tibb fakültəsinin 25 illik yubileyinə həsr edilmiş "Tibb təhsili: qabaqcıl təcrübələr və innovasiyalar" I Respublika elmi konfransında 3 istiqamət üzrə 3 paneldə 10 müəssisə tərəfindən 38 müəllif tərəfindən təqdim olunmuş 23 məqalə üzrə bölmə iclasları keçirilib. Azərbaycan Tibb Universitetinin 95 illik yubileyinə həsr olunmuş "Cərrahi və mama-ginekoloji problemlərə multidissiplinar yanaşmalar" Beynəlxalq elmi-praktik konfransında 27 elm-təhsil müəssisəsi tərəfindən 7 panel üzrə 92 məruzəçi tərəfindən təqdim olunan 87 məqalə bölmə iclaslarında dinlənilib.

Qeyd edək ki, konfrans çərçivəsində 29-30 may tarixlərində Naxçıvan MR-dəki 3 xəstəxanada - Naxçıvan Muxtar Respublikası Perinatal Mərkəzində, Naxçıvan Sağlamlıq Mərkəzində və Referans Naxçıvan Tibb Mərkəzində müxtəlif ixtisas sahələri üzrə 25 həkim tərəfindən ödənişsiz tibbi aksiyalar təşkil olunub.

# Tibb fakültəsinin 25 illik yubileyi münasibətilə ödənişsiz tibbi aksiyalar keçirilib

Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin 25 illik yubileyi münasibəti ilə "Tibb təhsili: qabaqcıl təcrübələr və innovasiyalar" I Respublika elmi konfransı və "Cərrahi və mama-ginekoloji problemlərə multidissiplinar yanaşmalar" Beynəlxalq elmi-praktik konfransı çərçivəsində tibbi aksiyalar keçirilib.



Tibb konfransları çərçivəsində ənənəvi olaraq təşkil edilən ödənişsiz müayinələr 29-30 may tarixlərində Naxçıvan Muxtar Respublikası Perinatal Mərkəzi, Naxçıvan Sağlamlıq Mərkəzi və Referans Naxçıvan Tibb Mərkəzində baş tutub.

Tibbi aksiyalar Türkiyə Respublikasından və Bakı şəhərindən dəvət olunmuş nüfuzlu həkimlər, eyni zamanda NDU Tibb fakültəsinin məzunlarının iştirakı ilə reallaşıb.

Aksiyada onkoginekoloq, ginekoloq, neonatoloq, onkoloq, hepatoloq, uroloq-transplantoloq, uşaq cərrahı, dermatovenoloq, ümumi cərrah, plastik cərrah və neyrocərrah kimi müxtəlif ixtisaslara malik 25 nüfuzlu həkim təmsil olunub.




Qeyd edək ki, həkimlər tərəfindən pasiyentlərə ilkin diaqnozlar qoyulub, konsultasiyalar və müalicə tövsiyələri verilib.

# “Orqanik və Dayanıqlı Kənd Təsərrüfatı: Ekoloji tarazlıq və dayanıqlı inkişaf” I Respublika elmi konfransı keçirilib

Naxçıvan Dövlət Universitetində “Orqanik və dayanıqlı kənd təsərrüfatı: ekoloji tarazlıq və dayanıqlı inkişaf” mövzusunda I Respublika elmi konfransı keçirilib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.



Konfrans Naxçıvan Dövlət Universiteti, Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi, Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi, ARETN Botanika İnstitutu, ARKTN Bitki Mühafizəsi və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutu, ARETN Genetik Ehtiyatlar İnstitutu və Azərbaycan Quş Əti, Yumurta İstehsalçıları və İxracatçıları Assosiasiyasının (APEPEA) birgə təşkilatçılığı ilə baş tutub.

Tədbiri giriş sözü ilə açan rektor Elbrus İsayev müasir dövrdə qlobal iqlim dəyişikliklərinin xüsusilə kənd təsərrüfatında yeni yanaşmalara, tədqiqatlara ehtiyac yaratdığını bildirib. “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci



illər üçün Dövlət Proqramı”nda kənd təsərrüfatı istiqamətində yer alan orqanik məhsulların təbliğinin bu gün keçirilən konfransın da əsas müzakirə obyekti olduğunu qeyd edib. Rektor konfransın ənənəvi kənd təsərrüfatı sahələrini elmi baxımdan zənginləşdirmək mahiyyəti daşıdığını vurğulayıb. Eyni zamanda tədbirin tələbələrin, gənc tədqiqatçıların, mütəxəssislərin diqqətini ekoloji dayanıqlı istehsal üsullarına yönəldilməsində mühüm platforma rolunu oynadığını ifadə edib. Gələcəkdə konfransda orqanik məhsullardan ibarət sərgi nümayişinin nəzərdə tutulduğu əlavə edilib.

Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri Rafail Quliyev konfransı aktual məsələlərdən biri olan qida təhlükəsizliyi və bunun orqanik məhsullar üzrə təmini məsələsinə həsr olumasını yüksək dəyərləndirib. Qeyd edib ki, muxtar respublikanın münbit torpaqları, iqlim zənginliyi burada keyfiyyətli kənd təsərrüfatı məhsullarının istehsalına geniş imkanlar yaradır. “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda, 2025-2027-ci illər üzrə Təfsilatlı Tədbirlər Planında kənd təsərrüfatının inkişafı ilə bağlı mühüm vəzifələr müəyyənləşdirilib. Nazir vurğulayıb ki, muxtar respublikada orqanik məhsulların istehsalının artırılması, əhali arasında təbliği, eyni zamanda “Orqanik Naxçıvan” publik hüquqi şəxsin bu istiqamətdə fəaliyyətinin genişləndirilməsi perspektivdə duran məsələlərdir.

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Kazım Hüseynəliyev bildirib ki, kənd təsərrüfatı təkcə ərzaq təminatının əsası deyil, eyni zamanda dayanıqlı iqtisadi inkişafın qorunmasının vacib komponentlərindən biridir. Bu mənada konfransın mövzusu olduqca aktualdır. Nazir “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda “Kənd təsərrüfatı məhsulları istehsalının və emalının inkişafı” prioritetində



“Bölgə üçün spesifik və orqanik kənd təsərrüfatı məhsullarının brendləşdirilməsi, təbliği, orqanik məhsulların xarici bazarlara ixracının təşviqi” məsələsinin nəzərdə tutulduğunu vurğulayıb. Yerli sahibkarların məhsullarının bazar mövqeyinin möhkəmləndirilməsində və onların biznes əlaqələrinin genişləndirilməsində İqtisadiyyat Nazirliyi tərəfindən dəstək göstərildiyini qeyd edib.

Konfransda ARETN Botanika İnstitutunun baş direktoru, professor Səyyarə İbadullayeva, AR KTN Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü İbrahim Cəfərov, ARETN Genetik Ehtiyatlar İnstitutununun baş direktoru AMEA-nın müxbir üzvü Zeynal Əkbərov



və Azərbaycan Quş Əti, Yumurta İstehsalçıları və İxracatçıları Assosiasiyasının (APEPEA) İdarə Heyətinin sədri Mürvət Həsənli çıxış ediblər. Natiqlər konfransın Naxçıvanın coğrafi iqlim və kənd təsərrüfatı ənənələri baxımından orqanik məhsulların istehsalında gözləntilərin yüksək olduğunu söyləyib, ümumilikdə ölkə üzrə bu məsələdə elmi tədqiqatların, təkliflərin əsas tutulmasının vacibliyinə diqqət çəkiblər.

Sonra Naxçıvan Dövlət Universiteti ilə ARETN



Genetik Ehtiyatlar İnstitutu arasında, Naxçıvan Dövlət Universiteti ilə Azərbaycan Quş Əti, Yumurta İstehsalçıları və İxracatçıları Assosiasiyası (APEPEA) arasında əməkdaşlıq müqavilələri imzalanıb, rektor Elbrus İsayev tərəfindən hədiyyələr təqdim edilib.

Daha sonra konfransın keçirilməsində göstərilən təşkilati dəstəyə görə tərəfdaş üzvlərə rektor Elbrus İsayev tərəfindən plaketlər təqdim edilib.

Naxçıvan Dövlət Universitetinin əməkdaşları Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin dekanı, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Bəhruz Məmmədova və “Baytarlıq təbabəti” kafedrasının müdiri, biologiya üzrə fəlsəfə doktoru, dosent Mahir Məhərrəmova




yüksək təşkilatçılığa görə təşəkkürnamə verilib.

NDU-nun Beynəlxalq Kembric Məktəbində baş tutan konfransın açılış tədbiri universitetin İncəsənət fakültəsində bədii hissənin nümayişi ilə davam edib.

Qeyd edək ki, konfransa ölkəmizin, Türkiyənin, Norveçin müxtəlif ali təhsil, elmi-tədqiqat və tətbiqi yönümlü müəssisələrindən ümumilikdə 26 təşkilat qoşulub. 172 elm adamı tərəfindən 108 elmi məqalə təqdim olunub. Konfrans 4-5 iyun tarixlərində 4 əsas istiqamət üzrə təşkil olunmuş 4 paneldə davam etdirilib. Bu panellərdə bitkiçilik və bitki mühafizəsi, biomüxtəliflik və vəhşi təbiətin qorunması, orqanik əkinçilik və heyvandarlıq, kənd təsərrüfatı obyektlərində makro və mikro çirkləndiricilər haqqında mövzular dinlənilib.

# Naxçıvanda “Qlobal informasiya mühiti və media trendləri - MEDİAFEST 2025” keçirilib

Heydər Əliyev Sarayında Azərbaycan milli mətbuatının 150 illiyi münasibətilə Azərbaycan Respublikasının Pezidenti cənab İlham Əliyevin




müvafiq Sərəncamına əsasən Naxçıvanda “Qlobal İnformasiya Mühiti və Media Trendləri - MEDİAFEST 2025” keçirilib.

Tədbir Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin təşəbbüsü, Media İnkişaf Agentliyi, Mətbuat Şurası və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin orqanı olan “Şərq qapısı” qəzetinin birgə təşkilatçılığı ilə baş tutub.

Tədbirdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov, Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin media ilə iş sektorunun müdiri Kamran Həsənov, Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid çıxış ediblər.

Tədbir müddətində Azərbaycan mətbuatının 150 illik yubileyi münasibətilə beynəlxalq media təmsilçilərinin təbrik videoları təqdim olunub.

Konfrans çərçivəsində “Dezinformasiya və fake news-larla mübarizə” mövzusunda panel müzakirəsi keçirilib.

Qeyd edək ki, tədbirdə Naxçıvan Dövlət Universiteti də öz stendi ilə təmsil olunub.

Stenddə universitetin “Yeni Fikir” qəzeti, Media Mərkəzi, “Nuhçıxan” radiosu, Universitet Televiziyası və “Jurnalist tələbələrimiz” başlığında bölmələrdə fotoşəkillər əks olunub. Universitetin “Jurnalistika və xarici ölkələr ədəbiyyatı” kafedrasının müdiri Şəhla Şirəliyeva universitetin Jurnalistika ixtisası və Media Mərkəzi haqqında məlumatlar verib. Monitorda uni-



versitetin “Media Mərkəzi” tərəfindən jurnalist tələbələrin iştirakı ilə çəkilən verilişlərdən hazırlanmış videoçarx təqdim olunub.

# Universitet kollektivi Heydər Əliyev Muzeyini ziyarət edərək Ulu Öndərin irsinə ehtiram göstərdi

Naxçıvan Dövlət Universitetində Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə Azərbaycan Respublikasının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunan "Ulu Öndərin Xatirə Həftəsi" çərçivəsində ali təhsil müəssisəsində silsilə tədbirlər keçirilmişdir.

"Ulu Öndərin Xatirə Həftəsi" çərçivəsində ilk olaraq Naxçıvan Dövlət Universiteti kollektivi dahi şəxsiyyət Heydər Əliyevin Naxçıvan şəhərində ucalan abidəsini və onun adını daşıyan muzeyi ziyarət edib. Rektor Elbrus İsayev, universitetin prorektorları, fakültə dekanları, kafedra müdirləri və Tələbə Elmi Cəmiyyətində yer alan tələbələr Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq, əziz xatirəsini ehtiramla yad ediblər.



Sonra kollektiv Heydər Əliyev Muzeyini ziyarət edib. Muzeydə Ulu Öndərin Naxçıvan dövründəki fəaliyyəti, Azərbaycanın müstəqilliyinin qorunması və dövlətçiliyinin möhkəmləndirilməsində müstəsna xidmətləri barədə geniş məlumat verilib. Ziyarətçilər muzeydə Heydər Əliyevin müxtəlif dövrlərdə çəkilmiş fotoşəkillərinə, şəxsi əşyalarına, diplomatik görüşlərini əks etdirən sənədlərə və xatirə hədiyyələrinə baxış keçiriblər. Muzeyin ekspozisiyasında Ulu Öndərin Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri olduğu dövrdə həyata keçirdiyi mühüm siyasi qərarları əks etdirən materiallarla tanış olublar.

Sonda xatirə fotosu çəkilib.

Qeyd edək ki, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunan "Ulu Öndərin



Xatirə Həftəsi" çərçivəsində 2024-2025-ci tədris ilində Tələbə Elmi Cəmiyyəti xətti ilə yerinə yetirilmiş elmi-tədqiqat işlərinin Yekun Konfransı, "Ömrün Naxçıvan Aşırımları" tarixi-sənədli filminin nümayişi, "Qayıdışdan başlayan Qurtuluş" adlı panel müzakirə, "Müstəqilliyin Ulu Öndər Zirvəsi" adlı şeir müsabiqəsi, "Mənim həyatımın məqsədi Azərbaycandır!" adlı dəyirmi masa kimi silsilə tədbirlər keçirilmişdir.

# NDU-da "EAST-WEST International Youth Partnership Forum 2025" adlı beynəlxalq forum keçirilib

Azərbaycan Respublikasının Gənclər Fondu, Naxçıvan Dövlət Universitetinin dəstəyi və Azərbaycan Tələbə Gənclər Təşkilatı İttifaqının təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunan "EAST-WEST International Youth Partnership Forum 2025" adlı beynəlxalq forum keçirilib.

Tədbirdə tərəfdaş qismində və panel müzakirələrində iştirak edən aidiyyatı təşkilatların nümayəndələri, universitetin müəllim-tələbə heyəti, həmçinin əcnəbi tələbələr iştirak ediblər.

Öncə forum iştirakçıları dahi şəxsiyyət Heydər Əliyevin Naxçıvan şəhərində ucalan abidəsini ziyarət edib, abidə önünə gül dəstələri qoyaraq əziz xatirəsini ehtiramla yad ediblər.



Tədbirdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Dövlət Universitetinin Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Nicat Yaqubov, Azərbaycan Respublikasının Gənclər Fondunun icraçı direktor vəzifəsini icra edən Qədir Xəlilov və Azərbaycan Tələbə Gənclər Təşkilatı İttifaqının sədri Rəşad Zeynalov açılış nitqi ilə çıxış edərək forumun əhəmiyyətindən və Ümummilli Lider Heydər Əliyevin gənclərə



verdiyi dəyərdən bəhs ediblər. Natiqlər vurğulayıblar ki, bu forum Şərq və Qərb ölkələri arasında mədəni və intellektual əməkdaşlığın gücləndirilməsi, eləcə də gənclərin beynəlxalq platformalarda fəallığının artırılması baxımından mühüm əhəmiyyət daşıyır. Eyni zamanda forumun Naxçıvanda keçirilməsi də heç də təsadüfi deyil. Çünki tarixən "Şərqin qapısı" adlandırılan Naxçıvan təkcə milli dövlətçiliyimizdə deyil, həm də coğrafi-strateji mövqeyinə görə Azərbaycan, Türk-İslam mədəniyyəti üçün xüsusilə önəmlidir. Əsrlər boyu İpək Yolunun əsas qolunda yerləşən bu qədim diyar Şərq və Qərb arasında ticarət, mədəniyyət və elmi ideyaların axışdığı tranzit mərkəzi kimi tanınırdı. Bu coğrafi üstünlük müasir dövrdə də regionu müxtəlif nəqliyyat və logistika layihələrinin mərkəzinə çevirib, Naxçıvanı Orta Dəhlizin bir parçası etməklə onun geostrateji dəyərini daha da artırıb.

Tədbir rəsmi hissə yekunlaşdıqdan sonra bədii hissə ilə davam edib. Naxçıvan Dövlət Universiteti nəzdindəki Naxçıvan Musiqi Kollecinin tələbələrinin ifasında musiqilər dinlənilib.

Sonra forum çərçivəsində bir sıra panel müzakirələr keçirilib. İlk olaraq, "Qlobal çağırışlar və regional perspektivlər: gənclərin rolu və mədəniyyətlərarası liderlik" mövzusunda panel müzakirə baş tutub. Paneldə Naxçıvan Dövlət Universitetinin İnsan resursları və hüquq şöbəsinin müdiri Əziz Qasımov, Azərbaycan Respublikası Gənclər Fondunun Gənclər Təşkilatları ilə iş şöbəsinin müdiri Orduxan Qəhrəmanzadə, NMR Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Aparat rəhbəri vəzifələrini müvəqqəti icra edən Şövqi Əliyev və NMR Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdiri İlahə Haqverdiyeva spiker qismində çıxış ediblər.

Panel iştirakçıları iqlim dəyişikliyi, dayanıqlı inkişaf, mədəniyyətlərarası əməkdaşlıq və bu proseslərdə gənclərin fəal iştirakı mövzularında fikirlərini bölüşərək, mövcud çağırışlara qarşı birgə həll yolları haqqında müzakirələr aparıblar.

Növbəti panel müzakirə "Mədəniyyətlərarası körpülər: tələbə gənclərin yeni regional rolu" mövzusunda keçirilib. Naxçıvan Dövlət Universitetinin Tələbə Gənclər Təşkilatının sədri Kamal Nağılının moderatorluğu ilə keçirilən paneldə Tanzaniyadan Jhon Onesmo Ngowi, Koreyadan Park Hyunsok, Türkiyədən Yasemin Çalışqan və Pakistandan Tamjeed Jawad Ullah spiker kimi çıxış ediblər. Onlar öz ölkələrinin gənclər siyasəti, mədəni dəyərləri, beynəlxalq təcrübələri və sosial fəallıq imkanları barədə danışaraq, müxtəlif ölkələrdən olan gənclər arasında əməkdaşlığın əhəmiyyətini vurğulayıblar.

Panel zamanı tələbələr arasında mədəniyyətlərarası anlayış, ortaq layihələrin həyata keçirilməsi, qarşılıqlı öyrənmə və dostluq münasibətlərinin qurulması istiqamətində fikir mübadiləsi aparılıb. Gənc spikerlər fərdi inkişaf hekayələri və real həyat təcrübələri ilə dinləyiciləri ruhlandırıblar.

Daha sonra gəncləri maraqlandıran mövzular ətrafında olan suallar cavablandırılıb. Sonda xatirə fotosu çəkilib.

Qeyd edək ki, forumun əsas məqsədi - 44 günlük Vətən müharibəsindən sonra bölgədə yaranmış yeni regional reallıqlar kontekstində gənclər arasında beynəlxalq əməkdaşlığın və mədəniyyətlərarası dialoqun gücləndirilməsi, həmçinin Naxçıvanda təhsil alan yerli və xarici tələbələr arasında qarşılıqlı ünsiyyətin qurulmasıdır.

# "Konstitusiya və Suverenlik İli" çərçivəsində maarifləndirici tədbir

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun və Naxçıvan Dövlət Universitetinin təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) təsisatının əməkdaşı ilə birgə Naxçıvan Dövlət Universitetində "Konstitusiya və Suverenlik İli" çərçivəsində "Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda tədbir keçirilib.

Tədbir başlamazdan öncə Ümummilli Lider Heydər Əliyev və Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri Naxçıvan Dövlət Universitetinin Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Nicat Yaqubov giriş sözü ilə açaraq mövzunun əhəmiyyətindən danışıb.

Tədbirdə Muxtar Respublika Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi, baş ədliyyə müşaviri Faiq Səfərov çıxış edərək bildirmişdir ki, tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz ideallarına həmişə sadiq qalmış və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etmiş, 1995-ci il noyabrın 12-də müstəqil Azərbaycan Respublikasının əsas qanunu-ilk Konstitusiya qəbul olunmuşdur.

Həmçinin Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) təsisatının əməkdaşı Həsən Həsənov, Naxçıvan Dövlət Universitetinin əməkdaşları Əziz Qasımov və Zamin Əliyev mövzu ilə bağlı çıxış ediblər.

Sonda "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş "Dövlətin əsasları" filmi nümayiş olunub.







***Kifayət Mahmudova***
***Media və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri***

# Mahirə Nağıqızı ilə Ulu Öndər irsinə baxış

Naxçıvan Dövlət Universitetində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunan tədbir çərçivəsində filologiya üzrə elmlər doktoru, professor Mahirə Nağıqızının çıxışı dinlənilib. Tədbirdə universitetin professor-müəllim heyəti və tələbələr iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Tarix-filologiya fakültəsinin dekanı, dosent Arif Ağalarov professor Mahirə Nağıqızının universitetin elmi və pedaqoji mühitinə verdiyi töhfələrdən bəhs edib, təşəkkürünü bildirib. O, alimin Azərbaycan elminə və təhsilinə göstərdiyi xidmətlərin gənc nəsil üçün örnək olduğunu diqqətə çatdırıb.



Tədbir çərçivəsində Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.

Professor Mahirə Nağıqızı çıxışında Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövlətçiliyi qarşısındakı tarixi xidmətlərindən söz açıb. Bildirib ki, Ümummilli Liderin təməlini qoyduğu dövlətçilik ideyaları bu gün də ölkəmizin inkişaf strategiyasının əsasını təşkil edir.



O, vurğulayıb ki, dahi şəxsiyyət Heydər Əliyev ana dilimizi yalnız ünsiyyət vasitəsi deyil, milli kimliyimizin, mənəviyyatımızın və mədəniyyətimizin əsası kimi dəyərləndirib. Qeyd edib ki, Ümummilli Liderin təşəbbüsü ilə Azərbaycan dili Konstitusiya səviyyəsində dövlət dili kimi təsbit olunub, bu da tariximizdə mühüm mərhələdir. Alim Ulu Öndərin həyat və fəaliyyətinə həsr etdiyi elmi məqalələr və nəşr etdirdiyi kitablar haqqında da tədbir iştirakçılarına ətraflı məlumat verib.

***Nardanə Əliyeva***
***Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı***

# "Zəngəzur–Yurdum Mənim": Qərbi Azərbaycana həsr edilən tədbir

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi, Naxçıvan Dövlət Universiteti və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə Kəngərli Rayon Çalxanqala Kənd Uşaq Musiqi Məktəbinin Qərbi Azərbaycana həsr etdiyi "Zəngəzur–Yurdum Mənim" adlı tədbir keçirilib.

Tədbirdən öncə Kəngərli Rayon Çalxanqala Kənd Uşaq Musiqi Məktəbinin şagirdlərinin ifasında yallı təqdim edilib. Sonra Naxçıvan Dövlət Universiteti İncəsənət fakültəsinin tələbələrinin əl işlərindən ibarət



sərgiyə baxış olub. Sərgidə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü və Qərbi Azərbaycana həsr olunmuş əsərlər maraqla qarşılanıb.

Tədbirdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Ardınca Qərbi Azərbaycan mövzusuna həsr edilmiş "Həsrət" adlı videoçarx nümayiş etdirilib.

Tədbiri giriş sözü ilə açan Naxçıvan Dövlət Universitetinin rektoru, Qərbi Azərbaycan İcmasının Naxçıvan Muxtar Respublikası üzrə Nümayəndəliyinin rəhbəri Elbrus İsayev qeyd edib ki, bu gün xalqımız öz tarixinin obyektiv mənzərəsini yaratmaq imka-



nı əldə edib. Uzun illər gizli saxlanılan, zaman-zaman təhrif edilmiş hadisələr özünün əsl mahiyyətini və qiymətini alır. Sözsüz ki, bunun ən mühüm səbəblərindən biri müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə Azərbaycanın 30 illik işğala son qoyaraq ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etməsi oldu. Elbrus İsayev əlavə edib ki, artıq iki ildir keçirilən "Qərbi Azərbaycana qayıdış" festival-konqresi çərçivəsində də bu istiqamətdə mühüm addımlar atılıb, Qərbi Azərbaycana aid kitabların təqdimatı keçirilib, maarifləndirici tədbirlər reallaşdırılıb.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Mədəniyyət nazirinin müavini, nazir vəzifələrini icra edən Həsən Seyidov bildirib ki, bu gün hər bir Azərbaycan vətəndaşı möhtəşəm tarixi hadisələrə şahidlik edir. Dünya birliyində söz sahibinə çevrilən güclü və qüdrətli Azərbaycan yeni reallıqlar formalaşdırır. Vurğulanıb ki, Ulu Öndərin siyasətini layiqincə davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ata vəsiyyətinə əməl edərək, torpaqlarımızı işğaldan azad etdiyi kimi, Qərbi Azərbaycana qayıdış konsepsiyasını da uğurla həyata keçirir. Bu gün keçirilən tədbir də həmin konsepsiyaya mədəniyyət baxımından yanaşmanın bir nümunəsidir.

Sonra Azərbaycan Dövlət Pedaqoji Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru, Qərbi Azərbaycan İdarə Heyətinin üzvü, Keşkənd İcmasının sədri, professor Mahirə Nağıqızı çıxış edərək qeyd edib ki, toponimləri və folklor nümunələrini öyrənməklə Qərbi Azərbaycan torpaqlarının tarixən Azərbaycan türklərinə məxsus olduğunu sübut etmək mümkündür. Professor qeyd edib ki, yüzlərlə bu xüsusda olan yer adlarını, tarixi faktları saxtalaşdırmaq heç nəyi dəyişmir.



Tədbirin bədii hissəsində Kəngərli Rayon Çalxanqala Kənd Uşaq Musiqi Məktəbinin əslən Zəgəzurdan olan müəllim və şagird heyətinin ifasında "Dərələyəz", "Tarantella", "Sarı gəlin", "Sirli bağ", "Azərbaycan", "Dilican" və digər musiqi nömrələri tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

Qeyd edək ki, "Dərələyəz" instrumental ansamblının bədii rəhbəri Röyşan Məmmədov, "Göyçə" sazçalanlar ansamblının bədii rəhbəri Zeynəb Yusifova, məktəbin xor kollektivinin rəhbəri Vüqar Qəhrəmanovdur.

Tədbirin sonunda Çalxanqala Kənd Uşaq Musiqi Məktəbinin kollektivi Fəxri Fərmanla təltif edilib, xatirə fotosu çəkilib.

# "Ulu Öndərin Xatirə Həftəsi" çərçivəsində tələbələrin elmi fəaliyyəti ön planda oldu

Naxçıvan Dövlət Universiteti Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə Azərbaycan Respublikasının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunan "Ulu Öndərin Xatirə Həftəsi" çərçivəsində yekun tədbir keçirilib. Tədbir universitetin Beynəlxalq Kembric Məktəbində baş tutub.

Tədbirdən öncə Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxış edərək bildirib ki, Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycanın memarı və qurucusudur. Ulu Öndər Heydər Əliyev dünya miqyasında böyüklüyü etiraf edilən və qəbul olunan şəxsiyyətdir. Onun zəngin irsi bizə mirasdır, gəncliyə töhfədir. Rektor qeyd edib ki, bu il həm də dövlət başçısı İlham Əliyevin Sərəncamı ilə "Konstitusiya və Suverenlik İli" elan olunması, Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində Qələbəmizin 5-ci ildönümünün qeyd edilməsi ilə əlamətdardır. NDU-da "Konstitusiya və Suverenlik İli" çərçivəsində müəllim və tələbələrin iştirakı ilə bir çox müxtəlif elmi-praktik tədbirlər, respublika və beynəlxalq səviyyəli konfranslar keçirilir, araşdırmalar aparılır. Rektor bu gün TEC xətti ilə keçirilən "Ulu Öndərin Xatirə Həftəsi" çərçivəsində elmi tədbirləri də xüsusilə təqdirəlayiq adlandırıb. Vurğulayıb ki, Xatirə həftəsində ilk olaraq universitet kollektivi ilə dahi şəxsiyyət Heydər Əliyevin Naxçıvan şəhərində ucalan abidəsini və onun adını daşıyan muzeyi ziyarət etdik, açılış tədbiri oldu və



ardıcıl tədbirlər keçirildi. Xatirə həftəsi çərçivəsində 2024-2025-ci tədris ilində TEC xətti ilə yerinə yetirilmiş elmi-tədqiqat işlərinin yekun konfransını da mahiyyət etibarı ilə önəmli təşəbbüs olduğunu qeyd edən rektor tələbələrin tədqiqatlarının diqqətdə saxlanıldığını və bu tədqiqatlardan keyfiyyət və davamlılıq gözləntilərinin olduğunu əlavə edib. Rektor bildirib ki, tələbə kontingentinin 30%-dən artığı TEC-in müəyyən fəaliyyətlərində iştirak edir. Eyni zamanda bu statistikanın ürəkaçan olduğunu bildirib və tələbələrə uğurlar arzulayıb.

Tələbə Elmi Cəmiyyətinin sədri Yusif Mirzəzadə çıxış edərək, "Ulu Öndərin Xatirə Həftəsi" çərçivəsində təqdim edilən tədbirlərdən bəhs edib. Həmçinin cari dövrdə 1745 tələbə tərəfindən 1663 elmi-tədqiqat işi həyata keçirildiyini bildirib. Qeyd edib ki, son 5 ilə



nəzər saldıqda elmi fəaliyyətlə məşğul olan tələbə sayı 3 dəfəyə qədər artıb, hətta elmi-tədqiqatla məşğul olan tələbələrin 10%-ə yaxını əcnəbi tələbələrin payına düşüb.

Sonra konfrans məruzələrlə davam edib. NDU-nun müxtəlif ixtisaslarında təhsil alan tələbələrin maraqlı mövzular ətrafında tədqiqatları dinlənilib.

Tədbirdə Ümummilli Lider Heydər Əliyevin fikirlərinin yer aldığı videoçarx nümayiş olunub.

Sonda mükafatlandırma mərasimi baş tutub. İştirakçılara plaketlər və sertifikatlar təqdim edilib.

***Kifayət Mahmudova***
***Media və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri***

# Rənglərin dili ilə Ulu Öndərə ehtiram

Naxçıvan Dövlət Universitetində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü münasibəti ilə sərgi təqdim olunub.







Universitetin İncəsənət fakültəsində təqdim olunan sərgidə Təsviri incəsənət müəllimliyi, Dizayn və Rəngkarlıq ixtisasları üzrə təhsil alan tələbələrin əl işlərindən ibarət əsərlər nümayiş olunub. Ümummilli Liderin həyat və fəaliyyətinə həsr olunan 30-a yaxın rəsm əsəri sərgilənib. Həmçinin sərgidə Təsviri incəsənət müəllimliyi ixtisasının I kurs tələbələrinin hazırladığı "21 sual və 21 cavab" adlı stend yer alıb. Stenddə Ulu Öndər Heydər Əliyevə ünvanlanan 21 sual və verdiyi cavablar yazılı və fotoşəkillərlə birlikdə lövhədə əks olunub. Stend iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb.

# Naxçıvan Dövlət Texniki Kollecinin 100 illik yubileyi ilə əlaqədar konfrans

Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən Naxçıvan Dövlət Texniki Kollecində "Ulu Öndər Heydər Əliyev işığında: Naxçıvan Dövlət Texniki Kollecinin 100 illik inkişaf yolu" adlı konfrans keçirilib.

Tədbirdən əvvəl kollecin tələbələrinin əl işlərindən ibarət sərgiyə baxış olub. Sərgidə 20-dən artıq rəsm əsəri və tələbələrin hazırladığı STEAM layihələri nümayiş olunub.

Tədbir Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlanıb.



Açılış nitqilə çıxış edən kollecin direktoru Asəf Ruşanov konfransın mahiyyəti, kollecin inkişaf yolu və hazırkı fəaliyyətindən danışıb. Vurğulanıb ki, əsası 1925-ci ildə qoyulan Texniki Kollec bir əsrlik inkişaf yoluna 41 tələbə ilə başlasa da, bu gün burada müxtəlif ixtisaslarda yüzlərlə kadr hazırlığı aparılır. Texniki ixtisaslar üzrə subbakalavr təhsili alan gənclərin bilik və bacarıqları əmək bazarının tələblərinə uyğunlaşdırılır, kollecin məzunları ölkəmizin müxtəlif sahələrində uğurla fəaliyyət göstərir. Kollecin mühüm təhsil ocaqlarından biri olduğunu qeyd edən Asəf Ruşanov ötən tarixi inkişaf yolunu tək müəssisənin deyil, eyni zamanda Azərbaycanın elmi-texniki inkişaf tarixinin bir parçası olduğunu ifadə edib.

Universitetin Elm və innovasiya məsələləri üzrə prorektoru Elsevər Əsədov kollecin keçdiyi inkişaf yolunu yüksək dəyərləndirib, universitetin nəzdinə verilməsinin əhəmiyyətinə diqqət çəkib. Bildirilib ki, bu qərar təhsilin bütün pillələri üzrə inteqrasiyanı gücləndirib və ali



təhsil müəssisəsinin elmi-inzibati strukturunu daha da zənginləşdirib. Prorektor, həmçinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə Naxçıvan Dövlət Universitetinin tabeliyinə verilmiş Təbii Ehtiyatlar İnstitutu, Bioresurslar İnstitutu və Batabat Astrofizika Rəsədxanası kimi elmi müəssisələrin fəaliyyətindən söz açıb. Qeyd edib ki, bu qurumların universitet strukturuna daxil edilməsi elmi əməkdaşlıqların genişlənməsinə imkan yaradacaq. Elsevər Əsədov Texniki Kollecin 100 illik yubileyi münasibəti ilə kollecin rəhbərliyini, müəllim və tələbə heyətini təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Sonra Naxçıvan Dövlət Texniki Kollecinin 100 illik inkişaf yolunu əks etdirən videoçarx nümayiş olunub.

Daha sonra Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin dekan əvəzi Bəhruz Məmmədov, Milli Müdafiə Universiteti nəzdində Naxçıvan Hərbi Kollecinin rəisi, polkovnik-leytenant Yaşar Hüseynov, Quba Dövlət Sosial-İqtisadi Kollecin direktor müavini Rövşən Məmmədov çıxış ediblər. Eyni zamanda digər çıxışçılar NDU nəzdində Naxçıvan Tibb Kollecinin direktoru Sona Məmmədova, Musiqi Kollecinin direktoru Məhəbbət Babayeva və İngilis dili Təmayüllü Gimnaziyanının direktoru Nazim Rəhimov təbrik nitqi ilə kollecin bütün heyətinə uğurlar arzulayıblar.

Daha sonra tədbirin bədii hissəsi başlayıb. Kollecin tələbələrinin hazırladığı musiqi və ədəbi-bədii kompozisiyalar iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb.

Sonda tədbirdən xatirə hədiyyələri təqdim olunub.

# Ulu Öndərin irsi alimlərin və gənclərin baxış bucağında

Ali təhsil müəssisəsinin Elmi Kitabxanasında Ulu Öndər Heydər Əliyevə həsr olunan "Dahi şəxsiyyət-fövqəlbəşər Lider" mövzusunda dəyirmi masa təşkil edilib. Tədbirdə universitetin professor-müəllim heyəti və tələbələr iştirak ediblər.

Elmi Kitabxananın direktoru Xumar Məmmədova tədbiri giriş sözü ilə açaraq qonaqları təqdim edib və bildirib ki, Ulu Öndərin təşəbbüsü ilə əsası qoyulan kitabxana fondlarında milli ədəbiyyat nümunələrinin toplanması və qorunması gələcək nəsillər üçün dəyərli mirasdır. Bu cür tədbirlərin keçirilməsi isə Heydər Əliyevin zəngin irsini tələbələrə daha yaxından tanıtmaq, onları liderin ideyaları istiqamətində maarifləndirmək baxımından mühüm əhəmiyyət daşıyır.

Tədbir çərçivəsində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunan qısa film və virtual sərgi nümayiş olunub.

Daha sonra Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, tarix elmləri doktoru, professor Hacıfəxrəddin Səfərli Ulu Öndərin həyat və fəaliyyəti ilə bağlı əhatəli çıxış edib. Eyni zamanda "Azərbaycan tarixi" kafedrasının müdiri, tarix elmləri doktoru, professor Xəzər Hüseynov, "Ümumi tarix" kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Rəsul Bağırov, "Beynəlxalq münasibətlər" kafedrasının dosenti, tarix elmləri doktoru Emin Arif, "Azərbaycan tarixi" kafedrasının dosenti, tarix elmləri doktoru Sevinc Abbasova, "Beynəlxalq münasibətlər" kafedrasının müəllimi, siyasi elmlər üzrə dissertant Nazlı Yaqubova çıxış ediblər. Natiqlər Ümummilli Lider Heydər Əliyevin dövlətçilik, iqtisadiyyat, ordu quruculuğu, qadın siyasəti və beynəlxalq münasibətlər sahələrindəki misilsiz xidmətlərindən bəhs ediblər. Fikirlərdə vurğulanıb ki, dahi şəxsiyyət Heydər Əliyev Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsinin, milli oyanışın, eyni zamanda ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvanın təhlükəsizliyinin təmin olunmasının, sosial-iqtisadi inkişafının möhkəm bünövrəsini qoyub. Dahi Liderin siyasi uzaqgörənliyi və qətiyyətli idarəçilik strategiyası müasir Azərbaycanın inkişaf yolunun əsasını təşkil edib. Çıxışlarda bildirilib ki, Ulu Öndərin əsas amal və məqsədi olan torpaqlarımızın azad olunması və ərazi bütövlüyümüzün təmin edilməsi onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla gerçəkləşdirilib. Bu tarixi Zəfər dahi şəxsiyyətin siyasətinin və milli ideallarının davamı kimi qiymətləndirilib.





Dəyirmi masa tələbələrin sualları və fikir mübadiləsi ilə davam etdirilib.

***Nardanə Əliyeva***

# "Müstəqilliyin Ulu Öndər Zirvəsi" adlı şeir müsabiqəsi keçirilib

Naxçıvan Dövlət Universitetində Ulu Öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunan "Ulu Öndərin Xatirə Həftəsi" çərçivəsində "Müstəqilliyin Ulu Öndər Zirvəsi" adlı şeir müsabiqəsi təşkil edilib. Tədbir Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə Tarix-filologiya fakültəsində keçirilib.

Müsabiqəni Tarix-filologiya fakültəsinin dekanı Arif Ağalarov açıq elan edib, ardınca NDU TEC sədri Yusif Mirzəzadə çıxış edərək tədbirin məqsədi və əhəmiyyətindən bəhs edib.

20-dən artıq tələbənin iştirak etdiyi müsabiqədə Vətən, müstəqillik və Ulu Öndər mövzusunda şeirlər səsləndirilib. Tələbələr münsiflər heyəti tərəfindən qiymətləndirilib.





# Rektor Elbrus İsayev və Şandor Lejak Ulu Öndər Heydər Əliyevin abidəsini və adını daşıyan muzeyi ziyarət edib

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev və Macarıstanın görkəmli yazıçısı, ictimai xadim Şandor Lejak dahi şəxsiyyət Heydər Əliyevin Naxçıvan şəhərində ucalan abidəsini və onun adını daşıyan muzeyi ziyarət edib. Eyni zamanda TÜRKSOY-un Baş katibi Sultan Raev, Macarıstanın ölkəmizdəki səfiri Tamaş Yojef Torma, Con fon Neyman Universitetinin nümayəndə heyəti, Azərbaycan Dillər Universitetinin rektoru Kamal Abdulla, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, professor Rafiq Əliyev və NDU-nun rəhbər heyəti ziyarətdə iştirak ediblər. Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyulub, əziz xatirəsi ehtiramla yad edilib.









Daha sonra Heydər Əliyev Muzeyi ilə tanış olunub, muzeydə Ulu Öndərin Naxçıvan dövründəki fəaliyyəti, Azərbaycanın müstəqilliyinin qorunması və dövlətçiliyinin möhkəmləndirilməsində müstəsna xidmətləri barədə geniş məlumat əldə edilib. Ziyarətçilər muzeydə Heydər Əliyevin müxtəlif dövrlərdə çəkilmiş fotoşəkillərinə, şəxsi əşyalarına, diplomatik görüşlərini əks etdirən sənədlərə və xatirə hədiyyələrinə baxış keçiriblər. Muzeyin ekspozisiyasında Ulu Öndərin Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri olduğu dövrdə həyata keçirdiyi mühüm siyasi qərarları əks etdirən materiallarla tanış olublar.

Sonda xatirə fotosu çəkilib.

# Şandor Lejakın kitablarının təqdimatı

Macarıstan Milli Assambleyasının sədr müavini, dünya şöhrətli yazıçı Şandor Lejak Naxçıvan Dövlət Universitetində qonaq olub. İki günlük səfər çərçivəsində ilk olaraq universitetin Elmi Kitabxanasında yazıçının kitablarının təqdimatı keçirilib. Tədbirdə Macarıstanın ölkəmizdəki səfiri, Con fon Neyman Universitetinin və TÜRKSOY-un rəhbərliyi və kollektivi, Azərbaycan Dövlət Pedaqoji Universitetinin nümayəndə heyəti, millət vəkilləri, yazıçılar, Naxçıvan Dövlət Universitetinin rəhbərliyi, professor-müəllim heyəti iştirak ediblər.



Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxış edib. Qeyd olunub ki, Azərbaycan və Macarıstan dost ölkələrdir. Ölkələrimiz arasında bütün sahələrdə qarşılıqlı etimada və dəstəyə əsaslanan yüksək səviyyəli əlaqələr var. Bu xüsusda rektor görüşün mahiyyətinə diqqət çəkib, Şandor Lejakın universitetə gəlişini olduqca əhəmiyyətli və çoxdan gözlənilən əlamətdar görüş adlandırıb. Belə nüfuzlu qonaqları qarşılamağın böyük məsuliyyət və şərəf olduğunu qeyd edib, ötən il Macarıstana səfərindən söz açıb. Rektor səfər çərçivəsində Şandor Lejakın dəstəyi və təşəbbüsü ilə Con fon Neyman Universiteti ilə NDU arasında ikili diplom müqaviləsinin imzalanmasını xatırladıb və bugünkü görüşdə iştirakına görə təşəkkürünü bildirib. Elbrus İsayev Şandor Lejakın ali təhsil müəssisəsində kitablarının təqdimatının keçirilməsini mühüm hadisə olaraq dəyərləndirib. Yazıçının, xüsusilə mənsub olduğu millətin ədəbi düşüncəsinə, fikir və söz xəzinəsinə özünəməxsus təsiri və imzası olduğunu vurğulayıb. Eyni zamanda əsərlərini universitetin kitabxana fonduna hədiyyə etməsinin böyük töhfə olduğunu əlavə edib.



NDU Elmi Kitabxanasının direktoru Xumar Məmmədova məruzə ilə çıxış edib. Çıxışında yazıçının həyat və fəaliyyəti barədə geniş məlumat verib. Qeyd olunub ki, yazıçının universitetin kitabxana fonduna hədiyyə olunan kitabları gələcəkdə tərcümə olunaraq oxuculara təqdim olunacaq.



TÜRKSOY-un baş katibi Sultan Raev Türk mədəniyyətinin böyük təbliğatçısı, türk dünyasında xüsusi hörməti olan macar yazıçı Şandor Lejakla bağlı yüksək fikirlər səsləndirib. Macarıstanın təşkilatın fəaliyyətlərində aktiv iştirak etdiyini, tərəflər arasında sıx elmi və mədəni əlaqələrin mövcud olduğunu qeyd edib. TÜRKSOY təşkilatının dəyərli dostu Şandor Lejakla birgə NDU-da belə xüsusi tədbirdə olmaqdan məmnun olduğunu bildirib, görüşün böyük önəm daşıdığına diqqət çəkib.





Görüşdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru, professor Mahirə Nağıqızı və Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Yadigar çıxış ediblər. Natiqlər yazıçının kitablarının təqdimatında iştirakı və Şandor Lejakla görüşü onlar üçün yaddaqalan hadisə kimi qiymətləndiriblər.

Macarıstan Milli Assambleyasının sədr müavini, dünya şöhrətli yazıçı Şandor Lejak səmimi qarşılanmaya, qonaqpərvərliyə və xoş sözlərə görə təşəkkürünü bildirib. Azərbaycan və Macarıstan arasında bütün sahələrdə fəal əməkdaşlıqlar olduğunu və inkişaf etdiyini söyləyib. Görüş barədə yüksək fikirlərinin olduğunu ifadə edib, həyat və fəaliyyətinə dair xüsusi xatirələri tədbir iştirakçıları ilə bölüşüb. Yazıçı kitablarında yer alan əsərlər haqqında məlumatları diqqətə çatdırıb, xüsusilə "Yaşam üçün nəfəs" əsərinin yazılması prosesindən danışıb, əsər əsasında hazırlanmış tamaşanı izləməyi maraqla gözlədiyini qeyd edib.

Sonra Elmi Kitabxanada Şandor Lejakın kitablarının və Türk dünyasının ədəbiyyat nümunələrinin yer aldığı sərgiyə baxış olub. TÜRKSOY-un baş katib Sultan Raev universitetin Elmi Kitabxanasına kitablar hədiyyə edib.



Tədbirin ikinci hissəsində NDU-nun İncəsənət fakültəsində "Yallı və rəqs" nümunələri ifa olunub. NDU Musiqi alətləri emalatxanasında hazırlanan qədim milli musiqi alətləri təqdim edilib. NDU-nun "Qədim xalq çalğı alətləri" ansamblının ifasında geniş konsert proqramı qonaqlarda xoş təəssürat yaradıb.

Qeyd edək ki, növbəti gün mayın 14-də NDU-nun Tələbə Teatr Studiyası tərəfindən yazıçının "Yaşam üçün nəfəs" adlı əsəri əsasında hazırlanmış eyniadlı tamaşanın premyerası olub.

# NDU Elmi Kitabxanası və ADMİU Kitabxana-İnformasiya Mərkəzi arasında onlayn görüş

Naxçıvan Dövlət Universiteti Elmi Kitabxanası və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti Kitabxana-İnformasiya Mərkəzi rəhbər heyəti və əməkdaşları arasında onlayn görüş keçirilib. Görüşdə NDU Elmi Kitabxanasının direktoru Xumar Məmmədova, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti Kitabxana-İnformasiya Mərkəzinin müdiri Tamella Əsgərova və hər iki kitabxananın əməkdaşları iştirak ediblər.

NDU və ADMİU kitabxanaları arasındakı görüşdə əsas məqsəd əməkdaşlığın daha da inkişaf etdirilməsi, kitab resurslarının mübadiləsi süni intellektin imkanlarından istifadə və beynəlxalq elektron bazalara yeni çıxış imkanlarının genişləndirilməsi olub.



Onlayn formatda baş tutan görüşdə Xumar Məmmədova və Tamella Əsgərova universitet kitabxanalarının fəaliyyəti, resursları və inkişaf perspektivləri barədə ətraflı məlumat veriblər.

Sonra qarşılıqlı fikir mübadiləsi və müzakirələr aparılıb.

***Nardanə Əliyeva***

# “İqtisadi inkişaf suverenliyin əsasıdır” mövzusunda elmi-praktik konfrans

Naxçıvan Dövlət Universitetində Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin, Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin və Naxçıvan Dövlət Universitetinin təşkilatçılığı ilə “Konstitusiya və Suverenlik İli”nə həsr olunmuş “İqtisadi inkişaf suverenliyin əsasıdır” mövzusunda elmi-praktik konfrans keçirilib.







Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev dövlət başçısının 2025-ci ili “Konstitusiya və Suverenlik İli” elan etməsi ilə əlaqədar Sərəncamının əhəmiyyətini vurğulayıb, Azərbaycan Respublikası Konstitusiyasının suverenliyimizin qarantı və hüquq sistemimizin əsas mənbəyi olduğunu bildirib. Qeyd edilib ki, Naxçıvan Dövlət Universitetində dövlətçiliyimizi müdafiə edən ideoloji mərkəzlərdən biri kimi “Konstitusiya və Suverenlik İli” çərçivəsində müəllim və tələbələrin iştirakı ilə bir çox müxtəlif elmi-praktik tədbirlər, respublika və beynəlxalq səviyyəli konfranslar keçirilir, araşdırmalar aparılır.

Azərbaycan Respublikası İqtisadiyyat nazirinin müavini Səməd Bəşirli çıxışında bildirib ki, ötən əsrin 90-cı illərinin əvvəllərində ağır problemlər məngənəsində olan ölkəmiz Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında dirçəlməyə başladı, bazar iqtisadiyyatı formalaşdı. Qısa müddət ərzində Azərbaycan iqtisadiyyatında makroiqtisadi sabitlik təmin edildi, xarici iqtisadi əlaqələr inkişaf etdirildi və özəl sahibkarlığın əsası qoyuldu. Prezident İlham Əliyevin rəhbərliyi altında daha da güclənən dövlətçiliyimiz və iqtisadi qüdrətimiz 2020-ci ildə Vətən müharibəsində tarixi Qələbəmizi təmin edən əsas amillərdən oldu. 2023-cü ildə isə bir günlük antiterror əməliyyatı ilə erməni silahlı qüvvələrinin qalıqları torpaqlarımızdan təmizlənərək Azərbaycan Respublikasının Suverenliyi tam şəkildə bərpa edildi.

Bu gün ölkəmiz Prezident cənab İlham Əliyevin diqqəti və qayğısı ilə mövcud qlobal çağırışlar fonunda uğurla inkişaf edir. Xüsusilə biznes mühiti və sahibkarlıq fəaliyyətinin şaxələndirilməsi dövlət siyasətinin əsas prioritetlərindəndir. Azad rəqabət mühitinin təkmilləşməsi, resurslara bərabər çıxış imkanlarının yaradılması, dövlət dəstəyi mexanizmlərinin effektivliyinin gücləndirilməsi üçün kompleks tədbirlər görülür. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı istiqamətində, xüsusilə 2004-cü ildən etibarən qəbul olunmuş dövlət proqramlarının icrası nəticəsində, Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın inkişafı, yeni iş yerlərinin və müəssisələrin yaradılması, eləcə sosial infrastrukturun yaxşılaşdırılması sahəsində böyük uğurlar əldə olunmuşdur. Bu tədbirlər regionun mövcud potensialını gücləndirməklə yanaşı, Naxçıvanın gələcək inkişafı üçün də mühüm əsaslar yaratmışdır.

Tədbirdə “Konstitusiya və Suverenlik İli”nə həsr edilmiş videoçarx nümayiş etdirilib.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Dayanıqlı inkişaf və sosial siyasət şöbəsinin müdiri Hüseyn Hüseynov “Suveren iqtisadi siyasətdə yeni mərhələ: rəqəmsal transformasiya və dayanıqlı inkişaf”, Naxçıvan Dövlət Universitetinin “Mühasibat və maliyyə” kafedrasının dosenti Mehriban İmanova “Heydər Əliyev irsində maliyyə siyasəti və iqtisadi suverenlik modelləri”, Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəis müavini, rəis vəzifələrini müvəqqəti icra edən Müslüm Cabbarzadə “Regional inkişaf trayektoriyası: nailiyyətlər və gələcəyə baxış”, Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin idarə rəisi Zahid Qənbərov “Suveren Azərbaycan iqtisadiyyatında müasir vergi sisteminin transformasiyası” adlı məruzələrlə çıxış ediblər.

# “İnklüziv təhsildən inklüziv cəmiyyətə: bərabər imkanlar və dayanıqlı inkişaf” mövzusunda III Beynəlxalq elmi konfrans

Naxçıvan Dövlət Universitetində Bakı Slavyan Universitetinin təşkilatçılığı ilə 10-11 aprel tarixlərində Bakı şəhərində keçirilən “İnklüziv təhsildən inklüziv cəmiyyətə: bərabər imkanlar və dayanıqlı inkişaf” mövzusunda III Beynəlxalq elmi konfransın bölmə iclası təşkil olunub. Konfransın bölmə iclası Naxçıvan Dövlət Universiteti və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tərəfdaşlığı ilə baş tutub.

“İnklüziv təhsilin təşkili: ehtiyacların müəyyən edilməsi”, “Peşəkar müəllim-dayanıqlı cəmiyyət: transformasiya yolları” və “Müxtəlif maraqlı tərəflərlə əməkdaşlıq: inklüzivliyin əsas dayağı” mövzularında üç istiqaməti əhatə edən bölmə iclasına NDU-nun Magistratura və Doktorantura Mərkəzinin direktoru Çapay Quliyev və Bakı Slavyan Universitetinin Təhsil fakültəsinin dekanı Sevinc Axundova moderatorluq



edib. Bölmə iclasında inklüziv təhsilin aktual məsələlərindən bəhs edilib, bu sahədə elmi əməkdaşlığın və təcrübə mübadiləsinin əhəmiyyəti vurğulanıb. Bildirilib ki, Bakı Slavyan Universiteti ilə Naxçıvan Dövlət Universiteti arasında imzalanan əməkdaşlıq müqaviləsi çərçivəsində keçirilən bölmə iclası olduqca əhəmiyyətlidir. Eyni zamanda iki ali təhsil müəssisəsi arasında gələcəkdə nəzərdə tutulan birgə layihələrin həyata keçirilməsi, tədqiqatların genişləndirilməsi, tələbə-müəllim mobilliyinin inkişaf etdirilməsi də mühüm mahiyyət kəsb edir.

Birinci bölmədə NDU-nun əməkdaşı, psixologiya üzrə fəlsəfə doktoru Çapay Quliyev “İnklüziv təhsilin təşkilində müəllimin emosional intellektinin rolu”, BSU-nun əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru Günel Allahverdiyeva “Region məktəblərində inklüziv təhsilin təşkili: imkanlar və maneələr”, NDU-nun əməkdaşı, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Nəzakət Yusifova “Azərbaycanda inklüziv təhsilin tətbiqində problemlər”, Naxçıvan MR Təhsil Nazirliyinin sektor müdiri Gültəkin Rüstəmli isə “Naxçıvan MR-də inklüziv təhsil: mövcud vəziyyət və islahat istiqamətləri” mövzusunda çıxış edərək. Çıxış edənlər inklüziv təhsilin təşkilində emosional intellektin, normativ çərçivələrin və maddi-texniki imkanların əhəmiyyətindən danışıblar.

İkinci bölmədə BSU-nun əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru Arzu Məmmədova “İnklüziv təhsildən inklüziv cəmiyyətə” layihəsi çərçivəsində müəllimlərin peşəkar inkişafı, Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin direktoru Günay Novruzova isə “İnklüziv siniflərdə şagirdlərə işin təşkili” mövzularında məruzə təqdim ediblər. Məruzəçilər inklüziv təhsildə müəllimlərin peşəkar inkişafının vacibliyini və inklüziv siniflərdə fərdi yanaşmanın tətbiqini vurğulayıblar.



Üçüncü bölmədə isə BSU-nun əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru, dosent Sevinc Axundova “İnklüziv təhsilin inkişafında əməkdaşlığın rolu”, NDU-nun əməkdaşı, pedaqogika üzrə fəlsəfə doktoru Solmaz Cabbarova “Məktəbəqədər təhsildə inklüziv təlimin təşkili”, Heydər Əliyev adına tam orta məktəbin psixoloqu Vəfa Qasımova “İnklüziv məktəbdə multi-dissiplinar komanda işində psixoloqun funksiyası” mövzusunda çıxış ediblər. Həmçinin valideyn Dilarə Yusifova da mövzu ilə bağlı təklifləri ilə çıxış edib. Müzakirələrdə isə inklüziv təhsilin inkişafında məktəb, ailə və cəmiyyət arasında əməkdaşlığın xüsusi rol oynadığı bildirilib.

Konfrans iştirakçılarının çıxışlarından sonra geniş müzakirələr aparılıb. Tədbirin sonunda bölmə iştirakçılarına sertifikatlar təqdim olunub.

# NDU-da ARI Beynəlxalq Təhsil Mərkəzi infosessiya keçirib





Naxçıvan Dövlət Universiteti və ARI Beynəlxalq Təhsil Mərkəzinin birgə təşkilatçılığı ilə ali təhsil müəssisəsində infosessiya təşkil olunub. Tədbirdə universitetin müəllimləri və əcnəbi tələbələri iştirak ediblər.

Universitetin Beynəlxalq əlaqələr üzrə prorektoru Aidə Cəlilzadə çıxışında ingilis, fransız, ərəb, fars və rus dillərində təhsillə yanaşı, alman dilində də tədrisin aparılmasının vacibliyini, xüsusilə Tibb ixtisası üzrə təhsil alan tələbələr üçün bu sahənin əhəmiyyətini vurğulayıb. O, Xarici dillər fakültəsinin “Roman-german dilləri” kafedrasının nəzdində Alman dili Mərkəzinin fəaliyyət göstərdiyini və tələbələrin bu imkanlardan faydalanmasının önəmini qeyd edib.

ARI Beynəlxalq Təhsil Mərkəzinin direktoru İnarə Əliyeva əvvəlcə Beynəlxalq Dil Mərkəzi, daha sonra isə “ARI” Beynəlxalq Təhsil Mərkəzi adı ilə 15 illik fəaliyyət tarixindən bəhs edib. O, tələbələrə alman dili, onun səviyyələri, sertifikatları, bu dili öyrənməyin üstünlükləri, yarada biləcəyi təhsil və karyera imkanları haqqında geniş məlumat verib. Qeyd olunub ki, mərkəz alman dili üzrə beynəlxalq imtahan statusuna malik olan ÖSD və TELC imtahanlarının Azərbaycandakı yeganə rəsmi nümayəndəsidir.

İnteraktiv şəkildə keçirilən sessiyada tələbələrlə fikir mübadiləsi aparılıb, onların sualları cavablandırılıb və təklifləri dinlənilib.

# Keyfiyyətli tədris və elmi fəaliyyət üçün yeni mexanizmlər: NDU yeni layihələrə start verdi

Naxçıvan Dövlət Universitetində yeni keyfiyyət yönümlü “Mənim dərsim”, “Mənim kafedram” və “EchoPoll” layihələrinin təqdimatı keçirilib. Təqdimat Strateji inkişaf üzrə rektor müşaviri Rəcəb Cəfərlinin təşəbbüsü ilə baş tutub. Tədbirdə dekanlar, kafedra müdirləri və müəllim heyəti iştirak edib.





Rəcəb Cəfərli bildirib ki, “Mənim dərsim” layihəsi tədrisin keyfiyyətini yüksəltmək məqsədi daşıyır. Layihədə innovativ tədris metodlarının tətbiqi təşviq olunur. Dərslər indikatorlara əsasən təşkil ediləcək. İlin sonunda tələbələr arasında sorğu aparılacaq və müəllimlərin fəaliyyəti qiymətləndiriləcək. Kafedralar isə 100 ballıq sistemlə ayrıca dəyərləndiriləcək. O qeyd edib ki, “Mənim kafedram” layihəsi elmi fəaliyyətin keyfiyyətinə yönəlib. Kafedraların H indeksi, istinad sayı, beynəlxalq məqalələr, patentlər və laborator imkanları əsas göstəricilər kimi nəzərə alınacaq. Rəcəb Cəfərli onu da bildirib ki, Naxçıvan Dövlət Universiteti Amerika Birləşmiş Ştatlarının “E3 Tech Ecolnovation Grant” müsabiqəsinin qalibi olub. Qalib olan layihə ekologiyanın çirklənməsinə qarşı innovativ həllər üzərində qurulub. Layihə dayanıqlı inkişaf məqsədlərinə xidmət edir və beynəlxalq səviyyədə tanınıb.

Layihələrin əsas məqsədi universitetdə sağlam rəqabət və davamlı inkişaf mühitini gücləndirməkdir.

Tədbir müzakirələr və təkliflərlə davam edib.

***Nardanə Əliyeva***
***Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı***

# Stomatologiyada yeni texnologiyalar və innovasiyalar: NDU-da beynəlxalq konfrans

Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin 25 illiyinə həsr olunan “Stomatologiyada innovasiyalar” mövzusunda Beynəlxalq elmi-praktiki konfrans keçirilib. Konfrans NDU və Azərbaycan İmplantoloq İctimai Birliyinin birgə təşkilatçılığı ilə baş tutub.

Öncə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransı Naxçıvan Dövlət Universitetinin Elm və innovasiya məsələləri üzrə prorektoru Elsevər Əsədov giriş sözü ilə açaraq tədbirin əhəmiyyətindən bəhs edib. Bildirilib ki, bu kimi beynəlxalq səviyyəli elmi tədbirlər stomatologiya sahəsində bilik və təcrübə mübadiləsi üçün mühüm platformadır. Prorektor çıxışında



“Azərbaycan Respublikası Prezidentinin 2023-2027-ci illər üçün Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı”na əsasən universitetdə yaradılacaq Tibb kampusu barədə ətraflı məlumat verib. Planlanan yeni kampusda müasir tibb tədris binası, araşdırma xəstəxanası, tələbə yataqxanası, tibb kollecinin binası ilə yanaşı, Stomatologiya ixtisası üçün ayrıca tədris korpusu və stomatoloji klinikanın inşasının nəzərdə tutulduğunu diqqətə çatdırıb. Eyni zamanda mayın 16-17-də Özbəkistan Respublikasının Səmərqənd şəhərində keçirilən, dünyanın müxtəlif ölkələrindən 35 universitetin iştirak etdiyi “Tələbələrin və gənc tədqiqatçıların 79-cu elmi-praktik konfransı”nda universitetin Tibb fakültəsinin Stomatologiya ixtisası üzrə tələbələrinin də uğurlu çıxışları ilə yüksək dərəcəli diplomlara layiq görüldüklərini xatırladıb.



Azərbaycan İmplantoloq İctimai Birliyinin sədri, tibb üzrə fəlsəfə doktoru Cabbar Həsənov tədbirdə çıxış edərək müasir stomatologiyada innovasiyaların rolundan danışıb. Vurğulanıb ki, konfrans bu sahədə tətbiq olunan ən son texnologiyalar və müalicə metodlarının paylaşılması baxımından olduqca önəmli mahiyyət kəsb edir. Belə tədbirlərin həm akademik heyətin, həm də tələbələrin elmi və peşəkar inkişafına mühüm töhfə olduğunu əlavə edən Cabbar Həsənov konfransın gündəliyini yüksək dəyərləndirib.

Daha sonra plenar çıxışlar başlanılıb. Birinci bölmədə NDU-nun “Stomatologiya” kafedrasının müdiri, tibb üzrə fəlsəfə doktoru Rauf Cəfərov və həkim-stomatoloq Rəşad Abışov moderatorluq edib. İstanbul Aydın Universiteti Diş həkimliyi fakültəsinin “Ağız, diş və çənə cərrahiyyəsi” kafedrasının müəllimi, dosent Elçin Bədəloğlu “İmplantologiyada tam çənə reabilitasiyalarında sadədən mürəkkəbə doğru cərrahiyyə və protez mərhələlərində istifadə olunan müalicə metodları”, Diş texniki Rafael Paşayev “Estetik restavrasiyalarda planlama və kommunikasiyanın əhəmiyyəti”, Cabbar Həsənov “All-on-4 və onun uyğun vəziyyətlərdə tətbiqi” mövzularında məruzə ilə çıxış ediblər.



Bölmə iclasları ilə davam edən konfransda aktual mövzular müzakirə olunub.

Həkim-stomatoloq Qədir Rüstəmov “Dental fotoqrafiyanın implantasiyada önəmi”, Restorativ diş müalicəsi həkimi İlkin Babakişiyev “Estetik gülüş üçün anterior restavrasiyalar: minimum müdaxilə, maksimum nəticə”, Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun dosenti, tibb üzrə fəlsəfə doktoru, implantoloq Rəşad Abışov “Üz-çənə deformasiyalarının profilaktikasında stomatoloqların rolu”, NDU-nun “Stomatologiya” kafedrasının müəllimi Əli Məmmədov “Ortodontiyada sənədləşmə qaydaları”, Aydın Universiteti Diş Həkimliyi fakültəsinin “Ağız, diş və çənə radiologiyası” kafedrasının müəllimi Nuran Bayramov isə “Diş həkimliyi sahəsində maqnit rezonans tomoqrafiyasının tətbiqi” mövzularında geniş təqdimatla çıxış ediblər.

İki gün davam edən konfrans interaktiv müzakirələr, sual-cavab sessiyaları və elmi fikir mübadiləsi baxımından iştirakçılar üçün məhsuldar və faydalı bir platforma olub.

# “MEDİAFEST-2025” çərçivəsində media tədqiqatçıları ilə görüş

“MEDİAFEST-2025” çərçivəsində Bakı Dövlət Universitetinin professoru Qulu Məhərrəmli və Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin dekanı Vüqar Zifəroğlu NDU-nun müəllim və tələbələri ilə görüşüblər.

Görüşdə NDU-nun rektoru Elbrus İsayev universitetdə Jurnalistika ixtisasının tədrisi, Media Mərkəzi, Universitet Televiziyası, “Nuhçıxan” radiosu, “Yeni fikir” qəzetindən bəhs edib, BDU ilə əlaqələr, irəlidə planlaşdırılan ortaq fəaliyyətlərdən danışıb. Azərbaycan milli mətbuatının 150 illiyinin qeyd olunduğu əlamətdar təqvimdə media tədqiqatçılarının universitetdə müəllim və tələbələrlə görüşünün mühüm mahiyyət daşıdığını bildirib, qonaqlara görüşdən xatirə olaraq hədiyyələr təqdim edib.

Media tədqiqatçıları jurnalistika sahəsindəki akademik və praktik təcrübələrini müəllim və tələbələrlə bölüşüblər. Professor Qulu Məhərrəmli müasir dövrdə jurnalistin ictimai məsuliyyətini və informasiyanın dəqiqliyinin vacibliyini vurğulayaraq jurnalistikada etik qaydalara əməl etməyin mühüm olduğunu diqqətə çatdırıb. O, həmçinin tələbələrə media dünyasında peşəkar olaraq inkişaf etmələri üçün akademik yanaşmalara doğru formalaşdırmağı tövsiyə edib.



Vüqar Zifəroğlu isə xəbər istehsalının texniki və redaksiya tərəflərinə dair detallı analizlər apararaq tələbələri peşəkar jurnalistikanın dəqiq və elmi yanaşmalarını mənimsəməyə çağırıb. Onun sözlərinə görə, jurnalistikanın akademik tərəfi yalnız gündəlik fəaliyyətlə məhdudlaşmamalıdır, hər bir jurnalist elmi biliklərlə təchiz olmalıdır.



Görüş diskussiya şəraitində, sual-cavab şəklində keçib.

Qeyd edək ki, “MEDİAFEST-2025” Azərbaycan milli mətbuatının 150 illiyi münasibətilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamına əsasən keçirilib.

## NDU-nun əməkdaşları Bakı şəhərində “GlobE Network”un Altıncı Plenar İclasında iştirak ediblər




19-23 may tarixlərində Bakı şəhər Birləşmiş Millətlər Təşkilatının Korrupsiyaya qarşı mübarizə aparan hüquq-mühafizə orqanlarının Qlobal Əməliyyatlar Şəbəkəsi-“GlobE Network çərçivəsində Altıncı Plenar İclasa ev sahibliyi edib.

Tədbirin açılış mərasimində Prezident İlham Əliyev Bakıda keçirilən bu mötəbər beynəlxalq tədbirin iştirakçılarına müraciət ünvanlayıb.

Azərbaycan Respublikası Baş Prokurorluğunun dəvəti ilə Naxçıvan Dövlət Universitetinin “Ümumi hüquq” kafedrasının müəllimləri Əziz Qasımov və Yunis Xəlilov qeyd edilən mötəbər tədbirdə iştirak ediblər.

Qeyd edək ki, bu mötəbər tədbirdə 92 ölkəni təmsil edən 120-dən artıq dövlət qurumunun nümayəndələri, o cümlədən prokurorluqlar, müstəqil antikorrupsiya təşkilatları və beynəlxalq institutlar iştirak edib. Ümumilikdə 300-dən çox nümayəndə tədbirə əyani olaraq qatılıb, 60-dan artıq iştirakçı isə onlayn formatda tədbiri izləyib.

## Macarıstan Milli Assambleyasının sədr müavini Şandor Lejakın Naxçıvan Dövlət Universitetində qonaq olması Macarıstan mediasında geniş işıqlandırılıb

“Gündəlik Macarıstan xəbərləri” xəbər saytında yayımlanan məqalədə Şandor Lejakın ölkəmiz haqqında təəssüratları yer alıb. Azərbaycan və Macarıstan arasında dostluq, qarşılıqlı hörmət və sıx əməkdaşlığa əsaslanan strateji tərəfdaşlıq əlaqələrindən danışılıb. Eyni zamanda yazıçı, dramaturq Şandor Lejakın Naxçıvan Dövlət Universitetində qonaq olduğu vurğulanıb. Rektor Elbrus İsayev ilə görüşü, NDU ilə Con fon Neyman Universiteti arasındakı əməkdaşlıq və irəlidə planlaşdırılan birgə fəaliyyətlər haqqında məlumatlar qeyd olunub.

Səfər zamanı Şandor Lejak Naxçıvana da baş çəkib. Burada o, Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev və universitet nümayəndələri ilə görüş keçirib. NDU və Macarıstanın Kecskemet şəhərində yerləşən Con fon Neyman Universitetinin rəhbərləri ilə birlikdə gələcək əməkdaşlıq imkanlarını müzakirə edib”,-deyə məqalədə bildirilib.

Qeyd edək ki, xəbərdə dünya şöhrətli yazıçı Şandor Lejakın öz feysbuk sosial hesabında Naxçıvana səfəri çərçivəsində gəzdiyi məkanlardan xatirə olaraq çəkilən fotoların da yer aldığı paylaşımlar yerləşdirilib.

## “Ulu Öndərin Xatirə Həftəsi” çərçivəsində dəyirmi masa keçirilib

Naxçıvan Dövlət Universitetinin Tələbə Elmi Cəmiyyəti tərəfindən Ulu Öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü münasibətilə 5-8 may tarixlərində “Ulu Öndərin Xatirə Həftəsi” təşkil olunub. Həftə çərçivəsində Elmi Kitabxanada “Mənim həyatımın məqsədi Azərbaycandır!” mövzusunda dəyirmi masa keçirilib.



Tədbirin açılışında çıxış edən universitetin Tələbə Elmi Cəmiyyətinin sədri Yusif Mirzəzadə NDU-da Ümummilli Lider Heydər Əliyevin xatirəsinə həsr olunan tədbirlərin mahiyyəti və proqramı haqqında məlumat verib.

Dəyirmi masada Beynəlxalq münasibətlər və hüquq fakültəsinin dekanı, fəlsəfə doktoru, dosent Yusif Hüseynov, “Ümumi hüquq” kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Elman Cəfərli və kafedranın dosenti, tarix üzrə fəlsəfə doktoru Şükür Məmmədov çıxış ediblər. Natiqlər çıxışlarında Azərbaycanın müstəqil dövlətə çevrilməsi yolunda Heydər Əliyevin əvəzsiz xidmətlərindən danışıblar. Bildirilib ki, Ulu Öndər Heydər Əliyev dünya miqyasında böyüklüyü etiraf edilən və qəbul olunan şəxsiyyət idi. Çıxışçılar həmçinin vurğulayıblar ki, onlar Heydər Əliyevin sağlığında onun ideyalarını dərindən öyrənərək vətənə olan sevgisindən ilham alıblar və bu gün də dahi şəxsiyyət qəlblərimizdə özünə əbədi məhəbbət qazanıb, yaddaşımızda yaradıcı, qurucu və xilaskar obrazı ilə daim yaşayır.



***Nardanə Əliyeva***
***Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı***

## NDU-nun əməkdaşları ümumtəhsil müəssisələrində SAT imtahanı ilə bağlı maarifləndirici görüşlər keçirib

Naxçıvan Muxtar Respublikasında yerləşən ümumtəhsil müəssisələrində Naxçıvan Dövlət Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin Beynəlxalq təlimlər üzrə koordinatoru Nuray Məmmədova tərəfindən SAT imtahanı və qeydiyyat prosesi ilə bağlı maarifləndirici görüşlər keçirilib.



Görüşlər şagirdləri beynəlxalq imtahan sistemi, xüsusilə SAT imtahanının məzmunu, qeydiyyat prosedurları və beynəlxalq təhsil imkanları haqqında məlumatlandırmaq məqsədi daşıyıb.

İlkin olaraq 5 may tarixində Naxçıvan şəhər 5, 3 və 12 nömrəli tam orta məktəblərində tədbir olub. Qeyd olunan mövzu ilə əlaqəli ətraflı məlumat verilib, şagirdlərin sualları cavablandırılıb və onların beynəlxalq təhsil istiqamətində maariflənməsinə dəstək göstərilib.

Mayın 6-sı isə Naxçıvan şəhər 16, 1 və 2 nömrəli tam orta məktəblərində maarifləndirmə tədbirləri davam etdirilib.

7 may tarixində isə Naxçıvan şəhər Heydər Əliyev adına tam orta məktəbdə, 11 nömrəli və 15 nömrəli tam orta məktəblərdə şagirdlərə SAT imtahanının mahiyyəti, müraciət qaydası, irəlidə əldə olunan nəticələrə uyğun qazanılacaq təhsil imkanlarından danışılıb.

## NDU-da həkim-stomatoloq Rəşad Muradov tərəfindən vorkşop keçirilib

Naxçıvan Dövlət Universitetində Bakı şəhərindən dəvət olunmuş həkim-stomatoloq Rəşad Muradov “Şəffaf kappalar” mövzusunda vörkşop keçib.



Təcrübi dərsdə NDU Tibb fakültəsinin Stomatologiya ixtisasında təhsil alan yerli və əcnəbi tələbələr iştirak edib.

Dərs zamanı tələbələrə elaynerlərin tarixi inkişafı, ölçülər və dijital modellər, şəffaf kappa müalicələrinin planlanması, elaynerlərin biomexanikası, elaynerin diş hərəkətlərində imkanları və mövzuya dair əyani vəsaitlərdən istifadə olunmaqla ətraflı izah verilib.

***Fəxriyyə Səyyadova***
***Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı***

## NDU SAT Qeydiyyat və İmtahan Mərkəzində növbəti imtahan baş tutub

İmtahanda Naxçıvan məktəbliləri ilə yanaşı, ölkəmizin digər şəhərlərindən də şagirdlər iştirak edib. NDU SAT Qeydiyyat və İmtahan Mərkəzində növbəti imtahan 7 iyun 2025-ci il tarixində baş tutmuşdur.





# NDU nəzdində Tibb Kollecində “Narkomaniya ilə mübarizə” mövzusunda maarifləndirici görüş keçirilib

Naxçıvan Dövlət Universiteti və Naxçıvan Baş Gömrük İdarəsinin təşkilatçılığı ilə “Narkomaniya ağ ölümdür! Özümüzü və yaxınlarımızı ağ ölümdən xilas edək!” mövzusunda NDU nəzdində fəaliyyət göstərən Naxçıvan Dövlət Texniki Kolleci və Naxçıvan Tibb Kollecinin tələbələri ilə maarifləndirici tədbir keçirilib.





Tədbirdə universitetin Ümumi işlər üzrə prorektoru Afin Məmmədov çıxış edərək narkomaniyanın cəmiyyətin mənəvi və əxlaqi dəyərlərinə vurduğu zərərlərdən, eləcə də sosial-iqtisadi inkişafa mənfi təsirindən bəhs edib. O, narkotiklərin insanların sağlamlığına və həyatına yaratdığı təhlükə, həmçinin cinayətkarlığın artmasında oynadığı rol barədə ətraflı məlumat verib.

Naxçıvan Baş Gömrük İdarəsinin Metodoloji şöbəsinin rəisi İsa Əliyev, Əməliyyat və İstintaq İdarəsinin Təhqiqat şöbəsinin rəisi Heydər Səmədli, NDU nəzdində fəaliyyət göstərən Naxçıvan Tibb Kollecinin direktoru Sona Məmmədova və Naxçıvan Texniki Kollecinin direktoru Asəf Ruşanov da çıxış edərək narkomaniyaya və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində görülən işlər, mövcud normativ-hüquqi baza və onun təkmilləşdirilməsi istiqamətində atılan addımlar barədə məlumat veriblər.

Tədbir çərçivəsində mövzuya dair təqdimatlar nümayiş edilib.

# NDU İnformasiya Texnologiyaları İnstitutunda keçirilən təlimlərdə təmsil olunub

İnformasiya Texnologiyaları İnstitutunda GEANT-ın (Avropa Elm və Təhsil Şəbəkələri Assosiasiyası) Şərq Tərəfdaşlığı ölkələrini birləşdirən EaPConnect (Eastern Partnership Connect) layihəsinin dəstəyi ilə eduROAM xidmətlərinin təşkili məsələlərinə həsr olunmuş təlimlərə start verilib.

Təlimlər AzScienceNet Şəbəkə İdarəetmə Mərkəzinin sistem/şəbəkə mütəxəssisləri, İT-mütəxəssisləri, eləcə də ADA Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Qarabağ Universiteti, Naxçıvan Dövlət Universiteti, Azərbaycan Texniki Universiteti və Azər-



baycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin müvafiq şöbələrinin məsul şəxsləri üçün təşkil olunub. Naxçıvan Dövlət Universitetinin İnformasiya texnologiyaları şöbəsinin müdiri Hüseyn Əsgərli təlimdə iştirak edib.

Əvvəlcə AMEA-nın vitse-prezidenti, institutun baş direktoru, akademik Rasim Əliquliyev Avropa Komissiyasının təsis etdiyi və tərəfdaş ölkələrin elm və təhsil sahələrində yüksək sürətli regional internet şəbəkəsinin qurulması, onların Avropanın elm və təhsil şəbəkə infrastrukturuna inteqrasiyasının təmin olunmasını nəzərdə tutan EaPConnect layihəsinin tərəfdaş ölkələr üçün təqdim etdiyi geniş imkanlardan bəhs edib. Alim Azərbaycanın 2010-cu ildən GEANT Assosiasiyasında İnformasiya Texnologiyaları İnstitutunun AzScienceNet şəbəkəsi vasitəsi ilə təmsil olunduğunu qeyd edərək EaPConnect layihəsinin 2015-ci ildən başlayaraq Azərbaycanda fəaliyyətdə olduğunu diqqətə çatdırıb.

AMEA-nın vitse-prezidenti EaPConnect layihəsi çərçivəsində təqdim edilən xidmətlərdən biri olan eduROAM-ın Azərbaycanın müxtəlif elm və təhsil qurumlarında geniş təşkilinin əhəmiyyətini qeyd edib. Alim eduROAM xidmətinin elm və təhsil müəssisələrin əməkdaşlarının xarici ölkələrə ezamiyyətləri zamanı bu ölkələrin eduROAM xidmətlərinə qoşulan təşkilatların daxili şəbəkə infrastrukturundan istifadə etməklə internet şəbəkəsinə pulsuz və sərbəst qoşulmaq imkanları təqdim etdiyini vurğulayıb.

Alim eduROAM xidmətlərinin yaradılması və təşkilində AzScienceNet Şəbəkə İdarəetmə Mərkəzinin böyük rola malik olduğunu qeyd edərək bu xidmətin AzScienceNet istifadəçiləri üçün dünyanın istənilən




yerindən qlobal internet şəbəkəsinə qoşulmaq imkanı yaratdığını, Azərbaycanın bir sıra ali təhsil müəssisələrinin bu xidmətlərdən yararlandığını bildirib.

Akademik R.Əliquliyev təlimlərin EaPConnect layihəsinin dəstəyi ilə eduROAM xidmətinin ölkəmizdə daha geniş yayılması, elm və təhsil qurumlarında bu xidmətlərin tətbiqi işlərinin təşkili məqsədilə keçirildiyini vurğulayıb.

Üç gün davam edən təlim proqramı Yunanıstanın GRNET (Greek Research and Technology Network) şəbəkəsinin məsul şəxsləri Zenon Mousmoulas və Halil Adem tərəfindən tədris olunub.

Xatırladaq ki, Naxçıvan Dövlət Universitetində 2024-cü ildən etibarən eduROAM şəbəkəsi istifadə olunmaqdadır.

# “Konstitusiya Marafonu” layihəsinin açılış mərasimi keçirilib

“Konstitusiya və Suverenlik İli” ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi və Naxçıvan Dövlət Universitetinin birgə təşkilatçılığı ilə “Konstitusiya Marafonu” layihəsinə start verilib.

Naxçıvan Dövlət Universitetində baş tutan layihənin açılış mərasimində giriş nitqi ilə çıxış edən Universitetin Elm və innovasiya məsələləri üzrə prorektoru Elsevər Əsədov qeyd edib ki, dövlət başçısı İlham Əliyevin Sərəncamı ilə 2025-ci il “Konstitusiya və Su-



verenlik İli” elan edilib və bu çərçivədə Naxçıvan Dövlət Universiteti də muxtar respublikanın bir sıra təşkilatları, nazirlik, komitələri ilə birgə müxtəlif mövzularda planlaşdırdığı tədbirlər planının icrasını davam etdirir. Bildirilib ki, bu il həm də ona görə əlamətdardır ki, Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində Qələbəmizin 5-ci ildönümü qeyd edilir. Naxçıvan Dövlət Universiteti də dövlətçiliyimizi müdafiə edən ideoloji mərkəzlərdən biri kimi il ərzində müəllim və tələbələrin iştirakı ilə tədbirlərini davam etdirəcək.



Daha sonra Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi Əli Allahverdiyev çıxış edərək bildirib ki, Ali Məhkəmə ilə universitet arasında uzunmüddətli qarşılıqlı əlaqələr 2023-cü ildə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi və Naxçıvan Dövlət Universiteti arasında imzalanmış birgə əməkdaşlıq haqqında anlaşma memorandumu ilə daha da inkişaf etdirilib. Universitetin Hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələr mütəmadi olaraq məhkəmələrdə geniş miqyaslı layihələrə, təlimlərə və təcrübə proqramlarına cəlb olunur, əməkdaşlıq çərçivəsində elmi-praktiki konfranslar, seminarlar, təlim kursları, mühazirə və görüşlər həyata keçirilir. Əli Allahverdiyev qeyd edib ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi hüquq ictimaiyyəti üçün əhəmiyyətli hadisədir. “Konstitusiya Marafonu” layihəsinin məqsədi də Konstitusiyanın əhəmiyyətinin və konstitusion dəyərlərin geniş təbliğinə nail olmaqdır.

Daha sonra Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin əməkdaşı Surə Qurbanova layihə barədə geniş məlumat verərək, layihənin məqsədlərini və gözlənilən nəticələrini, həmçinin hər bir mərhələ üzrə nəzərdə tutulmuş tədbirləri iştirakçıların diqqətinə çatdırıb.

Tədbir Naxçıvan Dövlət Universitetinin “Ümumi hüquq” kafedrasının müəllimi Əziz Qasımov, həmin kafedranın müəllimi və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin əməkdaşı Yunis Xəlilovun iştirakı



ilə panel müzakirələrlə davam edib. Müzakirələr zamanı rəqəmsallaşmanın yaratdığı yeni reallıqların hüquqi münasibətlərə mümkün təsirləri barədə fikirlər səsləndirilib.

Qeyd edək ki, ayrı mərhələlər üzrə ümumilikdə bir ay davam edən layihənin məqsədi tələbələrə konstitusion dəyərlərin aşılanması ilə yanaşı, onlarda tənqidi düşüncə, hüquqi təfəkkür, liderlik və komanda ilə işləmə, qərar vermə, problem həll etmə kimi bacarıqların inkişaf etdirilməsidir.

# Naxçıvan Dövlət Universitetində yay semestrinin imtahan sessiyası başlayıb

Naxçıvan Dövlət Universitetində 2024/2025-ci tədris ilinin yay semestrinin imtahan sessiyasına start verilib. İmtahanların təşkili və keçirilməsi universitetin rektoru Elbrus İsayevin müvafiq əmri əsasında həyata keçirilibdir.



Sessiyanın ilk günlərindən rektor Elbrus İsayev imtahanların gedişini yerində izləyib, tələbələrlə söhbət aparıb və onlara uğurlar arzulayıb. Həmçinin tətbiq olunan imtahan mexanizmləri ilə bağlı tələbələrin rəyini dinləyib.

Qeyd edək ki, bu sessiyada bakalavr səviyyəsində 80 ixtisas, magistratura səviyyəsində isə 51 ixtisaslaşma üzrə ümumilikdə 9320 tələbə imtahan vermişdir. İmtahanlar 2868 fənni əhatə edir. Onlardan 2197-si yazılı, 343-ü şifahi və praktiki, 326-sı isə elektron-test üsulu ilə keçirilmişdir. Əsasən imtahanlar iki növbədə təşkil olunub və ardıcıllıq tələbələrin seçiminə uyğun müəyyənləşdirilib.

Vurğulayaq ki, tələbələrin imtahan cədvəlləri "E-cədvəl" mobil tətbiqi vasitəsilə təqdim olunub. Həmçinin imtahan sualları semestrin əvvəlindən etibarən LMS platformasındakı şəxsi kabinetlərə yerləşdirilib. Elektron-test imtahanlarının testləri isə artıq 2025-ci il mayın sonunadək sistemdə aktivləşdirilərək tələbələrin istifadəsinə verilib.

İmtahan nəticələri həmin gün ərzində tələbələrin şəxsi kabinetlərinə yerləşdirilir və onların "WhatsApp" nömrələrinə də göndərilir. Sessiya müddətində akademik borcu yaranan tələbələr üçün 2025-ci ilin iyul ayının əvvəlində əlavə imtahan imkanı yaradılacaq. Bu, yalnız iki fənni əhatə edəcək.

Onu da bildirək ki, imtahanların keçirilməsində universitetin müxtəlif fakültələrində fəaliyyət göstərən İmtahan Komissiyası üzvləri və 100-ə yaxın nəzarətçi iştirak edir. Bütün imtahan zalları zəruri avadanlıqlar və müşahidə kameraları ilə təmin olunub.

Sessiyanın şəffaflığını və operativliyini təmin etmək məqsədilə universitetdə 9 nəfərdən ibarət İmtahan Qərargahı və Apellyasiya Komissiyası fəaliyyət göstərir. Apellyasiya Komissiyası daxil olan müraciətləri operativ şəkildə araşdırır və bütün proseslər tam elektron qaydada aparılır.

Qeyd edək ki, yay imtahan sessiyası beş həftə davam etmişdir.

***Fəxriyyə Səyyadova***

# "Konstitusiya Marafonu" layihəsinin növbəti mərhələsi keçirilib

"Konstitusiya və Suverenlik İli" ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi və Naxçıvan Dövlət Universitetinin birgə təşkilatçılığı ilə "Konstitusiya Marafonu" layihəsinin "Konstitusiya Olimpiadası" mərhələsi keçirilib.

Tədbir Ulu Öndər Heydər Əliyevin və ölkəmizin suverenliyi uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Ardınca Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələrindən ibarət ümumilikdə altı komandanın yarışdığı olimpiadanın ilk mərhələsində komandalara Azərbaycan Respublikasının Konstitusiyası əsasında hazırlanmış 30 test sualı təqdim olunub. Uğur qazanmış 5 komanda növbəti mərhələdə iştirak etmək hüququ qazanıb. Nə?, Harada?, Nə zaman? formatında keçirilən növbəti mərhələdə komandaların konstitusion bilikləri təqdim



olunmuş 20 sualla yoxlanılıb. İkinci mərhələnin qalibi olan "Respublikaçılar" və "Həqiqət" komandalarının iştirakı ilə olimpiadanın final mərhələsi olan debat baş tutub. Debat "Fərdi hüquqlar və dövlət maraqları arasında balans: üstünlük kimdədir?" mövzusu ətrafında həyata keçirilib. Debatın qalibi olmuş "Respublikaçılar" komandası olimpiadanın qalibi statusunu qazanıb.

Qalib komanda "Konstitusiya Marafonu" layihəsinin bağlanış mərasimində mükafatlandırılıb.

Qeyd edək ki, layihənin növbəti mərhələlərində məhkəmə simulyasiyası, konstitusiya normalarının tətbiqi üzrə səhnələşdirmə ilə yanaşı, tələbələrin hakimlərlə görüşləri, sual-cavab və panel müzakirələr həyata keçirilib.

***Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mətbuat xidməti***

# Tələbələrimiz Norveçdə beynəlxalq müsabiqədə uğur qazanıblar

Naxçıvan Dövlət Universitetinin tələbələri 10 may 2025-ci il tarixində Norveçin paytaxtı Oslo şəhərində keçirilən "Ən yaxşı tələbə" adlı Beynəlxalq müsabiqədə iştirak edərək uğur qazanıblar.

Prezident İlham Əliyevin 2025-ci il 4 aprel tarixli Sərəncamı ilə Naxçıvan Dövlət Universitetinin tabeliyinə verilən Təbii Ehtiyatlar İnstitutunun "Hidrogeologiya və mineral sular" laboratoriyasının müdiri, kimya üzrə fəlsəfə doktoru, dosent, Rusiya Təbiətşünaslıq Akademiyasının (RTA) professoru Fizzə Məmmədovanın rəhbərliyi ilə Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin Müalicə işi ixtisası üzrə V kurs tələbələri Abdulla Əliyev və Elsunə Əliyeva "Gənc tədqiqatçı" nominasiyasında uğurla iştirak ediblər.

Tələbələr "Naxçıvan Muxtar Respublikası əhalisinin yaşamında mineral suların müalicəvi rolu" mövzusunda təqdim etdikləri elmi məqalə ilə münsiflər heyətinin müsbət rəyini alıblar. Eyni zamanda müsabiqənin digər tələblərinə-elmi məqalələrin sayı,



beynəlxalq və respublika konfranslarının materialları, diplom və medallar, elmi-praktik təcrübə mübadilələri kimi kriteriyalara da tam cavab veriblər.

Müsabiqənin yekununda Abdulla Əliyev, Elsunə Əliyeva və rəhbərləri Fizzə Məmmədova münsiflər heyətinin qərarı ilə diplomlarla təltif olunublar. Laureat diplomu almış qalib tələbələr ixtisaslaşdırılmış ali təhsil müəssisələrinə qəbul imtahanı olmadan, yaxud güzəştli şərtlərlə daxil olmaq, ən əsası isə müxtəlif sahələr-elm, mədəniyyət, incəsənət və təhsil üzrə beynəlxalq mükafat və qrantlar üçün müraciət etmək imtiyazı əldə ediblər.

Rəhbər və qaliblər 17-21 avqust tarixlərində Fransanın paytaxtı Paris şəhərində keçiriləcək beynəlxalq "Qala mükafatlandırma" mərasiminə dəvət alıblar.

Qeyd edək ki, bu nüfuzlu beynəlxalq müsabiqə International Academy of Science, Culture and Art, Euro Media Star Group və French Language and Tourism Academy kimi tanınmış təşkilatların birgə əməkdaşlığı ilə təşkil olunub.

# "Qayıdışdan başlayan Qurtuluş" adlı panel müzakirə keçirilib

Naxçıvan Dövlət Universitetinin Tələbə Elmi Cəmiyyəti tərəfindən Azərbaycan Respublikasının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunan "Ulu Öndərin Xatirə



Həftəsi" proqramı çərçivəsində "Qayıdışdan başlayan Qurtuluş" adlı panel müzakirə keçirilib.

Paneldə Azərbaycan Respublikasının Əməkdar jurnalisti, 1991-1992-ci illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat Xidmətinin rəhbəri, siyasi elmlər üzrə fəlsəfə doktoru Qahirə Hüseynova və Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin əks-kəşfiyyat şöbəsinin sabiq rəisi, Ulu Öndər Heydər Əliyevin səlahiyyətli hərbi nümayəndəsi Urfulla Qurbanov çıxış ediblər.

Əməkdar jurnalist Qahirə Hüseynova çıxışında Ulu Öndər Heydər Əliyevin müasir müstəqil Azərbaycan dövlətinin qurulmasında əvəzsiz xidmətlərindən bəhs edib və şəxsi xatirələrini iştirakçılarla bölüşüb. O bildirib ki, 1990-cı illərin əvvəllərində ölkənin mürəkkəb ictimai-siyasi şəraitində dahi şəxsiyyət Heydər Əliyevin Naxçıvana qayıdışı xalq üçün



ümid işığı oldu və müstəqilliyə gedən yol Naxçıvandan başlandı. Ümummilli Liderin iradəsi, əzmkarlığı nəticəsində Azərbaycanın müstəqilliyi qorundu, möhkəmləndi, dünyada tanındı və qısa müddət ərzində ölkəmiz böyük inkişaf yolu keçib dünya dövlətləri arasında güclü ölkəyə çevrildi. Qahirə Hüseynova qeyd edib ki, məhz Ulu Öndərin uzaqgörən siyasəti, iqtisadi islahatları və ordu quruculuğu sahəsində atdığı addımlar sayəsində gələcək Qarabağ Zəfərinin təməli qoyulub. Bu təməl dövlət başçısı, Ulu Öndərin layiqli davamçısı İlham Əliyevin rəhbərliyi ilə tamamlanıb və bu gün biz Vətən müharibəsində Qələbəmizin 5-ci ildönümünü qeyd edirik.

Panelin digər çıxışçısı, sabiq hərbi kəşfiyyatçı və Ulu Öndərin yaxın silahdaşı Urfulla Qurbanov isə öz çıxışında o dövrün real mənzərəsini canlandıraraq, Ulu Öndərlə birgə fəaliyyəti dövründəki xatirələrini



paylaşıb. O, Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda dövlətçiliyin əsaslarının qorunub saxlanılması, regionun xarici təhlükələrə qarşı müdafiəsinin təşkili və milli ideologiya istiqamətində atılan addımlardan söz açıb. Ulu Öndərin yüksək vətənpərvərlik və qətiyyət nümunəsi olduğunu qeyd edərək, onunla birgə çalışdığı dövrdəki mürəkkəb ictimai-siyasi şəraiti və o şəraitdə dahi şəxsiyyətin Azərbaycan üçün son dərəcə böyük əhəmiyyətə malik taleyüklü qərarlar qəbul etməsini diqqətə çatdırıb.

Tədbir müzakirələrlə davam edib.

***Nardanə Əliyeva***

# NDU nəzdində Naxçıvan Musiqi Kollecinin 50 illik yubileyi qeyd olunub

Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsində universitetin nəzdində fəaliyyət göstərən Naxçıvan Musiqi Kollecinin 50 illik yubileyi münasibətilə tədbir keçirilib. Tədbirdə universitetin rəhbər heyəti, NDU nəzdində kolleclərin rəhbərləri, Musiqi Kollecinin ilk məzunları və hazırda təhsil alan tələbələri iştirak ediblər.



Tədbir Azərbaycanın milli musiqi ruhunu əks etdirən "Kompozisiya", "Qala" rəqsi, Jenkinsin "Palladio", Aşıq havası "Səməndəri", "Bayatı-şiraz" rəngləri kimi ifalarla başlanıb və tamaşaçılar tərəfindən maraqla qarşılanıb. Ardınca Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Səməd Canbaxışıyev, Anar Əlizadə və Emin Əliyevin birgə təşkil etdiyi rəsm sərgisinə və kompozisiyaya baxış olub.

Musiqi Kollecinin direktoru Məhəbbət Babayeva kollecin yarım əsrlik fəaliyyət dövründəki tarixi yolundan, bu gün əldə edilən uğurlarından, kollecdə fəaliyyət göstərən musiqi kollektivlərinin fəaliyyətindən danışıb.

Tədbirdə kollecin müəllim və tələbələrinin ifasında Naxçıvan Musiqi Kollecinin 50 illik yubileyinə həsr



olunan "Naxçıvan" kantatası, Paul Mauriatın "El Bimbo", Nizami Məmmədovun "Naxçıvanım", Elza İbrahimovanın "Ötən günlərim", Mehriban Əhmədovanın "Araz üstü şəhərim", Emin Sabitoğlunun "Bağçamızdan keçmisən", "Özümdən küsürəm", "Dayan zaman" əsərləri dinlənilib. Eyni zamanda Oqtay Kazımının "Yaşayır insan", Vasif Adıgözəlovun "Sahil boyu gəzirəm", Fikrət Əmirovun "Min bir gecə" baletindən fraqmentlər, eləcə də Xanım İsmayılqızının "Dahi" əsərləri səsləndirilib.

Sonda Naxçıvan Dövlət Universitetinin Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Nicat Yaqubov çıxış edərək Musiqi Kollecinin ötən 50 il ərzində bölgənin musiqi sahəsində inkişafına mühüm töhfələr verdiyini bildirib. O, kollecin həm ənənəvi



musiqi irsinin qorunmasında, həm də gənc ifaçıların yetişdirilməsində əvəzsiz rol oynadığını vurğulayıb. Prorektor kollektivə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, gənc musiqiçilərə daim yaradıcı axtarışda olmalarını tövsiyə edib.

***Nardanə Əliyeva***
***Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı***

---

# Mahirə Məmmədovanın pedaqoji fəaliyyətinə həsr olunan "Ömrün kaman səhifələri" adlı tədbir keçirilib

Naxçıvan Dövlət Universitetində NDU nəzdində fəaliyyət göstərən Naxçıvan Musiqi Kollecinin Xalq çalğı alətləri fənn birləşmə komissiyasının sədri, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Mahirə Məmmədovanın pedaqoji fəaliyyətinə həsr olunan "Ömrün kaman səhifələri" adlı tədbir keçirilib.

Etiqad Seyidov çıxış edərək Mahirə Məmmədova-




nın həyat yoluna və pedaqoji fəaliyyətinə nəzər salıb. Ömrünün 50 ilini Naxçıvan Kamança məktəbinin formalaşmasına həsr edən sənət fədaisi haqqında məlumatları bölüşüb, Mahirə xanımın həm də gözəl pedaqoq olduğunu vurğulayıb.

Aqib Seyidov səbəbkarın çoxşaxəli fəaliyyətindən söz açıb, bildirib ki, müasir dövrümüzdə Naxçıvanda kamança ifaçılıq sənətini inkişaf etdirən, təcrübələrini gənclərlə bölüşən Mahirə xanımın musiqi sənətində öz dəsti-xətti var.

Naxçıvan Dövlət Universiteti nəzdində Naxçıvan Musiqi Kollecinin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Məhəbbət Babayeva muxtar respublikanın mədəni həyatında mühüm yer tutan NDU nəzdində Naxçıvan Musiqi Kollecinin 50 illik zəngin tarixi, ölkənin musiqi mədəniyyətinə qazandırdığı töhfələrdən bəhs edib. Bu mərhələdə Mahirə xanımın pedaqoq və Əməkdar mədəniyyət işçisi kimi mühüm xidmətlərinin olduğunu qeyd edib. Vurğulayıb ki, Mahirə xanım həm istedadlı musiqiçi, həm gözəl pe-



daqoq, bacarıqlı ifaçı olmaqla yanaşı, həm də məsuliyyəti, diqqəti və kollektiv arasında hörməti ilə seçilən həmkardır.

Sonra Mahirə Məmmədovanın həyat yolu və sənət fəaliyyətini əks etdirən videoçarx izlənilib. Tədbir bədii hissə ilə davam edib.

"Kamançaçalanlar" ansamblı, Naxçıvan Muxtar Respublikasının Əməkdar artistləri Aqib Seyidov, Əbülfət Babayev, Əbülfəz Rzayev, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Mahirə Məmmədova, eləcə də kollecin müəllim və tələbələrinin yer aldığı konsert proqramında səslənən rəngarəng ifalar zövq oxşayıb.

Tədbirdə Cahangir Cahangirovun "Qəzəl", Həsən Rzayevin "Çahargah Rapsodiyası", Fikrət Əmirovun "Kor ərəbin mahnısı", Monti Cardaş-duet, Cahangir Cahangirovun "Süzən qızlar", "Ay qız", Siyavuş Kərimlinin "Ömrümün istəyi", Şəfiqə Axundovanın "Lay-lay" kimi Azərbaycan musiqisindən seçmə əsərlər səsləndirilib.

NDU-nun Sosial məsələlər və ictimaiyyətlə əlaqə-



lər üzrə prorektoru Nicat Yaqubov çıxış edərək Mahirə xanımın kollecdəki fəaliyyəti dövründə təqdirəlayiq çıxışları ilə hər zaman fərqləndiyini vurğulayıb. Gələcək fəaliyyətində uğurlar arzulayıb, universitet rəhbərliyi adından təbrik edib, uğurlu və səmərəli fəaliyyətinə görə Fəxri Fərman təqdim edib.

Tədbirdə maraqlı və rəngarəng çıxışlar olub, son sözü isə səbəbkar özü deyib. Təcrübəli pedaqoq Mahirə Məmmədova göstərilən diqqətə görə təşəkkürünü bildirib, dahi bəstəkar Şəfiqə Axundovanın "Lay-lay" əsərini ifa edib. Onun özünəməxsus çalğı üslubu ilə ustalıqla ifa etdiyi əsər zalda xüsusi ovqat yaradıb.

---

# NDU tələbələri Bakıda "Bədii yaradıcılıq müsabiqə-festivalı"nın yekun konsertində iştirak ediblər

Mayın 16-da paytaxt Bakıda Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş "Bədii yaradıcılıq müsabiqə-festivalı"nda Naxçıvan Dövlət Universitetinin bir qrup əməkdaşı və tələbə heyəti iştirak ediblər.

Tədbir Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin birgə təşkilatçılığı ilə keçirilib.

Səfər çərçivəsində ilk olaraq Fəxri Xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarı ziyarət olunub, Ulu Öndərin məzarı önünə gül dəstələri qoyulub, xatirəsi ehtiramla yad edilib. Daha sonra NDU nümayəndə heyəti Şəhidlər Xiyabanını ziyarət edib, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş qəhrəman Vətən



övladlarının xatirəsini ehtiramla yad ediblər.

NDU tələbələri "Bədii yaradıcılıq müsabiqə-festivalı"nın yekun konsertində uğurla iştirak edərək universiteti layiqincə təmsil ediblər.

Tələbələr aşıq sənətinin incisi olan "Kərəm gözəlləməsi" havasını, Şəfiqə Axundova və İskəndər Coşqunun unudulmaz "Mehriban olaq" mahnısını, Bəxtiyar Vahabzadə və Leyla Əliyevanın vətənpərvərlik ruhlu "Bayraq" şeirini, coşğulu "Yallı" rəqsini, Ramiz Mirişli və Məmməd Arazın dərin mənalı "Doğma diyar" mahnısını, həmçinin "Tarix yazan sərkərdə" şeirini səsləndirərək öz istedadlarını nümayiş etdiriblər.

***Fəxriyyə Səyyadova***
***Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı***

# Günay Məmmədovadan musiqi tarixinə dair sanballı töhfə

Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında universitetin "Musiqinin tarixi və nəzəriyyəsi" kafedrasının dosenti, sənətşünaslıq üzrə fəlsəfə doktoru Günay Məmmədovanın "Musiqişünaslıq: inkişafının dövrləri və üfüqləri" adlı kitabının təqdimat mərasimi keçirilib.

Tədbiri giriş sözü ilə açan universitetin Elmi katibi Orxan Cəfərov universitetdə musiqi sənətinə göstərilən yüksək diqqət və qayğıdan bəhs edib. O, çıxışında vurğulayıb ki, təqdim olunan nəşrdə musiqi sənətində baş verən inkişafların fonunda yeni təmayüllərin formalaşması öz əksini tapıb. Kitabın həm professional musiqiçilər, həm də musiqi tarixinə maraq göstərən oxucular üçün nəzərdə tutulduğu bildirilib.




Universitetin İncəsənət fakültəsinin dekanı, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı, dosent Cavid İsmayılov çıxışında müəllifin musiqi sahəsindəki elmi və yaradıcılıq fəaliyyətini yüksək qiymətləndirib. O qeyd edib ki, kitabda tarixi və nəzəri musiqişünaslıqla yanaşı, intibah dövrü, barokko və rokoko üslubları, klassizm və romantizm mərhələləri də ətraflı şəkildə təhlil olunub.

Daha sonra "Musiqinin tarixi və nəzəriyyəsi" kafedrasının müdiri, sənətşünaslıq elmləri doktoru, dosent İnara Məhərrəmova və "Orkestr alətləri və dirijorluq" kafedrasının müdiri, Azərbaycan Respublikasının Əməkdar artisti, dosent Mübariz Əsgərov və digər çıxışçılar kitabın elmi və pedaqoji əhəmiyyətindən danışıblar, müəllifi bu uğurlu nəşr münasibətilə təbrik ediblər.



Sonda dosent Günay Məmmədova göstərilən diqqətə görə öz minnətdarlığını bildirib.

***Nardanə Əliyeva***
***Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı***

# Macar yazıçının əsəri NDU-da səhnələşdirildi

Macarıstanın görkəmli ictimai xadimi, yazıçı, dramaturq Şandor Lejakın "Yaşam üçün nəfəs" əsəri əsasında Naxçıvan Dövlət Universitetində eyniadlı tamaşa nümayiş olunub. Tamaşa ölkəmizdə ilk dəfə NDU-nun İncəsənət fakültəsinin "Teatr və mədəniyyətşünaslıq" kafedrası tərəfindən hazırlanıb.

Tədbirdə əsərin müəllifi, görkəmli yazıçı Şandor Lejak, Macarıstanın ölkəmizdəki səfiri Tamaş Yojef Torma, Con fon Neyman Universitetinin rəhbərliyi və kollektivi, Azərbaycan Dillər Universitetinin rektoru Kamal Abdulla, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, professor Rafiq Əliyev, yazıçılar, NDU-nun rəhbər heyəti, müəllim və tələbələr iştirak ediblər.

Macarıstanın kommunist dövründəki ağır ictimai mühiti əks etdirən tamaşanın təsirli məzmunu böyük



maraqla qarşılanıb və izləyicilər ayaqda alqışlayıb. Müharibənin insanlar üzərində qoyduğu dərin izlər, yarım qalan arzular və çətin şəraitin əks olunduğu anlar maraqlı, zəngin səhnə dekorasiyası və ən əsası aktyorların məharətli çıxışı ilə yaddaqalan və baxımlı olub.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus



İsayev çıxış edib. Rektor dəvəti qəbul edib, iştirakı üçün dəyərli yazıçı Şandor Lejaka təşəkkürünü bildirib. Tamaşanı Macarıstan və Azərbaycan ədəbi-mədəni mühitinə inteqrasiya və töhfə olaraq dəyərləndirib. Məsuliyyətli və xüsusi təşəbbüsü dəstəklədiyinə görə müəllif Şandor Lejaka minnətdarlığını ifadə edib. Eyni zamanda əməkdaşlığın yaranması və inkişafında Azərbaycanın Macarıstandakı səfiri Tahir Tağızadəyə xüsusi salamlarını çatdırıb. Rektor əsərin macar dilindən Azərbaycan dilinə tərcüməsini, məharətli çıxışları alqışladığını ifadə edib, yeni yaradıcılıq nailiyyəti kimi dəyərləndirib və teatrın yaradıcı kollektivini təbrik edib.

Görkəmli yazıçı Şandor Lejak tamaşanı dərin təəssüratla alqışlayıb, yaradıcı kollektivə səhnədə təşəkkür edərək hədiyyələr təqdim edib. Yazıçı çıxışında əsərin ilk dəfə 1987-ci ildə səhnələşdirildiyini vurğulayıb. Sonrakı illərdə başqa səhnələrdə nümayiş olunduğunu, ancaq Naxçıvan Dövlət Universitetindəki bu nümayişin özünəməxsus və peşəkar təqdimat olaraq yadda qalacağını bildirib. Dünya şöhrətli yazıçı Con fon Neyman Universiteti ilə NDU arasındakı əməkdaşlığın daha da genişlənəcəyini qeyd edib.

Azərbaycan Dillər Universitetinin rektoru Kamal Abdulla tamaşa haqqında fikirlərində yüksək səviyyədə hazırlıq və unudulmaz aktyor oyununu izlədiyini ifadə edib. Naxçıvanda başlanan belə uğurlu sənət nümunəsinin daha geniş auditoriyalarda nümayiş olunması gərəkdiyini bildirərək, yaradıcı heyətə bundan sonrakı fəaliyyətlərində uğurlar arzulayıb.

Bildirək ki, tamaşanın quruluşçu rejissoru Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Gülxarə Əhmədova, məsləhətçi Azərbaycan Respublikasının Xalq artisti Kamran Quliyevdir. Əsəri redaktə edən Azərbaycan Respublikasının Əməkdar artisti Tofiq Seyidov, quruluşçu rəssamı Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Cavid İsmayılov, musiqi tərtibatçısı Azərbaycan Respublikasının Əməkdar artisti Mübariz Əsgərov və butaforçu, rəs-



sam Arzu Novruzovdur. Tamaşada rolları Azərbaycan Respublikasının Əməkdar artisti Nurbəniz Niftəliyeva və "Teatr və mədəniyyətşünaslıq" kafedrasının Aktyor sənəti ixtisası üzrə II kurs tələbəsi Yusif Rzayev ifa ediblər.

# Estrada, caz və milli musiqi bir səhnədə



Mayın 19-u Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin "Turan" estrada ansamblının təqdimat konserti keçirilib. Tədbirdə universitetin rektoru Elbrus İsayev, Türkiyənin Naxçıvandakı baş konsulu Asip Kaya və nümayəndə heyəti, İğdır Universitetindən gəlmiş tələbələr, eləcə də NDU-nun professor-müəllim heyəti və tələbələri iştirak ediblər.

Tədbirin açılışında çıxış edən Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev qonaqları salamlayaraq ansamblın təqdimatının uğurlu təşəbbüs olduğunu bildirib və universitetin mədəni həyatında mühüm hadisə kimi qiymətləndirib. Rektor ansamblın "Turan" adını daşımasının türk dünyası üçün rəmzi və ideoloji məna kəsb etdiyini vurğulayıb. Bildirib ki, türk dövlətləri arasındakı səmimi münasibətlər, siyasi liderlərin əməkdaşlığı bütün sahələrə sirayət edir.

Türkiyənin Naxçıvandakı baş konsulu Asip Kaya Azərbaycan və Türkiyə arasındakı dostluq və qardaşlıq münasibətlərinin tarixi köklərindən bəhs edib. Münasibətlərin təhsil və mədəniyyət sahəsindəki əməkdaşlıqlarla daha da möhkəmləndiyini, Naxçıvan Dövlət Universitetinin Türk dünyası universitetləri ilə əməkdaşlıqda fəal rol oynadığını bildirib. Baş konsul 19 May-Atatürkü Anma, Gənclik və İdman Bayramı haqqında məlumatları bölüşüb, konsert proqramının belə bir günə təsadüf etməsinin əlamətdar olduğunu və belə layihələrin gənclərin qarşılıqlı anlaşması, ortaq dəyərləri paylaşması baxımından mühüm əhəmiyyət daşıdığını qeyd edib.

Konsert proqramında estrada musiqisinin klassik və müasir nümunələri səsləndirilib. Tamaşaçılara Rafiq Babayevin "Fantaziya", Vasif Adıgözəlovun "Sən ey uşaqlıq", Vaqif Mustafazadənin "Yollar", Bəhram Nəsibovun "Ay gecikən məhəbbətim", Tofiq Quliyevin "Naxçıvani", Emin Sabitoğlunun "Bu dünya sirli dünya", eləcə də Laço Tayfanın "Türk Jazz" kompozisiyası və digər müəlliflərin əsərləri alqışlarla qarşılanıb.

Ansambl solistləri Azərbaycan Respublikasının Əməkdar artisti Tural Nəcəfov, Prezident mükafatçısı İlkin Abdullayev, Naxçıvan Muxtar Respublikasının



Əməkdar artisti Zülfiqar Mahmudov və Elmar Qasımovdur.

Konsertin bədii rəhbəri Prezident mükafatçısı, "Xalq Çalğı Alətləri" kafedrasının baş müəllimi Sərxan Abdullayev, qrafik tərtibatçısı isə "Xalq Çalğı Alətləri" kafedrasının müəllimi, konsertmeyster Yusif Həsənlidir.

Tədbirin sonunda Elbrus İsayev və Asip Kaya uğurlu təqdimata görə ansamblın bütün heyətini təbrik edib, xatirə fotosu çəkilib.

***Fəxriyyə Səyyadova***
***Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı***

## Azərbaycan Elmlər Akademiyası - 80

# AZƏRBAYCANDA ELMLƏR AKADEMİYASININ YARADILMASINDAN SONRA NAXÇIVAN MR-DƏ FUNDAMENTAL VƏ TƏTBİQİ ELM SAHƏLƏRİNİN İNKİŞAFI



Bu il Azərbaycanda Elmlər Akademiyasının yaradılmasından 80 il ötür. Bu elmi qurumun yaradılması respublikamızda bütün elm sahələrinin inkişafına böyük təkan vermiş, onların bugünkü inkişaf səviyyəsinə yüksəlməsinə səbəb olmuşdur. Belə ki, dünya sivilizasiyasının tarixi təcrübəsi göstərir ki, elmə, təhsilə, mədəniyyətə yüksək qiymət verən xalqlar, dövlətlər, eləcə də dövlət başçıları bununla nəinki öz ölkələrinin iqtisadi və mədəni yüksəlişini təmin edir, həm də dünya elminə, mədəniyyətinə, ümumiyyətlə sivilizasiyaya böyük töhfə vermiş olurlar. Təsadüfi deyil ki, planetimizdə yaşayan çoxsaylı xalqlar içərisində o xalqların adı daha öndə və iftixarla çəkilir ki, onların bu işdə payları daha çoxdur. Həm də ayrı-ayrı xalqlara bu baxımdan qiymət verərkən onların sayı yox, məhz bu xidmətləri nəzərə alınır. Dünyada yaşayan bir çox xalqlar var ki, onların sayı kifayət qədər yüksək olsa da, adları belə fəxri siyahılarda, ümumiyyətlə, görünmür. Böyük qürur hissi ilə söyləmək olar ki, xalqımızın adı da həmin simvolik siyahıda kifayət qədər öndə yerləşdirilə bilər. Bu baxımdan Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası da istisna təşkil etmir. Məlumdur ki, Naxçıvan diyarı hələ lap qədimlərdən yaxın və orta Şərqin çox mühüm elm mərkəzlərindən biri olmuşdur. Naxçıvan orta əsrlərdə Azərbaycan elminə bütün bölgədə yüksək şöhrət qazanmış onlarca görkəmli elm adamı bəxş etmişdir. Bu alimlər öz zamanlarında dünya elm xəzinəsinə çoxsaylı dəyərli töhfələr vermişdir. Lakin Azərbaycanda, o cümlədən də Naxçıvan MR-də müasir elmin əksər sahələrinin yüksək inkişaf yoluna qədəm qoyması XX əsrin 20-ci illərindən başlanmışdır. Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyətinin Naxçıvan şöbəsinin yaradılması bu diyarın zəngin təbii sərvətlərinin aşkara çıxarılmasında, tarixinin, elm və mədəni irsinin öyrənilməsində əhəmiyyətli rol oynamışdır. 1945-ci ildə Azərbaycanda Elmlər Akademiyasının yaradılması isə respublikanın digər bölgələri ilə yanaşı, muxtar respublikada da elmin inkişafına daha güclü təkan vermişdir. Bundan sonra muxtar respublikada bir çox elmi idarənin, məsələn, Araz (Naxçıvan) Kompleks Zona Təcrübə Stansiyasının, Naxçıvan Elmi-Tədqiqat Baytarlıq Stansiyasının, AMEA-nın Naxçıvan Regional Elm Mərkəzinin, Elm və Texnika Mərkəzinin, Şamaxı Astrofizika Rəsədxanasının Günəşi Müşahidə Stansiyasının (Batabat rəsədxanasının) yaradılması digər elmlərlə yanaşı, fundamental elmlərin də inkişafına böyük təkan vermişdir. Bu baxımdan 1972-ci ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və dəstəyi ilə yaradılmış Naxçıvan Elm Mərkəzində fundamental elmin müxtəlif sahələri üzrə aparılan tədqiqatlar xüsusilə yüksək önəm kəsb edir. Bu elm ocağında muxtar respublikanın təbii sərvətlərinin tədqiqi sahəsində də müəyyən işlər görülmüşdür.

Respublikamız müstəqillik əldə etdikdən sonra da elmin inkişafına daim yüksək önəm verən xalqımızın Ümummilli Lideri Heydər Əliyev Azərbaycanın bu bölgəsinin geosiyasi vəziyyətini nəzərə alaraq, 2002-ci il avqust ayının 7-də Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin yaradılması haqqında 1003 №li tarixi Sərəncam imzalamışdır. Həmin il avqust ayının 12-də Naxçıvan Muxtar Respublikasında bu münasibətlə keçirilən müşavirədə sədrlik edən Ümummilli Liderimiz öz nitqində demişdir: "Mən bununla Naxçıvan Muxtar Respublikasının indiyə qədər çox az öyrənilmiş qədim tarixinin, mədəniyyətinin, elminin, ədəbiyyatının yenidən dərindən araşdırılması və onlar haqqında elmi əsərlərin, populyar kitabların, yaxud başqa nəşrlərin hazırlanması məqsədi daşıyıram. Eyni zamanda Naxçıvanın özünəməxsus təbiəti, təbii sərvətləri, torpağı, təbii abidələri də təəssüf olsun ki, indiyə qədər lazımi dərəcədə öyrənilməyib, bəlkə də düz olardı deyim ki, heç öyrənilməyibdir. Bunlara, mənim irəli sürdüyüm məsələlərin öyrənilməsinə böyük ehtiyac var".

Beləliklə, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi əvvəllər Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin 7 iyul 1972-ci il tarixli qərarı ilə yaradılmış Naxçıvan Regional Elm Mərkəzi və digər elmi idarələrin bazasında yaradılmışdır. Hələ o vaxtlar Ulu Öndərin qayğısı nəticəsində qısa müddətdə Naxçıvan Regional Elm Mərkəzinin maddi-texniki bazasının yaradılması və kadr potensialının formalaşdırılması sahəsində işlərin görülməsi bu elm ocağının qısa müddətdə işlək hala düşməsinə xeyli dərəcədə kömək etmişdir. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin yaradılmasından sonra Naxçıvanda elmin vahid mərkəzdən idarə edilməsi, əlaqələndirilməsi, elmi kadrların hazırlanması, regionun hərtərəfli öyrənilməsi istiqamətində fəaliyyət üçün şəraitin yaranmasına səbəb oldu. Qeyd edilən Sərəncama müvafiq olaraq Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində 6 Elmi-Tədqiqat İnstitutu-Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu; İncəsənət, Dil və Ədəbiyyat İnstitutu; 2019-cu ildən rəhbərliyi mənə həvalə edilən Təbii Ehtiyatlar İnstitutu; Bioresurslar İnstitutu; Batabat Astrofizika Rəsəd-xanası və Əlyazmalar Fondu yaradılmışdır.

Məlumdur ki, elmin inkişafı təkcə yuxarıda göstərilən elm ocaqlarının açılmasından deyil, həm də orada çalışacaq yüksəkixtisaslı kadrların hazırlıq səviyyəsindən, onların elmi fəaliyyətindən də asılıdır. Bu amili nəzərə alaraq, 1998-ci ildən Naxçıvan Dövlət Universitetində dörd ixtisas üzrə, 2006-cı ildən isə AMEA NB-də üç ixtisas üzrə Dissertasiya Şuralarının yaradılması və fəaliyyəti yüksəkixtisaslı elmi kadrların, o cümlədən fundamental elm sahələrində çalışan kadrların hazırlanması işinə öz müsbət təsirini göstərmiş və bu gün də göstərir. Təsadüfi deyil ki, 1995-ci ilə qədər Naxçıvan Muxtar Respublikasında 5 nəfər elmlər doktoru, 100-dən bir qədər artıq fəlsəfə doktoru olduğu halda, hazırda elmlər doktorlarının sayı 40-dan artıq, fəlsəfə doktorlarının sayı isə 300-dən çoxdur və bu say durmadan artmaqdadır. AMEA-ya 2003, 2007, 2014 və 2017-ci illərdə keçirilən seçkilərdə Naxçıvandan olan elm və təhsil işçilərindən 3-ü akademik, 13-ü isə müxbir üzv seçilmişdir.

Uzun illərdən bəri, xüsusilə də AMEA və Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin yaradılmasından sonra Naxçıvan diyarında elmin inkişafı məqsədi ilə həyata keçirilmiş bütün bu işlər öz müsbət bəhrəsini vermiş və bu gün də verməkdədir. Bütün bu illər ərzində Ulu Öndərin də tövsiyə etdiyi kimi, Naxçıvan Muxtar Respublikasının qədim tarixi, mədəniyyəti, ədəbiyyatı ilə yanaşı, onun təbiəti, təbii sərvətləri, torpağı, suyu və.s ilə bağlı da fundamental tədqiqatlar aparılmış və onlar bu gün də davam etdirilir. Müxtəlif dövrlərdə həyata keçirilən, xüsusilə də 2001-ci ildə Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaradıldıqdan sonra daha da genişləndirilən geoloji-kəşfiyyat işlərinin nəticəsində muxtar respublikanın ərazisində mövcud olan çoxsaylı faydalı qazıntılar aşkara çıxarılmış, onlar haqda vacib parametrlər təyin edilmişdir.

Qeyd olunduğu kimi, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi əsasən AMEA-nın Naxçıvan Regional Elm Mərkəzinin bazasında yaradılmışdır. Burada çalışan tədqiqatçılar hələ Elmi Mərkəz dövründən kifayət qədər aktual mövzular üzərində çalışmış və bu gün də həmin işləri davam etdirirlər.

Kimyaçıların araşdırmaları muxtar respublikanın təbii xammal ehtiyatları əsasında qeyri-üzvi və bioloji-aktiv maddələrin və preparatların alınması üsullarının işlənib hazırlanmasına yönəldilmişdir. Darıdağ Termal Sularının (DTS) kompleks tədqiqinin prinsipial texnoloji sisteminin təklif edilməsi, bu sulardan bor-arsen konsentratının, nəticədə isə yüksək təmizliyə malik arsen 3-sulfidin sintezi belə işlərdəndir. Karbon qazının alınması ilə bağlı mərkəzin mütəxəssisləri muxtar respublikanın istehsal sahələrinin yerli xammal əsasında işləməsi üçün də axtarışlar aparmışlar. Bu araşdırmalar respublika dövlət mükafatına layiq görülmüşdür ki, bu da mərkəzin yüksək uğurlarından biri sayılır.

DTS-nin araşdırılması ilə bağlı uzun illərdən bəri aparılan tədqiqatlar xüsusilə yüksək aktuallıq kəsb edir. Məlumdur ki, dünyada arsenli sular içərisində əsas yeri karbonatlı, arsenli sular tutur. DTS qrupu MDB-də ən yüksək debitli mineral su mənbələridir. Mənbələr Culfa şəhərindən 9 km şimal-şərqdə, dəniz səviyyəsindən 900 m yüksəklikdə, Şorsu çay dərəsində bir-birindən 0,5-2 km məsafədə yerləşir. Dövlət Ehtiyatlar Komitəsi tərəfindən Darıdağ mineral suların istismar ehtiyatı B qrupu üzrə 4,5 min $m^3$/sutka olduğu təsdiq edilmişdir. DTS-nin dünya arsenli suları içərisində öz müalicəvi əhəmiyyətinə görə də xüsusi yeri var. Hazırda xüsusi şəraitdə suyun quru qalığı alınaraq satışa verilir.

Yuxarıdakı məlumatdan da görünür ki, DTS-nin tərkibində asan emal edilən və Naxçıvan MR-in böyük tələbatı olan komponentlərdən biri də karbon qazıdır. 1980-ci ildə Darıdağ ərazisində maye karbon qazı istehsal edən sex yaradılmışdır. Sonrakı dövrlərdə sex Darıdağ Açıq Səhmdar Cəmiyyətinə çevrilmiş, 2008-ci il dekabr ayından isə "Karbon qazı Zavodu" ASC kimi fəaliyyət göstərir.

2007-ci il Sahibkarlığa Kömək Fondundan zavoda 680 min manat dövlət maliyyə dəstəyi göstərilmişdir. İkimərtəbəli inzibati və istehsal binasından ibarət olan müəssisədə əsaslı təmir və yenidənqurma işləri aparılmış, qazın mənbəyindən zavoda qədər 2650 metr boru xəttində təmir işləri yerinə yetirilmişdir. Zavoda Rusiya Federasiyası və Ukraynadan müasir texnoloji avadanlıqlar alınıb gətirilmiş və quraşdırılmışdır. Zavodun illik istehsal gücü 6300 ton maye karbon qazı və 50 ton quru buzdur.

Kimyaçıların mühüm işlərindən biri də Gümüşlü polimetal (sink-qurğuşun) filizindən metal qurğuşunun alınması texnologiyasının işlənib hazırlanmasıdır. Eyni zamanda Gümüşlü flotasiya fabrikinin tullantısından 65-70%-li barium sulfat konsentratı alınması və onun fabrik miqyasında sınaqdan keçirilməsi olmuşdur.

Parağaçay molibdenit yatağının işlənməsi də kimyaçılarımızın xidmətlərindəndir.

Qeyd edilən işlər bu gün də yüksək aktualıq kəsb etdiyindən kimyaçılarımız tərəfindən davam etdirilir. Yaxın gələcəkdə Naxçıvan MR ərazisində böyük ehtiyatları olan gillərin tədqiqi və tətbiqi ilə bağlı işlər daha da genişləndiriləcək.

Fiziklərimiz tərəfindən Naxçıvan MR ərazisində alternativ (bərpa olunan) enerji mənbələrinin öyrənilməsi, yarımkeçirici nazik təbəqələr əsasında yüksək effektli fotovoltaik materialların və çeviricilərin alınması, alınmış strukturların fotoelektrik və optik xassələrinin araşdırılması sahəsində tədqiqatlar aparılmış və bugün də onu davam etdirirlər. Naxçıvan MR-də 2500 m hündürlükdə çaylar şəbəkəsinin sıxlığı araşdırılmış, bir sıra ölçmələr həyata keçirilmiş, çaylarda su sərfinin get-gedə zəifləməsi müəyyən edilmişdir. Çayların enerji ehtiyatları öyrənilmiş, bu enerjinin elektrik enerjisinə çevrilməsi üsulları elmi əsaslandırılmışdır. Enerji alınması üçün istifadə olunması nəzərdə tutulan qurğuların etibarlı, davamlı və uzunmüddətli istismar edilmələri üçün onların əsas iqtisadi göstəriciləri müəyyənləşdirilmiş və bu enerji sistemlərinin yerləşdirilmələrinin iqtisadi məqsədəuyğunluğu aydınlaşdırılmışdır. Həmçinin günəş çeviricilərində geniş istifadə edilən birləşmələrin nano hissəciklərinin və nazik təbəqələrinin alınması istiqamətində işlər aparılmışdır və aparılır.

Bu dövrdə alimlərimizin fundamental elmlərlə bağlı 40-dan artıq monoqrafiya və kitabları nəşr edilmiş, 20-dən çox patent almışlar.

AMEA-nın yaradılmasından sonra elmin digər sahələri kimi astronomiyanın da Azərbaycanda geniş vüsət aldığı bir dövr olmuşdur. Şamaxı Astrofizika Rəsədxanasının, onun Batabat bölməsinin və müşahidə stansiyalarının, kosmosun tədqiqi ilə bağlı digər müəssisələrin yaradılması, yüzlərlə yüksəkixtisaslı mütəxəssislərin yetişməsi, mükəmməl bir astronomiya məktəbinin formalaşması məhz bu dövrə təsadüf edir.

Azərbaycanda Astronomiya Rəsədxanasının yaradılması məsələsi hələ 1927-ci ildə ortaya qoyulsa da, otuzuncu illərin məlum hadisələri və II Dünya müharibəsi bu işlərin tamamlanmasına imkan verməmişdir.

Müharibədən sonra Azərbaycanda rəsədxana üçün müvafiq yerin seçilməsi məsələsi yenidən gündəmə gəlmişdir. Moskva və Leninqrad alimlərinin də yaxından iştirak etdiyi ekspedisiyaların Azərbaycanın demək olar ki, bütün dağlıq regionlarında apardıqları tədqiqatlar nəticəsində gələcək rəsədxananın yeri Şamaxı rayonu ərazisində müəyyən edilmişdir. Rəsədxananın strukturu, orada qurulacaq cihazlar, kadr məsələsi və digər təşkilati məsələlər həll edildikdən sonra, 1959-cu ilin noyabr ayında Şamaxı Astrofizika Rəsədxanasının (ŞAR) yaradılması haqqında müvafiq qərar verilmişdir.

XX əsrin 60-cı illərinin sonunda Şamaxı Astrofizika Rəsədxanasında astronomik müşahidələrin artıq tam qaydaya düşdüyü bir vaxtda, rəsədxananın daha yüksək bir nöqtədə yerləşə bilən müşahidə stansiyasının yaradılması zərurəti ortaya çıxmışdır. Bu yer astronomik iqliminə görə ŞAR-dan da üstün olmalı idi. Bunun üçün dəfələrlə bir sıra zonalar, o cümlədən Naxçıvan MSSR-nin də bəzi məntəqələri nəzərdən keçirilmişdir. Nəhayət, yekunda müşahidə stansiyasının Şahbuz rayonunun Batabat adlanan ərazisində qurulması qərara alınmış və Azərbaycan SSR EA Rəyasət Heyətinin 1971-ci il mart ayının 25-də qəbul etdiyi 13 saylı qərar əsasında ŞAR-ın Batabat bölməsi yaradılmışdır.

*ardı növbəti səhifədə*

Az bir müddət ərzində Dəniz səviyyəsindən təqribən 2050 m hündürlükdə yerləşən Batabat stansiyasında Kude sistemində işləyən 200 mm-lik bir teleskop qurulmuş, Bakı, Moskva və Leninqrad Universitetlərini bitirmiş yerli gənclər işə cəlb olunmuşdur. 1974-cü ildə Batabat bölməsində ilk böyük teleskop-Günəş Koronoqrafi qurulmuş, həmin teleskopda Günəş fizikası sahəsində aparılan tədqiqatlar çərçivəsində müşahidələrə başlanmış və çox maraqlı elmi nəticələr alınmışdır. Bu işlər Moskva astronomları ilə müştərək olaraq yerinə yetirilmişdir.

Batabat bölməsi çox qısa vaxt ərzində keçmiş Sovet İttifaqının məşhur astronomik mərkəzləri ilə əlaqə yaratmışdır. 1976-cı ildə burada Tam Günəş Tutulmasının müşahidəsi təşkil oluunmuş, 1978 və 1979-cu illərdə kometlər üzrə Ümumittifaq konfransları keçirilmişdir. 1970-80-ci illərdə Batabat bölməsi əməkdaşlarının 120-dən çox elmi əsəri SSRİ-nin və Avropanın bir çox elmi jurnallarında çap olunmuşdur.

1980-ci ildə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Naxçıvana səfəri çərçivəsində Batabat bölməsində olması bölmənin həyatında mühüm hadisə idi. Batabat bölməsinin fəaliyyəti ilə yaxından tanış olan Ümummilli Lider həmin vaxt orada olan Azərbaycan SSR Elmlər Akademiyasının Prezidentinə, ŞAR-ın direktoruna və Naxçıvan MSSR-nin yüksək partiya və hökumət rəhbərlərinə Batabat bölməsinin inkişaf etdirilməsi barədə tapşırıq və tövsiyələr vermişdir. Artıq 80-ci illərin sonlarında ŞAR-ın Batabat bölməsi keçmiş SSRİ-də kifayət qədər tanınmış mükəmməl bir rəsədxana kimi formalaşmışdı. Bölmə əməkdaşlarının Moskvada, Leninqradda və Kiyevdə çalışan məşhur alimlərlə müştərək elmi məqalələri dərc edilməyə başlanmışdır. Batabat bölməsində əsasən Göy mexanikası, Günəş fizikası, Ulduz astronomiyası və qalaktikalar sahəsində tədqiqatlar aparılırdı.

1990-cı ilin yazında Batabat bölməsində “Seiss-600” teleskopu quraşdırılmışdır. Bu işdə Krım Astrofizika Rəsədxanasının əməkdaşları da yaxından iştirak etmişdilər. Bu, bölmənin həyatında olduqca əlamətdar bir hadisə idi. Göstərilən teleskopun qurulması ilə Batabat bölməsində elmi-tədqiqat işlərinin daha da genişləndirilməsi nəzərdə tutulurdu. Bununla belə, təəssüflə qeyd edilməlidir ki, 1988-ci ildən başlayaraq Naxçıvanın mənfur ermənilər tərəfindən blokada vəziyyətinə salınması və Batabat bölməsinin Ermənistanla həmsərhəd ərazidə atəş xətti zonasında yerləşməsi bu elmi idarənin fəaliyyətində mənfi faktora çevrildi. 1991-ci ildən 2000-ci ilə qədər Batabat bölməsinin ərazisi ordu hissələrinin nəzarətində olmuşdur. Bu dövrdə bölmədə nəinki elmi-tədqiqat işləri ilə məşğul olmaq, bəzən hətta əraziyə nəzarət etmək belə mümkün olmamışdır. Nəticədə bölmənin fəaliyyəti iflic vəziyyətinə düşmüş və bölmənin həm kadr potensialı, həm də maddi-texniki bazası ciddi itkiyə məruz qalmışdır.

Qeyd edildiyi kimi, hələ keçən əsrin 20-ci illərində Leninqrad astonomları Azərbaycan ərazisində astronomik stansiya qurmaq ideyası üzərində işləyirdilər. Bu ideyanı həyata keçirmək onlara yalnız 60-cı illərin sonunda, Ulu Öndərin birinci hakimiyyəti dövründə müyəssər oldu. 1969-cu ildən başlayaraq Ordubad rayonunun Ağdərə məntəqəsində Pulkovo Rəsədxanasının daimi ekspedisiyası fəaliyyətə başladı. Artıq 80-ci illərin əvvəllərində Ağdərə Astronomiya Stansiyasında (AAS) iki teleskop-astroqraf “AFR-1” və uzun fokuslu meniskli “Ay-Planet” teleskopu fəaliyyət göstərirdi. 80-ci illərdə Leninqrad astronomları AAS-da qiymətli mövqe müşahidələri aparmışdılar. Bunların içərisində Sovet-Amerika birgə “VEQA” proqramı çərçivəsində Halley kometinin yerüstü müşahidələri xüsusi yer tuturdu.

Təəssüflər olsun ki, 80-ci illərin sonlarında ermənilər tərəfindən baş verən məlum dağıdıcı proseslər, AAS-nın fəaliyyətinə də son dərəcə mənfi təsir göstərdi. 1991-ci ildə Leninqradlı astronomlar stansiyanı tərk etdilər. AAS 1997-ci ilədək faktiki olaraq nəzarətsiz qaldı. Azərbaycan MEA Rəyasət Heyətinin 05 noyabr 1997-ci il tarixli qərarı ilə AAS Şamaxı Astrofizika Rəsədxanasına birləşdirildi. Batabat Astrofizika Rəsədxanası isə AMEA-nın NB-nin yaradılmasından sonra, 2003-cü ilin yanvar ayından yenidən faktiki fəaliyyətə başladı.

Müstəqillik illərində Azərbaycan Respublikasında, o cümlədən Naxçıvan MR-də elm və təhsilə göstərilən yüksək dövlət qayğısı Batabat Astrofizika Rəsədxanasını da əhatə etmişdir. Məhz bu qayğı nəticəsində 2004-cü ildə Naxçıvan şəhərində Rəsədxana üçün inzibati bina istifadəyə verilmiş, 2006-2007-ci illər ərzində ŞAR-ın Batabat bölməsi yerləşdiyi ərazidə tam şəkildə müasir tələblərə cavab verən inzibati bina tikilərək Rəsədxana əməkdaşlarının istifadəsinə verilmişdir. “Seyss-600” teleskopu Krım Astrofizika Rəsədxanasına göndərilərək müasir səviyyədə modernləşdirilmiş və 2007-ci ilin sentyabr ayında Batabatda quraşdırılmışdır.

Bu gün ARETN Batabat Astrofizika Rəsədxanası Naxçıvan şəhərindəki inzibati binadan, Şahbuz rayonu ərazisindəki Batabat stansiyasından və Ordubad rayonu ərazisindəki Ağdərə stansiyasından ibarət bir struktur daxilində fəaliyyət göstərir. Burada çalışan əməkdaşların elmi fəaliyyəti üçün lazımi şərait yaradılmış, elmi-tədqiqat işləri yüksək səviyyədə, ən müasir cihaz və avadanlıqların köməyi ilə yerinə yetirilir. Batabat Astrofizika Rəsədxanası həm respublikamızın, həm region ölkələrinin, həm də bəzi postsovet ölkələrinin uyğun elmi-tədqiqat qurumları ilə sıx əlaqə saxlayır. Bu əlaqələr əsasən elmi kadrların hazırlanmasında, cihaz və avadanlıqların alınmasında, birgə qrant layihələrində, müştərək elmi-tədqiqat işlərinin icrasında və elmi seminar və konfransların keçirilməsində özünü göstərir.

Beləliklə, yuxarıda verilən qısa məlumatdan bir daha aydın olur ki, AMEA-nın, xüsusilə də onun NB-nin yaradılması Naxçıvan MR-də digər elmlərlə yanaşı, fundamental və tətbiqi elmlər sahəsində də aparılan işlərin vahid mərkəzdən idarə olunmasına, onların daha rasional əlaqələndirilməsinə əlverişli şərait yaratmışdır ki, bu da öz növbəsində həmin elmlərin yüksək inkişaf səviyyəsinə qalxmasına səbəb olmuşdur. Respublikamızın müstəqillik əldə etməsindən sonra elm və təhsilə yüksək dövlət qayğısının göstərilməsi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin bu sahədə həyata keçirdiyi işlər qədim Naxçıvan diyarının möhtəşəm inkişaf səviyyəsinə yüksəlməsinə səbəb olumuşdur. Bu möhtəşəm işlər Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı İlham Əliyev tərəfindən də uğurla davam etdirilir.

***Tofiq Əliyev***
***Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Təbii Ehtiyatlar İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü, professor***

# Konstitusiya və Suverenlik İli: Siyasətdə hər zaman Konstitusiyaya, beynəlxalq hüquqa və ədalətə söykənən dövlətimiz bütün dünyaya nümunə təqdim edir

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli Sərəncamı ilə 2025-ci ilin ölkəmizdə “Konstitusiya və Suverenlik İli” elan olunması dövlətçilik, tariximizin öyrənilməsi, qüdrətli Azərbaycanın dünya ölkələri arasında nüfuzunun yüksəlməsi, müstəqilliyimizin dönməz və əbədi olmasında bir çox prinsiplərin əhəmiyyətini və mahiyyətini ön plana çxarmaqda əvəzsiz rol oynayır. Çünki Azərbaycanın uğurlu inkişafının, dövlət siyasətinin əsasını insan hüquq və azadlıqlarının qorunması, yeni müdafiə mexanizmlərinin müəyyənləşdirilməsi təşkil edir.

XX əsrin son onilliyində Azərbaycan xalqı 2-ci dəfə dövlət müstəqilliyini “Azərbaycan Respublikasnın dövlət müstəqilliyi haqqında” 18 oktyabr 1991-ci il tarixli Konstitusiya Aktı ilə bərpa etməyə nail olsa da, bu Aktda Konstitusiya haqqında Azərbaycan Respublikası vətəndaşlarının real hüquq və vəzifələri, dövlətimizin məram və məqsədləri tam mənada öz əksini tapmamışdır. Belə bir vəziyyətdə ölkədə Konstitusiya boşluğu açıq-aydın görünürdü. Bu tarixi zərurəti nəzərə alaraq, Ulu Öndər Heydər Əliyev yeni milli Konstitusiyanın hazırlanması qərarına gəldi. Milli Məclisin 2 may 1995-ci il tarixli Qərarı ilə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında 33 nəfərdən ibarət Konstitusiya komissiyası yaradıldı. Ümummilli Liderimiz Heydər Əliyev yeni milli Konstitusiyanın mükəmməl bir sənəd kimi hazırlamağı tövsiyə edərək deyirdi: “Biz elə bir Konstitusiya qəbul etməliyik ki, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin etsin, Əsas Qanun tarixi sənəd olsun. Müstəqilliyimizin əsas atributu olan bu sənəd dövlət və hüquq tarixində xüsusi yer tutan mühüm hadisədir”.

Ümummilli Liderimiz Heydər Əliyevin rəhbərliyi altında 1995-ci il noyabrın 12-də qəbul edilən Azərbaycan Respublikasının ilk milli Konstitusiyası ölkəmizin milli, demokratik, hüquqi dövlət quruculuğunun əsasını qoymuş, yeni dövlətin gələcək inkişafına təkan vermişdir. Əsas Qanunumuzda insan hüquq və azadlıqlarına geniş yer verilməsi ölkəmizin demokratiya ideallarına sadiqliyin göstəricisidir. Sonrakı illərdə Konstitusiyaya edilən əlavə və dəyişikliklər müasir çağırışları və yenilikləri özündə əks etdirməkdədir. 24 avqust 2002-ci il, 18 mart 2009-cu il, 26 sentyabr 2016-cı ildə keçirilən referendumlarda vəsiqə alan əlavə və dəyişikliklər qanunvericilik bazasının zənginləşməsi, insan və vətəndaş hüquq və azadlıqlarının əhatə dairəsinin genişlənməsi, sosial-siyasi təsisatların fəaliyyət mexanizminin səmərəlilik səviyyəsinin artırılması istiqamətlərində müstəsna əhəmiyyət kəsb etdi. Azərbaycan Respublikasının Konstitusiyasında, BMT-nin 1948-ci il Ümumdünya İnsan Hüquqları Bəyannaməsində və digər beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş insan hüquq və azadlıqları ilə yanaşı, vətəndaşların əsas vəzifələri də öz əksini tapmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sözləri ilə desək: “Bu gün qarşımızda duran əsas vəzifələrdən biri Konstitusiyamızın təbliği, onun əsas prinsip və müddəalarının dərindən öyrənilməsi və hər bir vətəndaşın yaşayış normasına çevrilməsidir”.

Azərbaycan Respublikası Konstitusiyasının 4-cü fəsli vətəndaşların əsas vəzifələrinə həsr olunub. Qanunumuzda qeyd edilir ki, dövlət və cəmiyyət qarşısında hər bir şəxs onun hüquq və azadlıqlarından bilavasitə irəli gələn vəzifələr daşıyır. Hər kəsin üzərinə vəzifələr yalnız Azərbaycan Respublikasının Konstitusiyası ilə və ya qanunla qoyula bilər. Hər bir şəxs Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlara əməl etməli, başqa şəxslərin hüquq və azadlıqlarına hörmət bəsləməli, qanunla müəyyən edilmiş vəzifələri yerinə yetirməlidir. Çünki hər bir şəxs həm dövlət qarşısında, həm də cəmiyyət qarşısında müəyyən öhdəliklər daşıyır. Hər bir vətəndaş ictimai-siyasi həyata biganə qalmamalıdır. Vətənini sevməlidir. Vətəni qorumaq öz elini, obasını, ana torpağını, yurdunu, şərəfini qorumaqdır. Vətəni qorumaq xalqımızın tarixini, mənəviyyatını, əsrlər boyu əldə etdiyi milli mədəniyyətini, milli iftixarını qorumaq deməkdir. Bu şərəfli yoldur, şərəfli vəzifədir. Çünki Vətən millətin və xalqın yer üzərindəki ünvanıdır. Belə bir müdrik kəlam var: “Vətənini ən çox sevən, vəzifəsini ən yaxşı yerinə yetirəndir”. Ulu Öndər Heydər Əliyevin söylədiyi kimi: “Gərək nəbzin Vətənin nəbzi ilə vursun... Vətənpərvərlik insanın daxilindəki duyğulardır”. Çünki hər birimiz yaşadığımız cəmiyyətin bir üzvü kimi müəyyən öhdəliklər daşıyırıq.

Konstitusiyada təsbit olunmuş digər bir vəzifə isə dövlət rəmzlərinə hörmətdir. Hər bir vətəndaş dövlət rəmzlərinə bayrağına, gerbinə və himninə hörmət etməlidir. Azərbaycan Respublikasının dövlət rəmzləri Azərbaycan Respublikasının Dövlət Bayrağı, Azərbaycan Respublikasının Dövlət Gerbi və Azərbaycan Respublikasının Dövlət Himnidir. Çünki dövlət rəmzləri hər bir dövlətin varlığını təcəssüm etdirən əsas amildir. Ulu Öndərin söylədiyi kimi: “Xalqımız üçün qürur yaradan, iftixar hissi verən odur ki, o artıq azad yaşayır, öz taleyinin sahibidir və Azərbaycan xalqının dünya xalqları içərisində imzası var”. Xalqımızın imzası onun dövlət rəmzlərində ifadəsidir. Hər bir şəxs cəmiyyət qarşısında öz məsuliyyətini dərk edərək vətəndaşı olduğu dövlətin əbədiliyi, mənsub olduğu xalqın tərəqqisi naminə öz vətəndaşlıq borcunu layiqincə yerinə yetirməlidir.

Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün bərpası yolundakı ən mühüm mərhələ 2020-ci ilin sentyabr ayında Vətən müharibəsi ilə başlanıb. Ermənistanın təxribatlarına cavab olaraq Azərbaycan Silahlı Qüvvələri işğal altında qalmış torpaqlarımızı geri qaytarmaq üçün hərbi əməliyyatlara başladı. Bu müharibə yalnız Azərbaycan xalqının torpaq uğrunda apardığı mübarizə deyil, həm də Azərbaycanın dövlət müstəqilliyi və suverenliyinin qorunması uğrunda böyük bir mücadilə idi. 44 günlük Vətən müharibəsində müzəffər ordumuz və xalqımız Ali Baş Komandanın rəhbərliyi altında müqəddəs vətən torpaqlarını işğaldan azad etdi. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixinə qızıl hərflərlə “Zəfər Günü” kimi yazıldı. 2023-cü ildə həyata keçirilən uğurlu antiterror əməliyyatı ilə Azərbaycanın suverenliyi bu ərazilərdə tam şəkildə bərpa edildi. Xankəndi şəhərində Azərbaycan bayrağının ucaldılması ilə dövlət suverenliyimiz tam şəkildə bərqərar oldu. Bu zəfər Ulu Öndər Heydər Əliyev yolunun və cənab İlham Əliyevin müdrik və qətiyyətli siyasətinin təntənəsinə çevrildi. Bu zəfər bir daha onu göstərdi ki, cənab İlham Əliyevin hər bir qərarı, atdığı hər bir addım Azərbaycanın milli maraqlarının həyata keçirilməsinə, dövlətçiliyimizin möhkəmlənməsinə, ölkəmizin beynəlxalq nüfuzunun güclənməsinə xidmət edir.

Ölkə başçısı cənab İlham Əliyevin ötən il sentyabrın 19-da “Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında” Sərəncamı tarix boyu öz xüsusi əhəmiyyəti ilə seçiləcək. Azərbaycan dövlətinin, xalqımızın tarixində ən parlaq səhifələrdən biri olan sentyabrın 20-si Sərəncama əsasən hər il ölkəmizdə “Dövlət Suverenliyi Günü” kimi qeyd edilir.

“Konstitusiya və Suverenlik İli” Azərbaycanın dövlətçilik tarixində yeni bir mərhələnin başlanğıcı olacaq, həmçinin ölkəmizin beynəlxalq arenada daha güclü mövqeyə sahibliyini və öz suveren hüquqlarını qorumaq istiqamətində prinsipal mövqe tutacağını bir daha nümayiş etdirəcəkdir. Atılacaq yeni addımlar nəticəsində Azərbaycan yeni hədəflərinə də çatacaq. Bu gün qürur hissi ilə deyə bilərik ki, dövlətimiz atdığı addımlarda, apardığı uğurlu siyasətdə hər zaman Konstitusiyaya, beynəlxalq hüquqa və ədalətə söykənərək bütün dünyaya nümunə təqdim edir.

***Səfiyar Abışov***
***Naxçıvan Dövlət Universiteti Beynəlxalq münasibətlər və hüquq fakültəsinin müəllimi***

# QÜRUR DUYDUĞUM ŞƏXSİYYƏT – ƏBƏDİYAŞAR LİDER HEYDƏR ƏLİYEV

Tarix boyunca hər bir xalq öz taleyində mühüm rol oynayan, dövlətçiliyin bərpası və inkişafında silinməz iz qoyan şəxsiyyətlər yetirmişdir. Azərbaycan xalqı üçün belə şəxsiyyətlərin başında Ulu Ön-



dər, dünya miqyaslı siyasətçi və müdrik dövlət xadimi Heydər Əlirza oğlu Əliyev dayanır. Heydər Əliyev dünya siyasi arenasında öz möhürünü vurmuş liderlərdən biri, müasir müstəqil Azərbaycanın banisi və memarı olmuşdur. Onun siyasi fəaliyyəti yalnız regional deyil, qlobal miqyasda da daim diqqət mərkəzində olmuş və dövlət idarəçiliyi sahəsində yaratdığı model beynəlxalq aləmdə yüksək qiymətləndirilmişdir. O təkcə bir dövrün lideri deyil, həm də bir millətin öz kimliyini, müstəqilliyini qorumasının və inkişaf etdirməsinin rəmzidir.

Heydər Əlirza oğlu Əliyev 1923-cü ilin mayın 10-da Naxçıvan şəhərində anadan olmuşdur. Gənclik illərindən dövlət idarəçiliyinə olan marağı, yüksək intellekti və təşkilatçılıq bacarığı onu tezliklə rəhbərlik vəzifələrinə gətirmişdir. 1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildikdən sonra respublikada əsaslı dəyişikliklərin əsası məhz əbədiyaşar liderin adı ilə bağlıdır. Məhz onun gərgin əməyi və düzgün siyasəti sayəsində sənaye, kənd təsərrüfatı, təhsil, mədəniyyət və səhiyyə sahələrində islahatlar həyata keçirilmiş, Azərbaycan Respublikası Sovet İttifaqı daxilində qabaqcıl respublikalardan birinə çevrilmişdir.

1990-cı illərin əvvəllərində müstəqilliyini yenicə əldə etmiş Azərbaycan siyasi, iqtisadi və sosial çətinliklərlə qarşı-qarşıya qalmış, dövlət çevrilişləri, daxili çəkişmələr, Ermənistanın hərbi təcavüzü və torpaqlarımızın işğalı xalqı ümidsizliyə sürükləmişdir. Məhz belə bir zamanda xalq öz ümidini haqlı olaraq Heydər Əliyevə bağlamışdır. 1991-ci ildə Azərbaycan öz müstəqilliyini bərpa etsə də, bu müstəqillik kağız üzərində qalmış, dövlətin dayaqları sarsılmış, xalqın sabaha ümidləri tükənmişdir.

Azərbaycan müstəqilliyini qazandıqdan sonra onun qarşısında duran əsas vəzifə - dövlətçiliyin möhkəmləndirilməsi olsa da, ard-arda baş verən siyasi dəyişikliklər, idarəetmədə təcrübəsizlik və fərasətsizlik dövləti iflic vəziyyətə düşməsinə səbəb olmuşdur. 1992-ci ildə AXC-Müsavat hakimiyyəti xalqın etimadını doğrultmamış, daxili qarşıdurmalar dərinləşmiş, Azərbaycan torpaqları işğal olunmuş və yüz minlərlə soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür.

Ən kritik an isə 1993-cü ilin iyun ayında baş vermiş - Gəncədə qiyam baş qaldırmış, ölkədə vətəndaş müharibəsi təhlükəsi yaranmışdır. Həmin dövrdə artıq xalqın ümidi yalnız bir şəxsə - Heydər Əliyevə yönəlmişdir. Naxçıvanda muxtar respublikanın rəhbəri kimi göstərdiyi qətiyyətli və müdrik fəaliyyət ona olan ümumxalq inamını daha da artırmışdır. Belə bir ağır və mürəkkəb zamanda Azərbaycan xalqının xilası üçün 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı müasir tariximizin dönüş nöqtəsinə çevrilmişdir. 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan Ulu Öndər, qısa müddət ərzində dövlət idarəçiliyində sabitliyi bərpa etmiş, ordu quruculuğu və hüquqi dövlətin əsaslarını yaratmışdır.

Heydər Əliyevin 1993-cü ildə həyata keçirdiyi xilaskarlıq missiyası yalnız bir dövlətin deyil, bir millətin tale yolunu dəyişmiş, onun uzaqgörən siyasəti nəticəsində Azərbaycan parçalanmaqdan, suverenliyini itirməkdən, vətəndaş müharibəsindən və iqtisadi fəlakətdən xilas olmuşdur. Əminliklə deyə bilərik ki, bu gün müstəqil Azərbaycanın möhkəm dövlət strukturları, güclü ordusu və beynəlxalq nüfuzu varsa, bu, məhz Heydər Əliyevin həyata keçirdiyi xilaskarlıq missiyasının nəticəsidir.

Heydər Əliyevin ən mühüm xidmətlərindən biri də 1994-cü ildə atəşkəsə nail olmaq və neft strategiyasını həyata keçirməsi olmuşdur. "Əsrin müqaviləsi" kimi tanınan beynəlxalq enerji layihələri Azərbaycan iqtisadiyyatının inkişafı üçün geniş imkanlar yaratmış və ölkənin beynəlxalq nüfuzunu daha da gücləndirmişdir.

Heydər Əliyev ilk gündən etibarən siyasi sabitliyin bərpasını və hüquqi əsasların qurulmasını prioritetə çevirmiş, onun apardığı düşünülmüş və ardıcıl siyasət nəticəsində dövlət çevrilişi cəhdlərinin qarşısı alınmış, vətəndaş müharibəsinin qarşısı qətiyyətlə alınmış, qısa zamanda mərkəzi hakimiyyətin mövqeyi gücləndirilmiş, silahlı qüvvələrin vahid komandanlığı altında formalaşdırılmasına start verilmişdir.

Heydər Əliyev təkcə sabitlik yaratmaqla kifayətlənməmiş, o, həmçinin Azərbaycanın gələcək inkişafını təmin edəcək əsaslı iqtisadi və siyasi islahatlara başlamışdır. 1994-cü ilin sentyabrında imzalanan "Əsrin müqaviləsi" Azərbaycanın neft ehtiyatlarını dünya bazarına çıxarmağa imkan vermişdir. Bu müqavilə ölkəyə milyardlarla dollar sərmayə gətirmiş, xarici investorların ölkəyə marağını artırmış və iqtisadiyyatın dirçəlməsi üçün möhkəm zəmin yaratmışdır.

Bununla yanaşı, hüquqi dövlətin bünövrəsi qoyulmuş, 1995-ci ildə qəbul edilən Konstitusiya və müstəqil məhkəmə sistemi Azərbaycan dövlətçiliyinin əsas dayağına çevrilmişdir.

Heydər Əliyevin xilaskarlıq missiyası yalnız siyasi tədbirlər və qərarlarla məhdudlaşmırdı. Onun ən böyük gücü xalqla qurduğu güclü bağ, etimad və ünsiyyət idi. O, hər zaman xalqa müraciət edir, vəziyyəti olduğu kimi izah edir və çıxış yollarını göstərirdi. Xalq da ona inanır, arxalanır və onun ətrafında sıx birləşirdi. Bu birlik Azərbaycanı çöküşdən qurtardı və gələcəyə doğru aparan yola çevrildi.

Ulu Öndərin siyasətinin ən böyük dayağı xalq sevgisi və milli maraqlara sadiqlik idi. Onun rəhbərliyi ilə hazırlanan Azərbaycan Respublikasının Konstitusiyası, iqtisadi islahatlar proqramları və xarici siyasət strategiyaları bu gün də ölkənin inkişaf yolunun əsas bələdçisidir.

Sevindirici haldır ki, Heydər Əliyevin həyat amalının davamçısı olaraq Prezident İlham Əliyev onun siyasi kursunu uğurla davam etdirir. Məhz bu siyasətin nəticəsində Azərbaycan 2020-ci ildə 44 günlük Vətən müharibəsində tarixi Zəfər qazanaraq ərazi bütövlüyünü bərpa etdi. Bu Zəfər Heydər Əliyev siyasətinin nə qədər uzaqgörən və möhkəm təmələ söykəndiyini bir daha sübut etdi.

Ulu Öndər Heydər Əliyevin irsi çoxşaxəli və kompleks xarakter daşıyır. Onun siyasi və mənəvi mirası aşağıdakı əsas istiqamətlərdə özünü göstərir:

1. Dövlətçilik ideologiyası və müstəqillik fəlsəfəsi:

Heydər Əliyevin ən böyük xidmətlərindən biri Azərbaycanda dövlətçilik ideologiyasını bərqərar etməsi və bu ideologiyanı xalqın şüuruna yeritməsi olmuşdur. O, dəfələrlə vurğulayırdı: "Azərbaycanın müstəqilliyi əbədidir, sarsılmazdır və dönməzdir". Bu fikirlər təkcə siyasi bəyanat deyil, bir dövlət fəlsəfəsinin özəyidir. O, müstəqilliyi qorumaq üçün sabitliyin, hüququn aliliyinin və güclü ordunun zəruriliyini önə çəkmişdir. Bu baxış bucağı bu gün də Azərbaycanın daxili və xarici siyasətində əsas yol xəritəsidir.

2. Milli həmrəylik və ümumxalq birliyi:

Heydər Əliyev irsinin ən güclü dayaqlarından biri xalqın birliyinə və milli həmrəyliyə verdiyi önəmdir. O, Azərbaycan cəmiyyətinin bütün təbəqələrini bir amal ətrafında birləşdirməyə nail olmuşdu-vətənə xidmət. Ulu Öndər diasporla əlaqələrin qurulmasından tutmuş, multikultural dəyərlərin qorunmasına qədər milli həmrəyliyi təmin edən bir çox strateji addımlar atmışdır. Bu siyasət bu gün də Azərbaycan Respublikasının multi-etnik və tolerant cəmiyyət kimi inkişaf etməsinə xidmət edir.

3. Neft strategiyası və iqtisadi inkişaf modeli:

Heydər Əliyevin irsində mühüm yer tutan digər sahə isə iqtisadiyyat, xüsusilə enerji siyasətidir. Onun müəllifi olduğu "neft strategiyası" Azərbaycanı dünya iqtisadiyyatına inteqrasiya etdirən əsas vasitə olmuşdur. 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" ilə Azərbaycanın zəngin təbii ehtiyatları beynəlxalq bazarlara çıxarıldı və ölkəyə milyardlarla dollar sərmayə cəlb olundu. Bununla da müstəqil Azərbaycanın iqtisadi dayaqları möhkəmləndirilmişdir. Bu gün həyata keçirilən irimiqyaslı enerji və nəqliyyat layihələri-TANAP, TAP, Bakı-Tbilisi-Qars dəmir yolu və digər strateji xətlər məhz həmin siyasətin məntiqi davamıdır.

4. Elm, təhsil və gəncliyə qayğı:

Heydər Əliyevin irsində xüsusi yer tutan daha bir sahə "elm və təhsil" dir. Onun fikrincə, dövlətin gələcəyi savadlı və vətənpərvər gənclərin formalaşdırılmasından keçir. 1970-1980-ci illərdə minlərlə azərbaycanlı gəncin keçmiş SSRİ-nin qabaqcıl ali məktəblərində təhsil alması da məhz onun təşəbbüsü ilə baş tutmuşdur. Müstəqillik dövründə isə bu siyasət daha da genişlənmiş, gənclərin xaricdə təhsil proqramları, yeni təhsil islahatları həyata keçirilmişdir. Bu gün də Azərbaycanda həyata keçirilən "gənclər siyasəti" Heydər Əliyev irsinin parlaq nümunəsidir.

5. Azərbaycançılıq ideologiyası - milli kimliyin mayası:

Bu gün Azərbaycanda formalaşan Heydər Əliyev irsi dedikdə, ilk növbədə "Azərbaycançılıq ideologiyası" yada düşür. Bu ideya - dili, dini, etnik mənsubiyyətindən asılı olmayaraq, hər bir vətəndaşın özünü azərbaycanlı sayması və bu kimlik ətrafında birləşməsi ideyasıdır. Azərbaycançılıq həm milli birliyimizin, həm də dövlətçilik fəlsəfəmizin əsasıdır. Bu ideya bu gün də dövlətin rəsmi ideoloji dayağı kimi qəbul edilir və bütün siyasi strategiyalarda öz əksini tapır.

Heydər Əliyev irsinin canlı davamçısı və qoruyucusu bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevdir. O, atasının müəyyən etdiyi strateji kursu daha da inkişaf etdirərək ölkəni regionun lider dövlətinə çevirmişdir. 2020-ci ilin Vətən müharibəsində əldə edilən möhtəşəm Zəfər məhz Heydər Əliyev irsinin-milli ruhun, güclü dövlətin və qətiyyətli rəhbərliyin nəticəsi kimi tarixə yazılmışdır.

Fəxrlə deyə bilərik ki, Heydər Əliyev irsi - bir dövlətin keçmişi deyil, onun gələcəyidir. Heydər Əliyev təkcə siyasi lider deyil, həm də mənəvi lider idi. Onun "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" sözləri hər birimizin qürur mənbəyidir. O, öz xalqına güvənən, xalqının güvəndiyi bir lider idi. Tarix onu yalnız keçmişin deyil, həm də gələcəyin lideri kimi yadda saxlayacaq. Heydər Əliyev - bir millətin yaddaşında yaşayan, bir dövlətin taleyində yaşayan, bir xalqın qəlbində əbədiyaşar liderdir. Heydər Əliyevin ideyaları, qərarları və qoyduğu təməl prinsiplər Azərbaycan xalqına sabitlik, inam və inkişaf bəxş etmişdir. Onun irsi nə qədər zaman keçsə də, öz aktuallığını qoruyacaq, gələcək nəsillərə yol göstərəcək. Bu irs-müstəqil, güclü, ədalətli və firavan Azərbaycanın simvoludur.

Heydər Əliyevin fəaliyyətinin təməlini milli maraqların qorunması, regional sabitliyin təmin olunması və beynəlxalq əməkdaşlığın inkişafı təşkil etmiş, o, öz rasional düşüncə tərzi, qətiyyəti və prinsipiallığı ilə dünyanın aparıcı siyasi dairələrinin rəğbətini qazanmış və bu nüfuz, onun bir lider olaraq təkcə Azərbaycan daxilində deyil, eyni zamanda beynəlxalq münasibətlər sistemində də mühüm rol oynadığını təsdiqləmişdir. Heydər Əliyevin zəngin siyasi irsi, strateji uzaqgörənliyi və diplomatik məharəti dünya siyasətçilərinin fikirlərində də aydın şəkildə öz əksini tapır. Məsələn, Rusiya Prezidenti Vladimir Putin, Heydər Əliyevi "böyük siyasi xadim və uzaqgörən lider" kimi qiymətləndirərək onun həm sovet dövründə, həm də müstəqillik dövründə göstərdiyi dövlətçilik fəaliyyətini yüksək qiymətləndirmişdir: "Heydər Əliyev nadir və müdrik siyasətçi idi. Onun qurduğu dövlətçilik modeli bu gün də uğurla inkişaf edir". Bu fikir Heydər Əliyevin siyasi kursunun davamlılığının və sistemlilik xarakterinin beynəlxalq miqyasda qəbul olunduğunu göstərir.

Heydər Əliyevin diplomatik siyasəti Qərb dövlətləri tərəfindən də yüksək dəyərləndirilmişdir. ABŞ-nin sabiq prezidenti Bill Klinton onun regional sabitliyin və qlobal enerji təhlükəsizliyinin təmin olunmasında oynadığı rolu belə qiymətləndirmişdir: "Heydər Əliyev regionda sülh və sabitlik naminə mühüm addımlar atan, rasional və təcrübəli lider idi".

Heydər Əliyevin Türk dövlətləri ilə münasibətlərin qurulması və inkişafında oynadığı rol xüsusi əhəmiyyət kəsb edir. Onun məşhur "Bir millət, iki dövlət" fikri təkcə Azərbaycan-Türkiyə münasibətlərinin deyil, bütün türk dünyasının siyasi fəlsəfəsinin əsas ideoloji dayağına çevrilmişdir. Türkiyənin sabiq prezidenti Süleyman Dəmirəl Heydər Əliyevi belə xarakterizə etmişdir: "Heydər Əliyev təkcə Azərbaycanın deyil, bütün türk dünyasının böyük lideridir. O, türk millətinin gələcəyini düşünən strateq idi".

Heydər Əliyev postsovet məkanında sabitliyin və tərəfdaşlığın qorunmasına xüsusi önəm vermişdir. Bu siyasət Orta Asiya liderləri tərəfindən də yüksək qiymətləndirilmişdir. Özbəkistan Prezidenti İslam Kərimov onu "böyük siyasi filosof" kimi dəyərləndirmiş, Gürcüstan Prezidenti Eduard Şevardnadze isə Heydər Əliyevin Qafqaz regionunda oynadığı rolu belə ifadə etmişdir: "Heydər Əliyev bölgədə ağıllı siyasətin simvolu idi. Onun varlığı region üçün sabitliyin qarantı idi". Bu fikirlər onun regional liderlər arasında nüfuzunun nə qədər yüksək olduğunu göstərir. Heydər Əliyevin fəaliyyəti yalnız ikitərəfli münasibətlərlə məhdudlaşmamış, eyni zamanda beynəlxalq təşkilatlarla əməkdaşlıqda da özünü göstərmişdir. BMT-nin sabiq baş katibi Kofi Annan qeyd etmişdir: "Heydər Əliyev dünya siyasətində konstruktiv dialoqun tərəfdarı kimi tanınırdı. Onun rəhbərliyi ilə Azərbaycan beynəlxalq təhlükəsizlik məsələlərinə fəal töhfə verirdi". Bu fikirlər onun qlobal diplomatik məkandakı nüfuzunun təsdiqidir.

Heydər Əliyev haqqında dünya siyasətçilərinin fikirləri göstərir ki, o yalnız Azərbaycan xalqının taleyində mühüm rol oynamış lider deyil, eyni zamanda beynəlxalq münasibətlər sistemində müdrikliyi, sabitliyi və konstruktiv siyasəti ilə seçilən nüfuzlu siyasi xadim olmuşdur. Onun siyasi irsi bu gün də həm ölkə daxilində, həm də beynəlxalq aləmdə örnək kimi göstərilir. Heydər Əliyev - Ümummilli Lider olmaqla yanaşı, qlobal liderlik modelinin daşıyıcısı kimi dünya siyasi tarixində əbədi yerini almışdır. O təkcə müasir Azərbaycanın qurucusu deyil, eyni zamanda xalqımızın milli kimliyini, dövlətçilik irsini və siyasi müdrikliyini özündə cəmləşdirən nadir tarixi şəxsiyyətdir. Onun həyat və fəaliyyəti, keçdiyi şərəfli yol, göstərdiyi əvəzsiz xidmətlər Azərbaycan xalqı üçün örnək və ilham mənbəyidir. Müasir Azərbaycan dövlətinin əsasını qoyan bu böyük liderin strateji baxışları, siyasi uzaqgörənliyi və xalqına olan sonsuz sevgisi sayəsində ölkəmiz dünya arenasında öz layiqli yerini tutmuşdur.

Heydər Əliyev siyasi hakimiyyətə gəldiyi ilk gündən xalqın rifahını, dövlətin qüdrətini və müstəqilliyini əsas prioritet kimi irəli sürmüşdür. Sovet dövründə Azərbaycanın inkişafında misilsiz rol oynamış, müstəqillik illərində isə ölkəni dağılmaqdan, xaos və anarxiyadan xilas edərək sabitliyə, tərəqqiyə doğru aparmışdır. Onun rəhbərliyi ilə əsası qoyulan milli inkişaf strategiyası bu gün də Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasəti ilə davam etdirilir. Yekun olaraq qeyd edək ki, əbədiyaşar lider Heydər Əliyevin zəngin siyasi irsi, dövlətçilik fəlsəfəsi və xalqına bəxş etdiyi güvən, birlik və qürur hissi onu deməyə əsas verir ki, o, yalnız bir dövrün deyil, bütün zamanların lideridir. Heydər Əliyevin şəxsiyyəti qarşısında qürur duymaq - sadəcə bir vətəndaş mövqeyi deyil, həm də milli kimliyə, tarixə və dövlətə sadiqliyin təzahürüdür. Mən fəxrlə deyə bilərəm ki, qürur duyduğum şəxsiyyət məhz Heydər Əliyevdir - Azərbaycan tarixində əbədiyaşar lider. O, tarixə yalnız bir lider kimi deyil, xalqını tarix səhnəsində qoruyub saxlayan xilaskar kimi daxil olmuşdur. Bu səbəbdəndir ki, Heydər Əliyev adı Azərbaycan xalqının yaddaşında əbədiyaşar, əvəzolunmaz lider kimi yaşayır.

***Tehranə Xudaverdiyeva***
***f.ü.f.d., "İngilis dili və tərcümə"***
***kafedrasının baş müəllimi***

# BƏXTİYAR VAHABZADƏNİN POEZİYASINDA SÖZ-İFADƏ YARADICILIĞI MƏSƏLƏLƏRİ

*Eyni sistemə daxil olan türk mənşəli dillərimiz bir-birinə yaxın olduğuna görə azərbaycanlılar məni çox asanlıqla inandırırlar ki, indiki dövrdə Bəxtiyar Vahabzadənin yaradıcılığı orijinalda milli poetik fikrin ən böyük nailiyyətlərindən biridir.*

***Çingiz Aytmatov***

Bəxtiyar Vahabzadə milli şeirimizdə böyük mənəvi təcrübəyə, güclü istedada malik olan şairlərdəndir. O, müxtəlif dəyərli mövzu və fikirləri ilə ədəbi dilimizdə yüksək mövqeyə malikdir. Milli dil, mili qürur, milli təəssübkeşlik, milli dəyər, milli mənafe, milli düşüncə - bütün bunlar Bəxtiyar müəllimin nəfəs aldığı sahələr, amillər idi.



Bəxtiyar müəllim şair kimi də, ictimai xadim kimi də, vətəndaş kimi də ana dilimizin həm təbliğatçısı, həm qoruyucusu, həm də yaradıcısı olaraq tanınırdı. “Bəxtiyar Vahabzadənin şeir dili, ümumiyyətlə, Azərbaycan ədəbi dilinin inkişaf təmayülləri ilə, yaşadığı və fəaliyyət göstərdiyi dövrə xas olan ictimai-siyasi, mədəni-maarif mühitinin tələbləri ilə sıx əlaqədə və təmasda özünü göstərmişdir. O bir sənətkar, elm adamı, siyasi xadim və maarif işçisi kimi bu tələblərin işlənib hazırlanmasında fəal iştirak etmiş və qələmə aldığı əsərlərin janrına müvafiq olaraq özünün ədəbi dilçilik platformasını həm nəzəri səpkidə bəyan etmiş, həm də əməli olaraq nümayiş etdirmişdir”.

Poetik sözləri, dərin mənalı misraları ilə diqqəti çəkən şair dilimizin daxili imkanlarından istifadə edərək maraqlı söz və ifadə yaradıcılığı örnəklərinə də geniş yer vermişdir. Bəxtiyar Vahabzadə sözləri və cümlələri elə bir nəqliyyat vasitəsinə bənzədir ki, o, bir ağıldan o birisinə, bir ürəkdən o birisinə fikir yükü daşıyır. Nəqliyyat yükə xidmət etdiyi kimi, sözlər də fikrə xidmət edir: “Fikrə görə söz tapılır, sözə görə fikir yox!”. Lakin fikir yükünü mənzilə tez, kəsə yolla çatdırmaq üçün münasib “nəqliyyat vasitələri” ən dəqiq sözlər, ibarələr, ifadələr tapılmalıdır”.

Dilimiz zəngin, sözlərinin mənaları çeşid-çeşiddir. Bundan faydalanan şair atalar sözləri səviyyəsində olan yeni ifadələr yaratmış, dilimizi mənalı aforizmlərlə zənginləşdirmişdir. Məsələn:

*Çıxarmı qönçədən tək bircə kərə*
*Bülbülün nəfəsi gülə dəyməsə?*
*Kösöyün ikisi çöldə də yanar,*
*Biri ocaqda da alışa bilməz.*
*Təlatümsüz ürəklər qovuq kimi boş olur.*
*Öz səsi olmayanın ölümü səssiz keçər,*
*Min-min dəfə ölənin matəmi yassız keçər.*

Bəxtiyar Vahabzadə dərin fikirlər şairidir. O, sənət sazını məharətlə çalsa da, özünü “qırıq telli saz” hesab edir və özündən razı qalmır:

*Bizim sənət dünyasının*
*Qırıq telli sazıyam.*
*Bircə ondan razıyam ki,*
*Özümdən narazıyam.*

Bəxtiyar Vahabzadə öz dilini və tarixini gözəl bilən, lakin keçmiş şöhrətə qane olmayan bir şəxsiyyətdir. Tarixi yaradanlar yaradıblar, sözləri deyənlər deyiblər, tarix də, söz də yarandığı şəkildə qalmır, inkişaf edir, zənginləşir, onların yenisinə ehtiyac duyulur və şair bu ehtiyacı ödəməyə çalışır:

*Ucalsam da günbəgün,*
*Dünənki son zirvəmə*
*Bu gün yenə “az” dedim.*
*Tarixin kölgəsində*
*Daldalanan millətin*
*Sabahı olmaz dedim.*

Şair sabah üçün söz axtarır ki, o, bu günü yaşada bilsin. Bunun üçün dildəki sözlər kifayət eləmir, onların yeni-yeni çalarları axtarılır. Bu prosesdə tamamilə fərqli söz və ifadələr meydana çıxır. Söz yaratmaq, yeni ifadələri düzüb-qoşmaq sənətkardan xüsusi istedad və bacarıq istəyir. Bu söz və ifadələr dərin düşüncənin məhsulu olaraq hissləri, duyğuları bildirmək üçün çox önəmlidir. “Şeir sənəti barədə mühakimə yürüdərkən, biz tez-tez “poeziyanın sehri”, “poeziyanın sirri”, “poeziyanın musiqisi” ifadələrini işlədir, adətən, anlaşılması asan olmayan, predmeti dəqiq müəyyənləşməyən qeyri-adi məfhumları, duyğuları açmağa çalışırıq”. Poetik söz o zaman güclü olur ki, o, istedadla birləşir. “Bədii dilin gözəlliyi üçün istedad, həssaslıq, ağır zəhmət lazımdır”. Bəxtiyar Vahabzadənin sözləri istedad, ilham nəticəsində meydana çıxdığı üçün bu qədər təsirli və axıcıdır:

*Daşqın böyrü üstə yıxsa bir dağı,*
*Yanındakı dağ da əyiləcəkdir.*
*Bu gün yeyilirsə birinin haqqı,*
*Sabah da səninki yeyiləcəkdir.*

Bəxtiyar Vahabzadənin dili iki baxımdan diqqəti çəkir:
- Fəlsəfi xarakteri ilə;
- Yeni söz və ifadələrlə zənginliyi ilə.

Ən yeni dövrün ədəbi dilində fəlsəfilik dedikdə, ilk növbədə Bəxtiyar Vahabzadə yada düşür. Əslində, hamıya bəlli olan həqiqətləri şair filosofcasına tərənnüm edir, onların fəlsəfi qatında maraqlı fikirlər tapır:

*Dərdlər bir olanda fikir bir olar*
*Odu su keçirər, od oda neylər?*
*Arzular dünyasına*
*Uçan zaman nağıllar*
*Yarandı əfsanələr,*
*Əsatirlər, nağıllar*

Bədii üslubda sözlərin mənası azlıq edir, onların yeni rəngarəng məna çalarlarına ehtiyac duyulur. Sözdən müxtəlif məqamlarda və müxtəlif məqsədlərlə işlədilməsi bunu tələb edir. “Məlum olduğu üzrə, sözlər əsas lüğəvi və qrammatik mənadan başqa, ünsiyyətin konkret məqamı ilə əlaqədar olaraq müxtəlif məna çalarlığını və hətta bu və ya digər hissi halı da ifadə edir, yəni hər bir söz ünsiyyətdə əsas mənaya, əlavə mənalara, məna çalarlıqlarına, eləcə də ekspressivliyə, emosionallığa malik olur”.

Bu prosesdə ən çox iştirakı olan, sözsüz ki, şairlərdir, poetik söz ustadlarıdır. Bəxtiyar Vahabzadənin dilində şairlərin öz yeri, öz çəkisi vardır. Hamıya yalnız şeir yazan şəxs kimi görünən şair onun gözündə və qələmində zəhmətkeş, qürurlu, nifrət və məhəbbəti bəlli olan, bəzən bircə söz üçün saatlarla, günlərlə düşünən, sübhə qədər söz eşqinə ürəyini yandıran adamlardır. Bəxtiyar Vahabzadə fəlsəfi dillə şairlər haqqındakı fikir və düşüncələrində sanki özünü nişan verir:

*Şair – fikirlərin çırpınan seli,*
*Şair – həqiqətin müğənnisidir.*
*Şair – təbiətin danışan dili,*
*Şair – cəmiyyətin üsyan səsidir.*

*Şair – zəmanənin, əsrin vicdanı,*
*Şair – tarixlərin şərəfi, şanı.*
*Şair – bu dünyaya zamanın sözü,*
*Şair – həqiqətin, haqqın güzgüsü!*

Bəxtiyar Vahabzadənin əsərlərini oxuyanda, adama elə gəlir ki, doğrudan da, şairlər zamanın dünyaya dediyi sözlərdir. Şairlər söz yaradanlar, söz deməyi bacaranlardır. Bu baxımdan, Bəxtiyar Vahabzadənin dilində bir sıra yeni anlamlı söz və ifadələr diqqəti çəkir. Onlar iki qrupa ayrılır:

1. Əsas tərəfi adlarla ifadə olunan birləşmələr. Bəxtiyar Vahabzadənin dilində belə birləşmələr çoxluq təşkil edir.

2. Əsas tərəfi feilin təsriflənməyən formaları ilə ifadə edilən birləşmələr. Şairin yaradıcılığında belə birləşmələr birinci qrupa daxil olan birləşmələrlə müqayisədə azlıq təşkil edir.

Bəxtiyar Vahabzadənin dilində şairin öz qələminə məxsus olub dilimizin sözləri əsasında yaradılan, əsas tərəfi adlarla ifadə olunan yeni ifadələrlə bağlı aşağıdakı örnəklər səciyyəvidir: “vicdan güzgüsü”, “kainatın qulağı”, “işıqsız ulduz”, “idrakın gözləri”, “əqidə sözləri”, “manat üçün yanan tüfeylilər”, “zamanın qazanı”, “könül dünyasının barometri”, “vicdan oğrusu”, “qəlb oğrusu”, “əsəb oğrusu”, “sevinc oğrusu”, “qıfıllı ürəklər”, “fikir qanadları”, “lağ edib güləndə haqqa yalanlar”, “dünyanın sinə dağları”, “az ilhamlı, çox iddialı şairciklər”, “vətən məcnunları”, “el məcnunları”, “qəm kotanı”, “gül-çiçəyin badə tutmağı”, “fikir acı”, “fikir möhtacı”, “sabahın körpüsü”, “arzunun qulu”, “rəngsiz söz”, “boyasız söz”, “görüşdə ayrılıq”, “doyumsuz könül”, “kirədar”, “ürəkdə gedən vuruş”, “könlümün qafiyəsi”, “çığıran duyğular”, “çapılan könül”, “illərin sifətdə qırışlanmağı”, “sitəmin saçlarda ağarmağı”, “sevgi qalası”, “könül mahnısı”, “illərin qara saçlarda ağarması”, “bəxtin yumulan gözü”, “yorğun xəyal”, “şikəstə könül”, “köhnə arzuların saçlarına dən düşməsi”, “sonsuzluq ölçüsü”, “sirr dağları”, “işım-işım həsrət”, “axtarış evi”, “dövlət maşınının sükançısı” və s.

Şairin dilində əsas tərəfi feillə ifadə olunan bir sıra maraqlı örnəklər də vardır: “namusu xərcləmək”, “özgəni qorxudub özündən hürkmək”, “zədən-zədən ağlamaq”, “dərdi üyütmək”, “el yolunu, məsləkini hava bürosuna girov verən, iqlim üçün dəyişdirən”, “öz-özünü qəlbində dəfn etmək”, “fikrin önünə daş gillədənlər”, “ayları, illəri sapa düzmək”, “fərəhi həbs etmək”, “nəşəni oğurlamaq”, “duyğulara sığal çəkmək” və s.

Bu ifadələrin tərkibindəki sözlər hamıya məlumdur, yəni onlar əvvəldən dilimizdə mövcuddur. Lakin onların bir araya gəlməsi, müxtəlif sintaktik əlaqələrlə bir-birinə bağlanaraq yeni ifadələr şəklinə düşməsi Bəxtiyar Vahabzadənin dilinə və qələminə məxsusdur. Şair söz-ifadə yaradıcılığı ilə dilimizin leksik-qrammatik və üslub baxımından inkişaf və zənginləşməsində mühüm rol oynamışdır. Beləliklə, ədəbi dilimizdə Bəxtiyar Vahabzadənin özünə xas olan mövqeyi vardır.

***Qənirə Əsgərova***
***“Azərbaycan dilçiliyi” kafedrasının dosenti***

# Naxçıvan – tarixləşən ruh, əbədiləşən Vətən

Haradan başlayasan bu sehrli diyarı təsvir etməyə? Keçmişindən, sarsılmaz iradəsindən, yoxsa dağlarına hopmuş əsrlərin nəfəsindən? Naxçıvan sadəcə bir şəhər deyil, o, tariximizin qızıl səhifəsidir. Təkcə 101 illik muxtariyyət tarixi ilə yox, minilliklər boyu bu torpaqda yaşayan insanların daş üstünə qoyduğu daşla, dözümlülük və zəka ilə dəyərlidir.

Naxçıvanın adını eşidən hər kəsin zehnində ilk canlanan obraz, bəlkə də, Nuh Peyğəmbərin əfsanəsi olur. Rəvayətə görə, Nuhun gəmisi tufandan sonra Naxçıvandakı Haçadağa dayanıb. Elə buna görə də Naxçıvan “Nuhun məskəni” adlandırılıb. Bu əfsanə təkcə dini bir inanc deyil, həm də Naxçıvanın insanlığın ən qədim yaşayış məskənlərindən biri olduğunu göstərir.

Naxçıvan tarix boyu sanki İbrahim peyğəmbərtək mancanağa qoyularaq od-alovun içərisinə atılmış, lakin həmin od-alova baxmayaraq, gülüstana çevrilmişdir... VII əsrdə ərəb işğalları, XI-XII əsrlərdə Səlcuqlar və Atabəylər dövrlərində mədəni çiçəklənmə, XIV əsrdə Əmir Teymurun yürüşləri, sonra Səfəvilər və Osmanlılar arasında gedən mübarizələr bu torpağın hər daşına iz qoyub. 1918-ci ildə erməni daşnaklarının hücumlarına baxmayaraq, Naxçıvan əhalisi mübarizəsini dayandırmadı. Nəhayət, 1924-cü il fevralın 9-da Naxçıvan Muxtar Sovet Sosialist Respublikası yaradıldı. O gündən etibarən bu torpaq Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi inkişaf etməyə başladı.

Naxçıvanın hər guşəsi tarixin izlərini daşıyır. Burada hər tikili bir mədəniyyət yadigarı, hər qalanın divarları bir döyüşün, bir qəhrəmanlığın şahididir.

Möminə Xatun türbəsi... XII əsrin incisi, Naxçıvan memarlıq məktəbinin şah əsəri... Atabəy hökmdarı Şəmsəddin Eldəniz bu türbəni sevimli həyat yoldaşı Möminə xatının əziz xatirəsinə ucaltdı. Memar Əcəmi Naxçıvani bu möhtəşəm abidəni elə inşa etdi ki, əsrlər keçsə də, bu sənət əsəri öz əzəmətini qorumağa davam edir.

Əlincə dağının zirvəsində ucalan məğrur qala isə əsrlər boyu fatehlərə müqavimət göstərib. XIV əsrdə Əmir Teymurun ordusu bu qalaya hücum etsə də, burada yaşayan döyüşçülər onlara qarşı illərlə mübarizə aparıb. Bu gün Əlincə qalası Naxçıvanın milli qürurunun simvoluna çevrilib.

Naxçıvan təkcə tarixi abidələri ilə yox, həm də bənzərsiz təbiəti ilə insanı valeh edir. Burada dağlar sanki tarixə şahidlik edən sükut qüllələridir. Naxçıvanın rəmzlərindən birinə çevrilən Haçadağ... İkizirvəli bu dağ sanki qədim əjdahanın qılınc kimi parlayan silueti kimidir. Haçadağ həm əfsanələrlə, həm də qədim inanclarla bağlıdır.

Ayna kimi təsviri ilə ecazkar mənzərəsini əks etdirən Batabat gölü, bir qrup insana güman yeri, sığınacaq olmuş qədim Əshabi-Kəhf qayalıqları...

Keçmişə sadiq qalaraq gələcəyə addımlayan Naxçıvan bu gün də Azərbaycanın ən inkişaf etmiş bölgələrindən biridir. Enerji sahəsində qazandığı uğurlar, “yaşıl enerji” layihələri, müasir şəhərsalma prosesi bu torpağı daha da gözəlləşdirir.

101 il tarix üçün qısa bir zaman kəsiyi olsa da, Naxçıvan bu illər ərzində dəfələrlə sübut etdi ki, o, mübarizə, inkişaf və qürur torpağıdır. O təkcə Azərbaycanın deyil, bütün Türk dünyasının bir mirasıdır.

Muxtariyyətin 101-ci ilində biz yalnız bu torpağın keçmişini deyil, gələcəyini də düşünürük. Çünki Naxçıvan yalnız daşlardan və binalardan ibarət deyil, o, ruhu, tarixi və gələcəyi ilə yaşayan bir Vətəndir.

Və bu Vətən əsrlər boyu var olacaq...

***Rafiq TƏHMƏZ***
***Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***

# SÖZ-SƏNƏT DÜNYASININ FATEHİ

*Sirr tək gəldim dünyaya,*
*Sirr tək çıxıb gedirəm.*
*Cismim torpaq tək ölü,*
*Ruhum ilə diriyəm.*

-deyən Xanəli Kərimli söz-sənət dünyamızın fatehlərindən biridir. Milli ziyalılıq, mənəvi bütövlük, halallıq, təmiz ad, zəhmət, istedad, yüksək insani keyfiyyət, məğrurluq, haqq yolçusu olmaq onun həyat tərzidir, bir sözlə, o, ehtişamlı şairdir. Şairin dediyi kimi "Şair Tanrı ruhudursa, söz də şairin ruhudur". Xanəli Kərimli bu ruhla zülmətin bağrını yarmağı, onu qorunda əritməyi bacarır. Bu ruhla o, könlündəki fəzilətləri oxucusu ilə bölüşür. Onlara halalı haramdan, haqqı nahaqdan, şeytanı mələkdən, qürurluğu lovğa və mənəmlikdən ayırmağı və sevməyi məsləhət görür. Ləyaqəti, vüqarı, məsləyi isə özünün əzəli və əbədi yol yoldadaşı hesab edir. Onun sözünün də, avazının da, qanının da rəngi od rəngidir. Vətən onun daxilində püskürən nurla güc alır, vətən onun şeirlərində ucalır desək, yanılmarıq. Çünki Xanəli Kərimli qəlbi vətən üçün daim yanan, alovlanan, misraları ilə döyüşən bir şairdir. O, "sözünün, qələminin və dözümünün şəhidi" olmağı ilə qürür duyur və yazır:

*Mənim dostum, qardaşım şəhidləşib ucalıb,*
*Cəsədi torpaq altda, ruhu haqdan güc alıb.*
*Mən hələ qələmimin, sözümün, şəhidiyəm,*
*Düşmən əhatəsində dözümün şəhidiyəm.*
*Bu torpağın rəngi var, mənim tale yazımda,*
*Onunçün od rənglidir, sözüm də, avazım da.*

Bəli, kim Xanəli Kərimlini oxusa, qəlbinin dərinliklərinə nüfus etsə, onun ilhamından doğan hisslərin, misraların insanı necə ağuşuna alıb ovsunladığının şahidi olar. Bu duyğulara şairin qələmə aldığı təbiət şeirlərində daha çox rast gəlirik. Şairin könül dünyasına səyahət etdikcə onun qəlbimizə təravət gətirən misralarının sehrinə düşür, özümüzü bu gözəl təbiətin qoynunda hiss edirik. "Payız duyğuları" şeirində onun təbiətə vurduğu naxışların sehrindən çıxa bilmirik. Şair "Payız duyğuları" şeirində yazır:

*Təbiət könülsüz köçən qız kimi,*
*Qəlbin ilk eşqini ata bilməyir.*
*Təpədən-dırnağa qızıllaşsa da,*
*Uyuyub payızla yata bilməyir.*

*Yığılıb meşədən əl-ayaq izi,*
*Ocaq daşları da qırovlaşıbdı.*
*Dünya yola salan qoca palıdın,*
*Gözü yolda qalıb, tənhalaşıbdı.*

Şairin vurğunu olan dostuna həsr etdiy "Bir yaz duyğusu" şeiri də oxucu qəlbini vəcdə gətirir, onu baharın ecazkar mənzərəsini seyr etməyə çağırır. Şeirin qısa məzmunu belədir: Yurdumuza bahar gəlib. Quşlar daş üstünə, kol qanadına qonub çırpınırlar. Lalə, nərgiz, dağ çiçəkləri hər tərəfi öz naxışıyla bəzəyib. Belə vaxtda dodağı süd qoxan körpə bulaqlar da yavaş-yavaş dil düyününü açır. Təbiətin bu əsrarəngiz gözəlliyi insanı heyran edir:

*Gah duman çəkilir, gah yağış yağır,*
*Günəş də arabir oxşayır yeri.*
*Al-əlvan rəngilə göy qurşağı da,*
*Bürüyür şəfəqə süslü çölləri.*
*Bənövşə sığınıb kolun dibinə,*
*Şehli baxışlarla yol çəkir gözü.*
*Bir vüsal eşqilə alışıb yanır,*
*Məst edib ətrilə çəməni, düzü.*

Xanəli Kərimlinin "Altmış il", "Bir canda qoruyaq", "Nə göyərdi, nə ağardı", "Dünyaya" adlı şeirlərini oxuyanda onun həyat fəlsəfəsinin nə qədər böyük və zəngin olmasına heyranlığını gizlədə bilmirsən. Şair bu poetik deyimlərində oxucusunu enişli-yoxuşlu, acılı-şirinli, yazı payız, payızı qış olan dünyanın hər üzü ilə tanış etməyə çalışır. İstəyir ki, dərə keçib, dağlar aşan, diz yoran, dişi, dırnağı ilə yuva salıb, yurd quran insanların sabaha saldığı cığır, iz heç zaman toza-torpağa dönməsin. Ömrünü haqq üçün girov qoyan insanlar bu dünyadan izsiz-əsərsiz köçməsin. Yaşadığı illər qəcimədaş oyununa dönməsin, arzuları daşa bükülüb bələnməsin. Kirpiyi ilə odluqdan od götürən, qaranlıqdan pay ummamağa şairin bu fani dünyaya cavabı da məntiqsiz qalmır:

*Onunçün mənimlə düz yola get, sən,*
*Bilmirəm nəyimiz şərikdir axı?!*
*Sən mənsən, mən sənəm-bir canıq elə,*
*Bir canda qoruyaq gələn sabahı.*

Dərdin böyüyünü, zamanın yükünü özü ilə haqq dünyaya aparan Mirzə Cəlilə həsr etdiyi "Heykələ Xitab", xalqının əhli qələmi və ələmi olan, kədərini, dərdini çəkən, iblisi xudpəsənd insanların könlündə axtaran bəşər şairi Hüseyn Cavid haqqında yazdığı "Cavid Əfəndi", Hüseyn Cavidin əbədiyyət sirdaşı olan qızı Turan xanım haqqında nəzmə çəkdiyi "Yüksəl", ustad Şəhriyarla bağlı qələmə aldığı "Aparmağa", "Toğluqayanın Savalana məktubu" adlı şeirlərində vətənpərvərlik, vətəndaşlıq duyğuları, torpağa, elə məhəbbət, qan qoxuyan zamanın ağrı-acılarına mətanətlə, dözümlə sinə gərmək kimi kövrəldici hisslər oxucusuna çox mətləbləri açır. Şair xalqının yolunda sönməz məşələ dönən, illərlə qapıları bağlı qalan, haqqa qovuşmaq üçün həyatını, ömrünü tanrının dərgahına bağışlayan, öz içindən yeyilən, güllələnən, əriyən, böhtanlara məruz qalan, xalqının keçmişini, dünənini özünə tanıtdıran bu məğrur simalarla öyünməyi və onları oxucularına da danışmağı özünün vətəndaşlıq borcu hesab edir. Bu simalara-dahilərə, fatehlərə özünün hörmət və ehtiramını bildirir, "Cavid Əfəndi" adlı şeirində yazır.

*Bəlkə də bu vətənin,*
*Satılmış torpaqları.*
*O keçmiş xoş çağları,*
*Qayıdacaq nə vaxtsa.*
*Satılmış vicdanımız,*
*Şərəfimiz, şanımız.*
*Satılmış əxlaqımız,*
*Qayıtmayacaq.*
*Füzulilərə,*
*Sabirlərə,*
*Cavidlərə,*
*Ruhları təhqir olmuş*
*O bədbəxt dahilərə*
*Hörmət, ehtiram yoxsa!!*

Xanəli Kərimli də istəklərini bu dahilərin, söz fatehlərinin arzu və istəklərinin sırasında görür. Onların arzu və istəklərinin haqqa və həqiqətə qovuşması üçün özündə yenilməz bir güc, bir həmdəm axtarır. O bu gücü ustad şairimiz Şəhriyara həsr etdiyi "Aparmağa" adlı şeirində tapır:

*Xanəli köksündə min bir yara var,*
*Dərman üçün nə təbib, nə də yara var.*
*Sənin dərdinə bircə çarə var*
*Şəhriyar "ruhunu" vur aparmağa.*

Bəli, Xanəli Kərimli həyatda olduğu kimi, şeirlərində də ciddidir. O, az sözlə çox mətləblər ifadə etməyi bacarır. Şeirlərində axıcılıq, obrazlılıq, məzmun dərinliyi oxucusunu razı salır, həyəcanlandırır. Əsərdəki ideyanı mənimsəməyə məcbur edir. Misraları səmimidir, iştah açan duz kimidir. Şair yaxşı bilir ki, bu fani dünyada hər şey gəldi-gedərdi. Söz isə qalandır. Çünki yaxşı söz qızıldan da qiymətlidir. Elə isə şairi oxumağa, bu qiymətli sərvəti yığmağa tələsin!

**_Çingiz Süleymanov_**
**_NDU İqtisadiyyat və idarəetmə fakültəsi,_**
**_"Mühasibat və maliyyə" kafedrasının müəllimi_**
**_Rövşən Hüseynov_**
**_Naxçıvan Mətbuat Şurasının sədri_**

# "Filologiya – O qızın seçimi deyil, taleyidir"

Bəzən həyat səni bir yerə aparır. Elə aparır ki, nə düşünürsən, nə tərəddüd edirsən, sadəcə gedirsən. Hara getdiyini bilmədən, amma içində dərin bir əminliklə… O qız üçün filologiya belə bir yol oldu-seçmədiyi, amma içində yaşatdığı, hər addımında özü ilə daşıdığı bir tale.

O qız heç vaxt "filoloq olacağam" deyə böyümədi. Onun uşaqlığı sözlərin ətrafında dövrə vurmurdu, amma sözlər daim onunla idilər. O, nənəsinin nağıllarında, atası səhər-səhər qəzet oxuyanda, anası çörək bişirərkən pıçıltı ilə oxuduğu mahnılarda böyüyürdü. O sözlər o qız üçün sadəcə ifadə deyildi, o sözlər sığınacaq idi. Elə buna görə də bir gün dönüb baxanda anladı ki, onun hekayəsi də belə başlayır: həyatın gətirdiyi yolların birində, seçmədiyi, amma onu seçən bir yolda-filologiyada.

Filologiya bəziləri üçün sadəcə bir ixtisas, bir diplomun adı ola bilər. Amma o qız üçün bu sözlərdən daha böyük bir anlam daşıyırdı. Filologiya-yaddaşın elmi, ruhun incəliyidir. Burada yalnız sözlər deyil, zaman danışır, burada hər bir sətirdə bir insanın nəfəsi, bir xalqın taleyi yatır.

Filoloq olmaq, dilin qrammatik quruluşunu əzbərləmək deyil. Filoloq olmaq - bir xalqın danışıq tərzində onun ağrılarını oxumaq, bir şairin misrasında min illik bir dərdi duya bilməkdir. Filologiya - sözlərin içində susan duyğulara qulaq asmaqdır. Və o qız bu səssizliyi duyurdu. O, bir sözdə on min anlam görür, bir misrada bir ömür yaşayırdı. Universitetin darısqal dəhlizləri, tozlu kitab rəfləri, qələm-kağız səsləri o qıza doğma gəlirdi. Ədəbi nəzəriyyələr, dilin fonetik qanunları, leksik analizlər onun üçün çətin məsələlər yox, tanış simalar idi. Çünki o, bunları dərsliklərdən deyil, içindən oxuyurdu.

Məsələn, o, Nizaminin bir beytində məntiqin sükutla necə işlədiyini anlayırdı. Füzulinin bir qəzəlində təkcə eşqi yox, həm də fəlsəfi bir möhtəşəmliyi görürdü. Və ya dilin sintaktik quruluşunu araşdırarkən, bir millətin düşüncə tərzinin necə formalaşdığını kəşf edirdi. O, Füzulinin misralarında doğuldu. Əvvəlcə yanmaq nə deməkdi, bilmirdi. Amma "Məni candan usandırdı"nı oxuyanda içində alışıb yanan bir səs eşitdi. Anladı ki, eşq təkcə sevgi deyil, insanın öz ruhuna yandığı yerdir. Sonra Cəlil Məmmədquluzadənin "Poçt qutusu"nu gördü. Orada məktub yox idi-sükut vardı. Və o sükutda bir xalqın susdurulmuş səsi, yazılmamış məktubların acısı gizlənmişdi. O, bu qutunun qarşısında dayandı. Əlindəki sualları içəri atdı, cavab gəlməyəcəyini bilə-bilə… Bir gün Hüseyn Cavidin "İblis"i ilə qarşılaşdı. İblis ona insanı göstərdi. İnsan da ona güzgü uzatdı. O güzgüdə özünü tanımadı. Və o gün başa düşdü ki, ədəbiyyat insanın içində gizlətdiyi qorxularla üz-üzə qalmaq cəsarətidir. Sabirin kinayələrində öz gündəliklərini tapdı. Hər bir satirada gülümsədi, sonra için-için ağladı. Çünki Sabir gülərək deyirdi, amma ağlayaraq yazırdı. Anarın "Beşmərtəbəli evində" yer axtardı. Altıncı mərtəbədə dayandı. Orada nə masa vardı, nə də divar saatı. Sadəcə səssizlik vardı. Və bu səssizlikdə o, özünün çoxdan danışmadığı bir cümləni eşitdi: "Sən harada unuduldun?"

Və bir gün Məmməd Arazın misralarına kökləndi orada Vətənin dağ nəfəsi vardı, ana laylası vardı, elobaya həsrət vardı. Yaz yağışı kimi içini isidən, səssizsəmirsiz köksündə yaşadığı bir vətən duyğusu vardı.

Vaqif Bayatlının yollarında addımladı. Amma bu yollar qıvrıla-qıvrıla yaddaşına dönürdü. Hər döngədə bir səs, bir qoxu, bir uşaq gülüşü vardı. Şeirlərdə yazılmış, amma deyilməmiş illərin izi…

Mikayıl Müşfiqin işıqlı misralarında azadlıq axtardı. Hər kəlmənin üstündə bir kölgə vardı. Amma bu kölgələr belə günəşdən qorunmurdu-qorxudan gəlirdi. İsi Məlikzadənin hekayələrində öz həyatına rast gəldi. Sadə, gündəlik, heç kimlik. Amma elə o "heç kimlik"də insanın bütün varlığı vardı. O, sətirlərdən keçdikcə, bir kəndin içindən keçirmiş kimi tozlanırdı. Əli Kərimin şeirlərində danışmadı, sadəcə dinlədi. Çünki bəzi şeirlər var, oxunmaq üçün deyil, hiss edilmək üçündür. Və o bu hissi susaraq yaşadı. Sonda Baxtiyar Vahabzadənin "Ana dili"nə sarıldı. O dillə böyümüşdü, o dillə sevilmişdi, amma o dilin ağladığını ilk dəfə burada eşitdi. Və başa düşdü ki, ana dili sadəcə ünsiyyət vasitəsi deyil, bir millətin qürurudur, kimliyidir, yurdudur. O, Azərbaycan ədəbiyyatının içindən keçdi, oxucu kimi yox, yolçu kimi. Hər müəllif bir dayanacaq oldu, hər kitab bir ev, hər misra bir nəfəs. Və o, bu yolun sonunda anladı…ədəbiyyat sadəcə yazılmır, ədəbiyyat yaşayır. İçimizdə, hər gün, hər kəsdə.

O qız klassiklərlə nəfəs alır, amma müasir dövrlə də dialoqdadır. O, hər bir yeni anlayışı keçmişin işığında, hər bir qədim mətni gələcəyin mənəvi havasında oxumağı bacarır. Məhz bu yanaşması ilə o, "Canlı Filologiya" deyilən yeni bir anlayışın təcəssümünə çevrilir. O qız filologiyanı sadəcə öyrənmir, onu yaşayır. O, bir kəlmənin dəyişməsi ilə insanların taleyinin necə dəyişdiyini anlayır. Bir mahnının sözlərində sevgi, bir atalar sözündə həyat fəlsəfəsi görür. Onun üçün "dil" bir alət deyil, bir həyat formasıdır. Və bu həyat formasını qorumaq, inkişaf etdirmək o qızın varlıq səbəblərindən birinə çevrilib.

O qız kimi filoloqlar bəzən görünməz qalırlar. Onların işığı sinif otaqlarının divarları arasında, kitab vərəqlərində, məqalə səhifələrində gizlənir. Amma bu işıq təkcə kağızda yanmır. O, xalqın ruhunu işıqlandırır. Dilə sahib çıxmaq, sözə dəyər vermək, tarixə, milli kimliyə sahib çıxmaq deməkdir. Və bu müqəddəs vəzifə o qız üçün peşə yox, taledir. Filologiya qəlbin elmlə rəqsidir. O qız bu rəqsi seçmədi, bu rəqs onu çağırdı. Və o, cavab verdi səssizcə, sadəcə bir sözlə: "Mən buradayam..."

Doğrudan, sən buradasanmı?

**_Telli Həsənova_**
**_Filologiya ixtisası üzrə II kurs tələbəsi,_**
**_"Gənc Yazarlar və Ədəbiyyatşünaslar" klubunun üzvü_**

# “DAŞLARI DANIŞDIRAN ALİM”

“Tariximiz yaddaşımızdır”, -deyib atalarımız. Hər bir xalqın tarixi onun dünəninin, bu gününün və sabahının göstəricisi, bu millətin qədimliyini təsdiqləyən amillərdən biridir. Xalqımızın qədimliyini sübut edən tarixi abidələr daş kitabələr bizim and yerimiz, qürur mənbəyimizdir.

Hələ lap qədimdən bu günədək Azərbaycan tarixi dünya şöhrətli tarixçilər, arxeoloqlar tərəfindən araşdırılmış, qorunub saxlanılmış və bu günkü nəslə ərmağan edilmişdir. Bu insanlar tarixi tədqiq etdikcə, araşdırdıqca özləri də tarixin yaddaşına yazılıb, tarix yazan şəxsiyyətlərə çevrilmişlər. Hər hansı bir insan üçün adi görünən daş fiqurlar, qəbirüstü abidələr, saxsı parçaları bu insanların illərlə çəkdiyi zəhmət hesabına sənət əsərlərinə çevrilmişlər. Onlar həyatlarını bu çətin və şərəfli işə həsr ediblər.

Əziz oxucular bu gün biz araşdırdığı tarix qədər böyük, oxuduğu daş kitabələr qədər möhkəm, iradəli, mübariz, qətiyyətli, ciddi, səmimi, təvazökar bir alimdən söz açmaq istəyirik. Səfərli Fəxrəddin Yəhya oğlu...

Heç bir xüsusi təqdimata ehtiyacı olmayan, demək olar ki, onu tanıyanların hər biri tərəfindən sevilən, özü hər tərəfli biliyi, yüksək əxlaqi və insani keyfiyyətləri ilə hər kəsin hörmətini qazanan Fəxrəddin müəllim. Bu ad muxtar respublikada demək olar ki, hamıya, ələlxüsus ziyalı təbəqəyə çox yaxşı tanışdır. Onu tanıyanlar Fəxrəddin müəllimin gözəl tarixçi alim olmaqla yanaşı, təvazökar insan və gözəl pedaqoq olduğunu xüsusi vurğulayırlar.

1949-cu ildə Babək rayonunun Cəhri kəndində muxtar respublikada sayılıb seçilən, hər zaman yüksək vəzifələrdə işləmiş Yəhya kişinin ailəsində bir oğlan uşağı dünyaya gəldi.

**Haşiyə:** Yəhya kişi yaşadığı dövrdə muxtar respublikada ən tanınmış insanlardan olmuşdur. O, Böyük Vətən Müharibəsi dövründə öz istəyi ilə arxa cəbhədə qalmış, əmək fəaliyyəti ilə məşğul olmuşdur. Yəhya Səfərov vətənini, millətini sevən təmiz, ləyaqətli bir vətəndaş olmuşdur. O, uzun illər yüksək vəzifələrdə çalışmışdır. Göstərdiyi əmək fəaliyyəti, çalışdığı vəzifələrdə qazandığı uğurlar dövlət tərəfindən yüksək qiymətləndirilmiş, orden və medallarla təltif edilmiş, “Qırmızı əmək bayrağı” ordeni ilə təltif olummuş, Naxçıvan MSSR Ali Sovetinin deputatı seçilmişdir.

Bu oğlan uşağına valideynləri M.S.Ordubadinin “Qılınc və qələm” romanının qəhrəmanı Fəxrəddinin adını verdilər. O zaman heç kimin ağlına belə gəlməzdi ki, bu uşaq gələcəkdə öz seçdiyi sahədə M.S.Ordubadinin qəhrəmanı Fəxrəddin kimi bir şəxsiyyət olacaq və öz əməlləri ilə tarixə düşəcəkdir.

Fəxrəddin məktəbə elə Cəhri kəndində, Səriyyə xanımın sinfində dərsə başladı. Elə ilk illərdə onun elmə olan marağı özünü büruzə verir. Fəxrəddin müəllim məktəbdə oxuduğu illərdə fənnlər arasında heç vaxt seçim etməyib, bütün dərsləri eyni səviyyədə oxuyurdu.

Son illərdə artıq o öz yolunu müəyyənləşdirməli idi. Hansı ixtisası seçməli? Fəxrəddin müəllim bu zaman demək olar ki, həyatında ilk dəfə olaraq canı qədər sevdiyi valideynlərinin istəyini qəbul etmədi. Anası Zərifə xanım oğlunun həkim-terapevt olmasını istəyirdi. Lakin oğlunun xarekterinə bələd olan və hər zaman onun istək və arzuları ilə razılaşan valideynləri bu seçimi onun öz ixtiyarına buraxdılar. Onu da qeyd etmək istəyirəm ki, Zərifə xanım orta təhsilli maarifpərvər bir qadın idi. O, ali təhsil almağın, elmin arxasınca getməyin tərəfdarı olmuş və bu yolda oğluna, nəvələrinə də dəstək olmuşdur.

Beləliklə, Naxçıvanda APİ-nin filialı açıldı. Elə həmin il Fəxrəddin müəllim bu ali təhsil ocağına, tarix fakültəsinə daxil oldu.

Fəxrəddin müəllimlə birgə bu illərdə NDU-da təhsil alan tələbələr bu gün Azərbaycan elminə qiymətli töhfələr bəxş edən şəxsiyyətlərdir. Bu şəxslərdən akademik İ.Həbibbəyli, Q.Qədirzadə, H.Cəfərov, H.Abdullayevanın adlarını çəkmək olar.

Universitetdə oxuduğu zaman Fəxrəddin müəllim həm qrup yoldaşlarının, həm də müəllimlərinin çox hörmət etdiyi bir tələbə oldu. Tələbə yoldaşları onun haqqında danışarkən Fəxrəddin müəllimin çox ağır təbiətli, ciddi, təmkinli olmasını, onun gözəl nitq qabiliyyətinə, danışıq mədəniyyətinə, hərtərəfli dünya görüşünə malik olmasını xüsusi vurğulayırlar.

Universiteti bitirdikdən sonra hərbi xidmətə gedən Fəxrəddin müəllim geri qayıtdıqdan sonra pedoqoji fəaliyyətə başlayır. Tez bir zamanda şagirdlərin sevimli müəllimi olur. Onun dərs dediyi bu illər ərzində yetişdirdiyi tələbələr müxtəlif ixtisaslara yiyələnib, müxtəlif vəzifələrdə çalışırlar. Onlar bu gün də öz müəllimləri ilə əlaqə saxlayır.

Qeyd etdiyimiz kimi, Fəxrəddin müəllim ağır xarekterli, səmimi, daha doğrusu ciddi səmimi bir insandır. Lakin bu sadə və təvazökar insanı yaxından tanıyanlar bilirlər ki, Fəxrəddin müəllimin çox güclü yumor hissi var və dərs dediyi tələbələrlə hər görüşündə onun şən, səmimi zarafatları yada salınır, xatırlanır.

Fəxrəddin müəllim 1979-cu ilədək Cəhri kənd orta məktəbində müəllim kimi fəaliyyət göstərib. 1979-cu ildə Naxçıvan Regional Elm Mərkəzində (indiki AMEA Naxçıvan bölməsi) kiçik elmi işçi kimi fəaliyyətə başlayır. Burada çalışdığı illər demək olar ki, Fəxrəddin müəllimin həyatının dönüş nöqtəsi və ən çətin vaxtları oldu. Muxtar respublikanın müxtəlif bölgələrində aparılan arxeoloji qazıntılar, kitabələr üzərində ərəb, fars və əski əlifba ilə yazılmış yazıları oxumaq sözün əsl mənasında çox çətin və əziyyətli idi. Bəzən elmi işlə əlaqədar olaraq uzun müddətə Bakı şəhərində yaşamalı olurdu. Lakin bütün çətinliklər onu bu yoldan döndərə bilmədi.

Nəhayət, 1987-ci ildə “Naxçıvan MSSR-in ərəb-fars dilli kitabələri tarixi-mədəniyyət abidələri kimi (XVI-XIX əsrlər)” mövzusunda dissertasiya müdafiə edərək tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi qazandı. Müdafiə çox uğurla keçdi. Müdafiədə iştirak edən Azərbaycan tarix elminin korifeylərindən olan akademik Ziya Bünyadovun gənc alimin müdafiəsi haqqında söylədiyi fikir bu dissertasiyanın hansı səviyyədə olduğunu göstərirdi.

1995-ci ildən Fəxrəddin müəllim yenidən NDU-da pedaqoji fəaliyyətə başladı. O, burada baş müəllim, dosent, professor, eyni zamanda 2002-2007-ci illərdə HİK sədri vəzifəsində işləmişdir. Bu illərdə Fəxrəddin müəllimin yetişdirdiyi tələbələr hal-hazırda respublikada öz müəllimlərinin yolunu layiqli şəkildə davam etdirirlər. Bu tələbələrdən Elbrus İsayev, Qadir Əkbərov, Sara Hacıyeva, İlhami Əliyevin adlarını çəkmək olar

NDU-da işlədiyi zaman alim pedaqoji fəaliyyətlə yanaşı, elmi işlərlə də məşğul olurdu. Onun müxtəlif qəzet və jurnallarda dərc olunan məqalələri demək olar ki, yüzlərlədir.

2004-cü ildə bu axtarışlar, araşdırmalar Fəxrəddin müəllim “Naxçıvanda sosial-siyasi və ideoloji mərkəzlər” mövzusunda doktorluq dissertasiyasının yaranmasına gətirib çıxardı. Müdafiə NDU-da oldu və çox əlamətdar bir günlə üst-üstə düşdü. Həmin gün NDU-nun təməlini qoyan, görkəmli alim, gözəl insan, pedaqoq, Fəxrəddin müəllimin sevimli müəllimi olmuş Əli Əliyevin yubiley tədbiri keçirilirdi.

Müdafiədə Azərbaycan tarix elminin aparıcı simaları, korifeyləri: Y.Mahmudov, İ.Məmmədov, Y.Seyidov, İ.Hacıyev, V.Piriyev və başqaları iştirak edirdilər. Müdafiə çox uğurla keçdi. Dissertasiya hər kəs üçün maraqlı bir mövzu üzərində qurulmuşdu. Orta əsrlərdə Naxçıvanda müsəlman ruhaniliyinin yaranması və fəaliyyət dairəsi, görkəmli din xadimləri, ruhani alimlər haqqında, məscidlər və mədrəsələr maarif-təhsil mərkəzləri kimi, orta əsrlərdə məscidlərin ibadət, zikr və təhsil yeri olmaqla yanaşı, digər funksiyası haqqında məlumat verilir. Bundan başqa Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq Naxçıvan bölgəsində sufiliklə bağlı məsələlər, bu təriqətin mənşəyi, təşəkkülü, yayılması, sufiliklə bağlı mərkəzlər, xanəgahlar, imamzadələr, ziyarətgahlar haqqında araşdırmalar Fəxrəddin müəllimin doktorluq dissertasiyasında açıqlanır (sonralar bu mövzu 2003-cü ildə “Elm” nəşriyyatında kitab şəklində çap olundu və əsərin yazılmasında istifadə olunmuş epiqrafik abidələrin-kitabələrin qrafik təsvirlərdən ibarət albom kitaba əlavə edilmişdir).

Fəxrəddin müəllim elmi tədqiqatlar aparmaqla yanaşı, millətinin maariflənməsi, gənc nəslin öz tarixindən xəbərdar olması, bu tarixin qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsində əsl bir vətəndaş kimi çalışır.

Alimin yazdığı bütün məqalələr, monoqrafiyalar və kitablar bu ideya, bu məqsəd üzərində qurulmuşdur. Bu baxımdan alimin Naxçıvandakı müqəddəs yerlər, ziyarətgahlar haqqında yazdığı “Naxçıvan ziyarətgahları” adlı kitabı xüsusi əhəmiyyət kəsb edir. Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş və maraqla qarşılanmışdır. Alim bu kitabında Naxçıvan bölgəsində mövcud olan pirlər, ziyarətgahlar haqqında, bu müqəddəs yerlərin tarixi, buradakı qəbirüstü abidələrdəki yazılar haqqında oxucuya geniş məlumat verir. Burada yazılı məlumatla yanaşı ziyarətgahların və oradakı kitabələrin foto şəkilləri də dərc olunmuşdur.

Qeyd etmək istəyirəm ki, Fəxrəddin müəllim bu kitabı yazmaqla sanki öz elm rəhbəri, sevimli müəllimi, Azərbaycan tarixini bütün dünyada təbliğ edən görkəmli alim, akademik M.Nemətin “Azərbaycanda pirlər” adlı kitabından sonra ərsəyə gələn “Naxçıvan ziyarətgahları” kitabı muxtar respublikadakı ziyarətgahların öyrənilməsində çox dəyərli bir töhfə oldu.

Fəxrəddin müəllimin araşdırmalarında əsas yerlərdən birini Naxçıvan bölgəsində yerləşən “Əshabi-Kəhf” ziyarətgahı haqqında yazdığı “Duaların Tanrıya çatdığı yer - Əshabi Kəhf” adlı kitabı tutur. Alim bu kitabını “Qurani-Kərimə” və apardığı tədqiqatlara əsaslanaraq ərsəyə gətirmişdir. Əsər “Əshabi-Kəhfin” yalnız Azərbaycanda deyil, dünya miqyasında tanınmasında böyük rol oynayır və xaricdən buraya gələn qonaqlar üçün əyani vəsait və bələdçidir. Kitabda ziyarətgahda yerləşən məscid, məscidin qarşısındakı “qara daş”, “damcıxana”, “cənnət bağı”, “7 kimsənə” adlanan yerlər haqqında oxucuya geniş məlumat verilir.

Qeyd etmək istəyirəm ki, alimin yazdığı kitablar maarifləndirməklə yanaşı, həm də dərslik xarakteri daşıyırlar.

2010-cu ildə Fəxrəddin müəllimin “Epiqrafika” adlı dərs vəsaiti Azərbaycan Respublikası Təhsil Nazirliyinin 08.07.2010-cu il tarixli, 1054 saylı əmri ilə dərs vəsaiti kimi təsdiq olunmuşdur. Bu kitabda tarixin köməkçi elmlərindən olan Epiqrafika və onun əsas sahələrindən olan müsəlman epiqrafikası haqqında ümumi məlumat verilir, müsəlman epiqrafikasının tərkib hissəsi kimi Azərbaycan, o cümlədən qədim mədəniyyət mərkəzlərindən olan Naxçıvan bölgəsinin epiqrafik abidələrindən bəhs edilir. Vəsait ali məktəblərin bakalavr pilləsinin tələbələri üçün dərslik kimi nəzərdə tutulur.

Fəxrəddin müəllim həyatının demək olar ki, çox hissəsini (əsasən gənclik dövrünü) bölgələrdə apardığı tədqiqatlara, araşdırmalara həsr etmişdir. Muxtar respublikada elə bir tarixi yer tapılmaz ki, burada alimin imzası, bu abidəyə aid özünəməxsus fikri, araşdırması olmasın. Onun bölgələrdəki tarixi abidələr haqqında yazdığı kitablar, buradakı abidələrin tarixinin öyrənilməsində mühüm rol oynayır. Mübaliğəsiz demək olar ki, bu kitablar muxtar respublika tarixinə bəxş olunan qiymətli xəzinədir. Çünki bu əsərlərdən ali məktəblərin tarix fakültəsinin tələbələri, aspirant və magistrləri həm yerli, həm də muxtar respublikaya gələn əcnəbi tarixçilər üçün çox qiymətli və səmərəli bir əyani vəsaitdir.

Alimin “Culfa şəhərinin epiqrafik abidələri” kitabında bu ərazidə indiyədək qalan müsəlman kitabələrinin təqdim etdiyi faktların Azərbaycanın orta əsrlər dövrü tarix və mədəniyyətinin öyrənilməsi üçün əhəmiyyətdən bəhs etmişdir. Bundan başqa, “Ordubad şəhərinin müsəlman epiqrafikası abidələri” kitabı muxtar respublikanın incisi sayılan, qədim tarixə malik Ordubad şəhərində qeydə alınmış XIV-XX əsrlərə aid müsəlman kitabələrinin tədqiqinə həsr olunmuşdur. Əsərdə bu şəhərin tarixinə nəzər salınmış, epiqrafik abidələrin Azərbaycanın orta əsrlər dövrü tarix və mədəniyyətinin müxtəlif problemlərinin öyrənilməsində əhəmiyyəti açıqlanmış 176 ədəd kitabə haqqında ümumi məlumat verilmişdir. Fəxrəddin müəllim yazdığı monoqrafiyalarda da öz aktuallığı ilə diqqəti cəlb edirdi. Alimin “Heydər Əliyev irsi-əbədi yaşar təlim” adlı monoqrafiyası H.Əliyev irsinin və Naxçıvan Muxtar Respublikasının tarix və mədəniyyətinin tədqiqi ilə məşğul olan tədqiqatçılar, magistrlər, doktorantların faydalana biləcəyi bir əsərdir.

Kitabda xalqımızın Ümummilli Lideri Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif məqamlarından bəhs edilir. Həmçinin əsərdə muxtariyyət ərəfəsində Naxçıvanda ictimai-siyasi vəziyyət, bu zaman bölgənin erməni işğalından qorunmasında əhalinin rolu, Zəngəzurun Ermənistana verilməsi ilə Naxçıvanın blokadasının başlanması, ərazinin tarixi coğrafiyası, milli dəyərlərimiz və s. məsələlər şərh olunur.

Qeyd etmək istəyirəm ki, Fəxrəddin müəllim yuxarıda qeyd etdiklərimizdən əlavə iki cildlik “Naxçıvan Ensiklopediyasının”, Azərbaycan və ingilis dillərində nəşr olunmuş “Naxçıvan abidələri ensiklopediyası” və “Naxçıvan tarixi atlası”nın əsas müəlliflərindən biridir. Tədqiqatçı alim bir sıra beynəlxalq və respublika miqyaslı simpoziumların, konfransların iştirakçısı və AMEA Naxçıvan Bölməsində fəaliyyət göstərən Dissertasiya şurasının sədr müavinidir. IV və V çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Ali Məclisin “Hüquq siyasəti və dövlət quruculuğu məsələləri komitəsi”nin sədridir.

Əziz oxucular, yuxarıda qeyd etdiyimiz kimi Fəxrəddin müəllimin çox hissəsi tədqiqatlarda, araşdırmalarda keçmişdir. O, bu günədək həm pedaqoji fəaliyyətində, həm də bir alim kimi böyük uğurlar qazanmışdır. Alimin tarix elminin öyrənilməsi yolunda göstərdiyi xidmətlər dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. O, 20-ci illərdə “İlin alimi” fəxri adı ilə, 2013-cü ildə Naxçıvan Ali Məclisinin sədri tərəfindən “Qızıl medal”la təltif olunmuşdur. Bu il Fəxrəddin müəllim qədim kitabı üçün Ali Məclis sədri tərəfindən mükafatlandırıldı. Noyabr ayında isə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev tərəfindən “Əməkdar elm xadimi” fəxri adı ilə mükafatlandırıldı.

Fəxrəddin müəllim bu gün də çalışır, elmi işlərlə məşğul olur, yeni kitablar, monoqrafiyalar üzərində işləyir, həmçinin gənc aspirantlara rəhbərlik edir. Alim öz xalqının tarixinin öyrənilməsində, qorunub saxlanılmasında, təbliğ olunmasında ləyaqətli, vicdanlı bir vətəndaş kimi fəaliyyət göstərir.

Ömrünün 40 ilini bu işə həsr edən bu insan daşları, saxsı parçalarını oxuya-oxuya, daş kitabələri danışdıra-danışdıra özü də hiss etmədən bu sənət əsərləri kimi tarixin yaddaşına yazılıb və yaşayan bir tarixə çevrilmişdir.

Bu məqalə Fəxrəddin müəllimin həyat yoluna ötəri bir nəzərdir. Onun ömür yolu zamanla əsl mütəxəssislər tərəfindən araşdırılacaq və neçə-neçə kitabların, monoqrafiyaların, dissertasiyaların mövzusu olacaqdır.

Bəli, Fəxrəddin müəllim, Azərbaycan hərbiçiləri doğma torpağımızı yad işğalçılardan qoruduğu kimi siz də öz sələfləriniz kimi Azərbaycan tarixini bütün dünyada tanıdır və qoruyursuz.

Biz də bu çətin və şərəfli işdə “Daşları danışdıran alim”ə uğurlar arzulayırıq.

***Səfərova Samirə***
***“Musiqi təlimi” kafedrasının müəllimi***

# YAŞILLIQLAR BİZƏ NƏ VERİR?

Yaşıllıqlar deyəndə təsəvvürümüzdə ilk olaraq meşələr canlanır. Meşələr Yer kürəsinin ən qiymətli yerüstü təbii sərvətidir. Canlının funksional sistemlərindən biri tənəffüs sistemidir. Orqanizmimizdə baş verən daxili və xarici tənəffüs üçün oksigen lazımdır. Məhz bu oksigen yaşıllıqlar tərəfindən sintez olunur. Əbəs yerə meşələri "Planetin ağciyərləri" adlandırmamışlar. Meşə ekosistemindəki komponentlər bir-biri ilə sıx əlaqədə olurlar. Məsələn, quşlar meyvə və toxumlarla qidalanaraq onları uzaq məsafəyə yayırlar. Beləliklə, yeni bitkilərin yaranmasına səbəb olurlar. Göbələklər və bakteriyalar məhv olmuş bitkilərin çürüməsində iştirak edərək, mineral maddələrin torpağa qayıtmasında rol oynayır. Bu da maddələr dövranında bitkilərin rolunun nə qədər böyük olduğunu göstərir. Süni şəkildə meşə ekosistemini yaratmaq çox çətindir. Çünki meşənin müxtəlif tərkib hissələri arasında qarşılıqlı əlaqə uzun illər ərzində formalaşır. Araşdırmalara görə 1 hektar meşə 200 nəfərin nəfəs almasını təmin edir, 500 nəfərin nəfəsi ilə yayılan karbon qazını udur. Yaşıllıqlar şəhər havasının təmizlənməsində böyük rol oynayır. Bir hektar iynəyarpaqlı ağac ildə 40 tona, enliyarpaqlı ağaclar isə təxminən 100 tona qədər tozu udur.

Gərgin və yorucu iş günü, səs-küylü şəhər həyatı, bəzən üzləşdiyimiz əsəbi vəziyyət və bir sıra bu kimi amillər insanı tez yorur. Bu yorğunluqdan xilas olmaq, dincəlmək üçün sakit və rahat bir məkan olaraq meşələrə üstünlük veririk. Meşə gəzintiləri həm fiziki, həm də mənəvi dincəlmək üçün çox əhəmiyyətlidir.

İnsan həyatı üçün vacib olan qida, boyaq, balverən, dərman, dekorativ, yem və s. əhəmiyyətli bitkilər yaşıllıqları təşkil edir. Boyaq əhəmiyyətli bitkilərin orqanlarından boyaq məhlulu hazırlanır ki, bundan da ipək, yun və pambıq məmulatlarını rəngləmək üçün istifadə olunur. Murdarca boyaqotu, sarağan, çaytikanı, sumaq, çətənə, dazı, sarı kol, qoz, nar, zirinc, palıd, şabalıd, tut, qızılağac, zəfəran, əvəlik, ətirşah, söyüd, andız, qaraqınıq, yemişan, heyva və s. boyaçılıq sənayesi üçün geniş istifadəsi mümkün olan bitkilərdəndir. Solmaz və davamlı olan narıncı, qırmızı, sarı, qəhvəyi, şabalıdı, qara və s. kimi rənglər xüsusi xalq boyama üsulları nəticəsində alınır. Xalçaçılıq təbii boyaq maddələrinin istifadə olunduğu sənaye sahələrindəndir. Tədqiqatlar süni boyaların insan sağlamlığına mənfi təsirini göstərir. Təbii boyalarla boyanmış iplərdən toxunulmuş xalçalar orqanizmin emosional gücünü artırır. Həmçinin bir sıra xəstəliklərin müalicəsi zamanı həkimlər təbii boyalarla boyanmış iplərdən toxunmuş xalça üzərində gəzməyi məsləhət görür. Bütün bunlardan başqa, bitki mənşəli boyalardan məişətdə - zəfəranı şirniyyatlarda, şərbətlərin hazırlan-masında, dondurmada, sarıkökdən aşların bəzədil-məsində, digər yeməklərin hazırlanmasında istifadə olunur.

Bitkilər insan orqanizmi üçün çox faydalı olan birləşmələrin, o cümlədən təbii antioksidantların ən önəmli qaynağıdır. Meyvə-tərəvəz vitaminlərin mənbəyi olmaqla orqanizmin müxtəlif xəstəliklərə qarşı müqavimətinin artırılmasında zəruridir.

Dərman bitkiləri qədim dövrlərdən bəri xalq təbabətində istifadə edilmişdir. Yunan həkimi Dioskorid (e.ə. təxminən 60-cı il) "*De materia medica*" adlı əsərində çoxlu dərman bitkilərindən istifadə haqqında məlumat vermişdir. Bu gün mətbəximizdə qida



və ədviyyat kimi istifadə etdiyimiz bitkilər qədim dövrlərdə dərman kimi məşhur idi. İsti havalarda daha tez xarab olan ət yeməklərində qidanı bakteriyalardan qorumaq və xarab olmasının qarşısını almaq üçün ədviyyatlardan istifadə olunurdu. Ağlarot, yovşan, dünaotu, xanımotu, dağnanəsi, çobanyastığı, çaytikanı, bağ səhləbi, batbat, çınqılotu, baldırğan, adaçayı, bəlğəmotu, zirə, badam, solmazçiçək kəkliotu, xəndəkotu, boymadərən, dağtərxunu, aloe, dəvədabanı və s. kimi bitkilər dərman əhəmiyyətlidir.

İmmuniteti gücləndirmək üçün vitaminlərlə zəngin qidaları mütəmadi şəkildə qəbul etmək lazımdır. İmmun sisteminin güclü olması orqanizmin xəstəliklərə qarşı davamlılığının göstəricisidir. Yabanı tərəvəz bitkiləri vitamin və minerallarla zəngin olduğu üçün onlardan istifadə (xüsusən də yaz aylarında) orqanizmin vitaminə olan tələbatının ödənilməsində əhəmiyyətlidir. Yabanı tərəvəz bitkiləri müxtəlif - təzə, qurudulmuş, duza qoyulmuş və bişirilmiş şəkildə istifadə olunur. Cincilim, ağımtıl tərə (unnuca, salmanca), tuşməzə (quzuqulağı), əvəlik, qırxbuğum, cacıq, qazayağı, çiriş və s. kimi bitkilərdən şorba, qovurma, buğlama, kükü, qutab, dovğa, salat, göy borş və s. hazırlanır. İspanaq bitkisinin yerüstü hissələri B, C, D, K kimi vitaminlərlə zəngindir. Xüsusən də bitkidə yorğunluğun aradan qalxmasında önəmli olan Mg mineralı var.

Yaşıllıqların heyvandarlıqda da çox faydası vardır. Heyvandarlığın inkişafı yemdən asılıdır. Bir sıra ot bitkiləri həm qiymətli yem, həm də digər faydalı xüsusiyyətlərə malikdir. Belə ki, paxlalılar fəsiləsinə aid olan yem bitkiləri torpağın münbitliyini artırmaq xüsusiyyətinə malikdir. Onların köklərində olan bakteriyalar havanın sərbəst azotunu mənimsəyərək torpağın azotla zənginləşməsinə səbəb olur. Azotla zəngin torpağın da məhsuldarlığı yüksək olur. Bəzi bitkilər (yonca və xaşa) olduğu torpaqda eroziya prosesinin və şoranlaşmanın qarşısının alınmasında əhəmiyyətlidir. Yonca, xaşa və çobantoxmağı müxtəlif növ yem bitkiləri ilə qarışıq halda torpağa səpildikdə otlaqların məhsuldarlığını artırır ki, bu da bitki örtüyünü zənginləşdirir.

Qədim dövrlərdə dekorativ bitkilər qida, ədviyyat və dərman bitkiləri ilə müqayisədə üstünlük təşkil edirdi. Bağlarda əsasən, lalə, zanbaq, qızılgül, qərənfil və pionlar əkilirdi. Şumerlərin dövründən (eramızdan əvvəl 4-cü min il) qalan sarayların xarabalıqlarından məlum olur ki, onlar hələ o vaxtdan bağçılıqla məşğul olmuşlar. Dekorativ bitkilər məkana gözəllik bəxş edərək, qoxuları və qaz çirkləndiricilərini udur, həmçinin yarpaqlarında və qabığında tutaraq havadakı hissəcikləri süzür. Evin ətrafına düzgün qaydada yerləşdirilmiş üç ağac yayda kondisioner ehtiyacını 50% azaldır, oduncağı mebel və digər istehsalat sahələrində əhəmiyyətli vasitədir. Ağaclar ultrabənövşəyi şüalara məruz qalmanı təxminən 50% azaldır ki, bu da dəri xərçənginin qarşısının alınmasında əhəmiyyətlidir. Daha çox yaşıllıq, xüsusən dekorativ bitkilər olan ərazilərdə məskunlaşan insanlar psixi cəhətdən sağlam olurlar.

Bitkilər arasında balverən nümayəndələr də var. Onlarda vitaminlə və minerallarla zəngin olan bal əldə olunur. Bal həm də müalicə məqsədilə istifadə olunur.

Efir yağlarından ətir, kosmetika, sabun istehsalında, yemək və içkilərə ləzzət vermək üçün istifadə olunur. Sarıkök, yarpız, qoz, cirə, küknar, portağal, limon, naringi, kəklikotu, zəncəfil, qızılgül, şam efir yağlı bitkilərdəndir. Günəbaxan, qarğıdalı, zeytun yağlı bitkilərdir. Onlardan alınan yağ mətbəxdə istifadə olunur. Pambıq və kətanın lifləri parça istehsalı üçün əhəmiyyətlidir. Zərərverici həşəratlara qarşı bioloji mübarizədə bitkilərdən istifadə olunur. İynəyarpaqlı ağac və kol bitkiləri havaya fitonsidlər xaric edirlər ki, bunlar da bir sıra bakteriyaları, mikroskopik göbələkləri məhv edir. Elə bu baxımdan da həmin bitkilər müəssisələrin, xüsusən də uşaqlar olan məktəbəqədər müəssisələr və məktəblərin həyətyanı sahəsinə əkilir.

Tut ipəkqurdu deyilən kəpənək növü tut yarpağı ilə qidalanaraq barama toxuyur. Onun bir baramasından 1500 m ipək sap alınır. Bu sap möhkəm və keyfiyyətli olub, paraşüdlərin hazırlanmasında, cərrahi əməliyyatlar zamanı tikişlərin qoyulmasında faydalıdır.

Yaşıllıqların bu saysız-hesabsız faydalı xüsusiyyətlərini nəzərə alaraq, onları qorumaq lazımdır. Ekoloji mədəniyyətin formalaşmasında ekoloji təhsil mühüm rol oynayır. İnsanların çoxu ətraf mühitlə bağlı məlumatı yoxdur və fərqinə varmadan təbiətə mənfi təsirlərə yol verirlər. Bunun üçün insanların ekoloji təhsillə bağlı məlumatları nə qədər çox olarsa, yaşıllıqlara bir o qədər az təzyiq olar.

***Afaq Əliyeva***
***Naxçıvan Dövlət Universiteti***
***Biologiya üzrə fəlsəfə doktoru***

# ZÜLMÜN QARANLIQ QALASI: ZAMANIN DAYANDIĞI YER

Sizə bir həbsxana haqqında məlumat vermək istəyirəm. Hansı ki, bura bildiyimiz digər həbsxanalardan fərqlənir. Burada yalnız bədənlər deyil, ümidlər, arzular və insanlıq özü də həbs olunur. Ora yalnız həbsxana deyil, insanlığın məğlub olduğu bir zülmün simvoludur. Bura qanunların susduğu, ədalətin isə zəncirə vurulduğu bir yerdir.

Bu yer, yalnız betondan tikilmiş divarlar və dəmir qapılarla deyil, həm də insan əzabının ən dərin səviyyəsi ilə tanınır. Buranın adı çəkildikdə, qulaqda yalnız zəncirlərin səsi deyil, qışqırıq, acı və ümidin tamamilə sönmüş xırıltısı eşidilir. Burada divarları hər gecə səssiz ağlayır. O divarlar işgəncə ilə çırpılmış, sümükləri qırılmış insanların ağrısını özündə saxlayır. Burada hər gün, hər saat, hər an, bir yeni facie yazılır. Divarlar şahiddir-insanların necə alçaldıldığını, ruhlarının necə parçalandığını bilirlər. Oradakı məhbuslar üçün bu divarlar yalnız bir sərhəd deyil, həm də qəddar sükutun həbsidir. Çünki orada danışmaq, nəfəs almaq qədər təhlükəlidir. Bəli, Sednaya həbsxanası! Artıq söhbətin nədən getdiyini anladınız. Sednaya sadəcə həbsxana deyil, məzlum ruhların, ölməyi yaşamaqdan üstün sayan bədənlərin zindanı olaraq bilinir.

Bu həbsxananın divarları adi tikinti materiallarından deyil, susmaq məcburiyyətində qalan insanların qışqırıqlarından tikilmiş kimi görünür. Məhkumlar burada yalnız gün işığından deyil, həm də insanlıqdan məhrumdurlar. Ən kiçik bir sual soruşmaq belə bəzən günlərlə davam edən işgəncəyə səbəb ola bilər. Sednayada nə haqq var, nə də ədalət, buranın qanunu yalnız zalımın iradəsidir. Əslində onlar üçün işgəncədir qanun. Səsiniz çıxsa, ayağa qalxsanız, baxışlarınızı yuxarı qaldırsanız-hər bir hərəkətiniz cəzalandırılır. Ən kiçik müqavimət işgəncə səbəbidir, bəzən isə sadəcə yaşamaq faktı cəza üçün kifayət edir. Əlləri və ayaqları zəncirlənmiş məhbuslar hər an yeni bir işgəncə metoduna məruz qala bilər. Onları divarlara bağlayır, dəmir çubuqlarla döyür, ya da nəfəs almağı belə çətinləşdirən dar hücrələrə salırlar.

Bu işgəncəxanada məhkumlar tez-tez fiziki gücdən artıq psixoloji sarsıntıya məruz qalır. Bəzən saatlarla divara baxmağa məcbur edilər, bəzən isə sükut qırıldıqda qulaqları qanadacaq qədər yüksək səslə alçaldıcı təhqirlər eşidərlər. Yemək dedikləri şey isə sadəcə sağ qalmağa kifayət edəcək qədər çörək parçası və kirli su olur. Əlbəttə, "sağ qalmaq" burada heç də üstünlük deyil, əksinə, əzabın davam etməsidir. Əslində verdikləri yemək məhkumların bioloji sağ qalması üçün yetər, amma ruhun ölümü üçün kifayət qədər zəifdir. Bu həbsxanada aclıq bir vasitədir-insanı zəiflətmək, müqavimətini qırmaq və onu ölümlə həyat arasında məhv etmək üçün bir silahdır.

Sednayada saatlar axmır, günlər keçmir. Burada zaman ölçüsü yoxdur, çünki hər an eyni dəhşət və ümidsizlik içində itir. Məncə, burada zaman öz mənasını itirir. Bura məhkumlar üçün günlər yalnız bir-birinin eyni olan əzab anlarından ibarətdir. Bəzən aylarla, bəzən illərlə təcrid olunur, kim olduqlarını belə unudurlar. Məhkumlar üçün səhər açıldığını anlamaq, yalnız qaranlıq kameranın səmadakı kiçik bir işığı sızdırması ilə mümkündür. Gecə isə tam mənasıyla zülmət deməkdir-yalnız təkcə qaranlıq deyil, həm də ümidsizliyin ən qatı təzahürüdür. İzlədiyim və araşdırdığım məlumatlara əsasən, deyə bilərəm ki, bir çox məhkum üçün Sednaya təkcə cəza yeri deyil, həm də unudulma yeridir. Ailələri onları çoxdan itmiş bilir, cəmiyyət isə onları xatırlamaqdan çəkinir. Burada hər kəs təkdir və bəzən insanın öz-özü ilə savaşması, zindanla savaşından daha çətin olur.

Sednaya yalnız məhkumların bədənini deyil, ruhlarını da əzir. Məhbuslar burada öz adlarını belə unutmağa başlayırlar. Onlar artıq insan deyil, sadəcə nömrələnmiş varlıqlardır. Bu, onların şəxsiyyətini, keçmişini və gələcəyini silmək üçün məqsədyönlü bir strategiyadır. Bu məkanın adı çəkildikdə belə, insanların beynində yalnız qaranlıq bir boşluq yaranır-bu da əslində Sednayanın məqsədidir: insanın hər şeydən imtina etməsini təmin etmək.

Sednaya bir zindandan çox, insanlığın zülm və qəddarlıqla necə sınana biləcəyinin simvoludur. Orada həyata tutunmağa çalışan məhkumların səssiz duaları beton divarların içində əks-səda verir. Hər bir döyülən məhkumun nəfəsi, ümidin son zərrələrini qorumaq üçün cəsarətlə savaşır. Bu zindanın qapıları bağlananda yalnız bədənlər yox, ruhlar da məhbus edilir.

Amma bu işgəncə dolu qaranlıqda belə insanlıq zəif də olsa, işıq kimi yanır. Bu, Sednaya həbsxanasının hekayəsidir-insan əzminin və qəddar zülmün bir-birinə toxunduğu yer. İnsanın ən ağır yerlərdə belə dirəniş göstərə biləcəyi bir yerdir. Bəlkə də, bu, ümidin əsl mahiyyətidir: qaranlıqda belə işıq tapmaq, ən qəddar yerdə belə yaşamaq arzusu.

Bir jurnalist olaraq məqalənin bu poetik notlarla bitirməkdəki məqsədim, Sednayanın yalnız zülmün yox, həm də insanlıq tarixində bir xəbərdarlıq kimi qalmasını təmin etməkdir. İnsanlar belə yerləri unutmağa meyllidir, amma unutmaq məhz bu qaranlığın təkrarlanmasına imkan yaradar. İnsanlığın ən böyük borcu isə hər bir səsi, hər bir insanı, hər bir həqiqəti yadda saxlamaqdır. Və mənim bu məqaləni tərtib etməkdəki ən böyük məqsədim isə həftələrdir qarşıma çıxan, medya kanallarında da izlədiyim xəbərlər və verilişlərdir. Sednaya həbsxanasında insanlara verilən tüklər ürpərdici zülmü daha çox kütlənin görməsidir. Çünki mən içimdəki bu dərin öfkəni yalnız bu cür dindirə bilirəm. Və düşünürəm ki, itirilən həyatların əzabı unudulmamalıdır!

***Səkinə Əhmədova***
***Jurnalistika ixtisası üzrə II kurs tələbəsi***

# "SAĞLAM GƏLƏCƏK"

## Bu rubrikada sizə vacib məsləhətlər, tibbi yeniliklər, gündəlik sağlam həyatla bağlı məlumatlar təqdim edirik

# Herpes (Uçuq) nədir və profilaktikası necə aparılır?

Herpesvirus və ya Herpesviridae adlı virus bir çox xəstəliklərin yaranmasında rol oynayır. Bunlardan inəklərdə burun-udlaq iltihabı, atlarda burun-ağciyər iltihabı kimi xəstəliklərə rast gəlmək olar. Həmçinin insanda da aşağıdakı xəstəliklərin yaranmasında iştirak edir:

1. Uçuq (herpes simplex) virusu;

2. Meymunlarda çox görülən, çox az olaraq isə insanlara yoluxaraq ağır xəstəliklərə səbəb olan B virusu (herpesvirus simiae);

3. Suçiçəyinin səbəbi olan V-Z virusu (herpesvirus



varicella və ya varicella zoster);

4. Tüpürcək vəzlərində tapılan, mədə yarası, bağırsaq iltihabı, gözdə damar-qişa və ağlı qişa iltihabları kimi müxtəlif xəstəliklərə yol açan Sitomegalavirus (cytomegalovirus);

5. Burkitt limfoması, arxa burun boşluğu karsinoması, infeksion mononukleoz və sarkoidoz kimi xəstəliklərin səbəbi olan EB (Epstein-Barr)

*Uçuq (herpes simplex)*

Adətən dəridə çox görülən, kiçik və iltihablı qabarcıqlarla meydana çıxan uçuq və ya Herpes Simplex, rast gəlindiyi yerlər, səbəb olduğu əlamətlər, görülmə tezliyi, yaranma mexanizmi və genetik baxımından müxtəliflik göstərən xəstəliklərin ortaq adıdır.

İnsanda 2 cür uçuq virusu var:

1) Cinsi orqanlardan kənarda, digər toxumalarda olan

2) Cinsi orqanlarda olan

Birinci tip insana tüpürcək damcılarıyla, ağızdan və ya göz və dəri yaralarından daxil olur.

İkinci tip isə cinsi əlaqə vasitəsilə yoluxur. Əgər anada bu virus varsa doğum zamanı doğuş yollarından keçən yenidoğulmuşa da yoluxa bilər. Buna görə də erkən doğulan və ya antitel səviyyəsi çox aşağı olan anaların körpələrində çox ciddi bir xəstəliklərə səbəb ola bilər.

Yoluxmaların böyük bir qismində ilkin infeksiya əlaməti olmaz. Bəzən sinir sistemi, limfa düyünləri, dəri və daxili orqanlara yerləşərək, müxtəlif ağırlıqlı, ümumi və ya yerli əlamətlərə səbəb olur.

Birincili infeksiya bəzən ömür boyu sakit vəziyyətdə qala bilər. Bəzən isə müxtəlif nahiyələrdə yerli əlamətlərlə özünü büruzə verə bilər.

Bəzi xüsusi vəziyyətlərdə isə təkrarlanması çox ağır klinik hallara gətirib çıxara bilər. Belə ki, hər hansı bir ensefalit (beyin iltihabı) əvvəlcədən səbəbi bilinməyən, keçirilmiş bir beyin infeksiyası fonunda yenidən alovlanması ortaya çıxa bilər. İnfeksiyanın təkrarlanmasının bir çox ümumi və yerli səbəbləri ola bilər. Bunlara yuxarı temperatur, yaralanmalar, həddən artıq yorğunluq, zəhərlənmələr, uzun müddət günəş altında və ya soyuqda qalma, şüa terapiyası, adət görmə, həyəcan, psixi müalicə, dəridə müəyyən travmalar kimi halları aid etmək olar.

Uçuq virusunun ilkin infeksiyası yoluxmaların böyük əksəriyyətində əlamət verməz. Başlıca klinik göstəriciləri aşağıdakılardır:

1) Ağız-diş əti iltihabı, adətən, uşaq yaşlarda, xüsusilə 1-11 yaş aralığında rast gəlinir. Ağızda ağrılı əlamətlər uşağın ümumi vəziyyətinin pisləşməsindən 2-3 gün əvvəl meydana çıxır. Xəstəlik birdən-birə də başlaya bilər;

2) Göz əlamətləri-uçuq virusu göz qapaqları, kornea, göz ağı, konyuktiva və digər qişalarda müxtəliflik-lərə səbəb ola bilər;

3) Mərkəzi sinir sistemi xəstəlikləri: Beyində asep-



tik menengit və infeksion ensefalit kimi xəstəliklərə səbəb ola bilər. Uçuq ensefaliti yenidoğulmuşdan 80 yaşına qədər hər yaş insanlarda görülə bilər;

3) Cinsi orqanların uçuqları - böyüklərlə yanaşı, uşaqlarda da rast gəlinə bilər. Böyük ehtimalla virusun kirli əllər yoluyla ağıza ötürülməsi və həzm kanalı boyunca yayılmasından qaynaqların. Birincili infeksiyalardan qorunmaq üçün uşaqlarda gigiyenik qaydalara riayət olunmasına ciddi nəzarət etmək lazımdır.

***Sara Rəhimli***
***"Klinik fənlər və hərbi tibb" kafedrasının müəllimi***

# Miokard infarktı (Ürək tutması)

Miokard infarktı (MI) və ya ürək tutmas - ürək əzələsinin (miokardın) bir hissəsinin qanla təmin olunmasının kəskin şəkildə pozulması nəticəsində yaranan nekroz (toxuma ölümü) hadisəsidir. Bu vəziyyət əsasən ürəyi qidalandıran damarların (koronar arteriyaların) trombozu və ya ciddi dərəcədə daralması nəticəsində meydana gəlir. Miokard infarktı dünyada ürək-damar xəstəlikləri içərisində ən çox rast gəlinən və ölümə səbəb olan hallardan biridir. Həmçinin ürək tutması ölüm ilə nəticələnən xroniki xəstəliklərin içində ikinci yeri tutur. Dünya Səhiyyə Təşkilatının məlumatına görə, hər il təxminən 17.9 milyon insan ürək-damar xəstəliklərindən həyatını itirir, bunların böyük hissəsini ürək tutması təşkil edir.

Döş qəfəsindəki (və ya mədəsinin yuxarı hissəsində) sıxıcı və əzici ağrı, sol qola (və ya hər iki qola) və çənəsinin altına yayılan ağrı, tərləmə, bulantı və



nəfəs darlığı ürək tutmasının tipik əlamətləridir. Onun yüksək təzyiq xəstəsi olduğu, siqaret vərdişi, hazır yeməklər ilə qidalandığı, stressli peşəyə sahib olduğu və peşəsindən ötrü oturaq həyat tərzi bu şəxsdə koronar arteriya xəstəliyinin baş verməriskini artırır və ürək tutmasının baş verdiyini yüksək ehtimal ilə düşündürür.

**1. Dərhal Təcili Yardım çağırılmalıdır**

Dərhal vaxt itirmədən 103-ü yığmalıdır. Ürək tutmasında vaxt çox vacibdir və erkən müdaxilə şəxsin həyatını qurtara bilər.

**2. Şəxs sakitləşdirilməli və oturdulmalıdır**

Ürəyin iş yükünü azaltmaq üçün şəxs hərəkət etməməlidir və rahat bir vəziyyətdə oturmalıdır.

**3. Qəbul etdiyi dərmanlar soruşulmalıdır**

Şəxs üçün öncədən nitroqliserin təyin edilibsə, ona bu dərmanı təlimatlar üzrə qəbul etməsi üçün kömək edilməlidir.

**4. Aspirin verilməlidir** Əgər şəxsdə aspirin qəbuluna qarşı hər hansı bir əks-göstəriş yoxdursa, ona aspirin (325 mq) verilir və aspirini çeynəməsi istənilir.

**5. Sakit olmaq və şəxsi sakit saxlamaq**

Şəxsi sakit saxlamaq ürəyinin üstündəki stressi azaltmağa kömək edir.

Ümumiyyətlə, xəstəxanaya qədər və infarktın tibbi diaqnozunun həkim tərəfindən qoyulmasından əvvəl bir şəxsin ürək tutması və ya miokard infarkt keçirdib və ya keçirmədiyini müəyyən etmək və erkən müdaxilə üçün bu üç hərfi yadda saxlamaq kömək edə bilər. Bu üç hərf AFİ dir!

A: Ağrı. Ürək tutması ilə əlaqədar ağrı, ağrı deyildir, döş qəfəsində bir ağırlıq hissidir. Bu hiss əzicidir (sanki sinənin üstünə ağır bir beton daş qoyulubdur). Ürək tutması ilə əlaqədar ağrı hissi qollara (ümumiyyətlə, sol qola) barmaq uclarına qədər, çənə və çənə altına, mədə bölgəsinə və kürəyə yayıla bilər. Bu tip ağrı 30 dəqiqə və ya 1 saata qədər çəkə bilər. Ürək tutması ağrısı heç kəsilmədən davam edər və ağrı hissi getdikcə pisləşər və şiddəti artar. Həmçinin şəxs bu tip ağrının yerini göstərdiyində sinə üstündə barmağıyla bir nöqtəni yox, bəlkə əlinin pəncəsi ilə sinəsi üstündə geniş bir sahəni göstərir.

F: Fəaliyyət. Fiziki hərəkət ürək tutması ilə əlaqədar ağrının şiddətini artırar.

İ: İstirahət. Ürək tutması ilə əlaqədar ağrı istirahətlə azala bilər, amma keçməz.

Diqqət edilməlidir ki miokard infarktın dəqiq diaqnozu sadəcə həkim tərəfindən təyin edilib və ya təsdiqlənə bilər və AFİ metodu əhalini maarifləndirmək və həqiqi ürək tutması keçirdən şəxsi erkən bir zamanda həkimə götürmək və ya təcili tibbi yardım çağırmaq üçündür. Həmçinin AFİ metodu tipik ürək tutması üçün nəzərdə tutulur, bəzən ürək tutması atipik, yəni əlamətsiz və tam olaraq səssiz seyr edə bilər və sadəcə həkim tərəfindən aparılan tibbi diaqnostik üsullar ilə aşkar edilə bilər.

**Ürək tutması və ya miokard infarkta qarşı necə qorunmaq olar (profilaktik tədbirlər)?**

Sağlam qidalanmaq: Hazır yeməklərin, o cümlədən fast food-un hazırlanmasında palma, doymuş və trans yağlardan istifadə olunduğuna görə, həm də fast food hazır yeməklərinin öz mahiyyətində pis xolesterol zəngin olduğu üçün bu tip yeməklər ilə qidalanmaq pis xolestrolun (LDL) səviyyəsini qanda artırmaq və yaxşı xolestrolun (HDL) qandaki səviyyəsini azaltmaq ilə ürək tutması riskini artırır. Buna görə də bitki yağlarının istifadəsi və sağlam ev yeməkləri ilə qidalanmaq ürək tutması riskini azaldacaqdır.

Müntəzəm idman: Oturaq həyat tərzi və idmanın yaşamda yerinin olmaması ürək tutması riskini artırır. Həftənin əksər günlərində ən azı 30 dəqiqə orta səviyyəli idman etmək ürək tutması riskini azal-




dacaqdır.

Siqaret çəkməyi dayandırmaq: Siqaret çəkmək uzun müddət ərzində ürəyi qidalandıran damarların tutulmasına səbəb olmaqla ürək tutmasına səbəb olur. Unudulmamalıdır ki, "Dumanla yazılan bir hekayə, erkən bitər; həyatınızın romanını sağlam səhifələrlə doldurun!".

Stressin idarəedilməsi: Stressli peşələr ürək tutması üçün risk faktoru ola bilər.

Müntəzəm yoxlamalar: Ailəsində, yaxın qohumlarında və ya özündə ürək problemi tarixçəsi, təzyiq xəstəliyi və diabet xəstəliyi olan şəxslər, təzyiqini, qandakı xolesterol səviyyəsini və qan şəkərini müntəzəm olaraq yoxlatdırmalıdır.

***Bəhrami Babək***
***Tibb ixtisası üzrə V kurs tələbəsi***

# EVLİLİK ÖNCƏSİ MÜAYİNƏ

Xalq sağlığı hər bir ölkənin əsas dövlət siyasətidir. Bunun üçün xüsusi proqramlar hazırlanır. Evlilik öncəsi müayinələr bu proqramın əsas hissəsi olub, Milli genofondumuzun sağlamlığı və dövlətçiliyimizin qorunması üçün vacibdir. Nigaha daxil olmaq istəyənlərin tibbi müayinəsi Naxçıvan MR Səhiyyə Nazirliyinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 28.04.2015-ci il tarixli 122 nömrəli qərarına əsasən əmri ilə icra olunur. 29 may 2015-ci il tarixli bu əmrdə deyilir. Nigaha daxil olmaq istəyən şəxslərə tibbi arayışların verilməsi ərazi bölgüsünə uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzi və Mərkəzi Rayon Xəstəxanaları tərəfindən qeyd olunan müayinələrin nəticələri təqdim edildikdən sonra həyata keçirilir. Nigaha daxil olmaq istəyən şəxslərin tibbi müayinəsi Naxçıvan MR Dəri-Zöhrəvi Dispanserində (sifilisə görə), Naxçıvan MR QİÇS-lə Mübarizə Mərkəzində (İİV/QİÇS-ə görə) Naxçıvan MR Xəstəxanasının Hematologiya şöbəsində (hemoqlobinopatiyalara görə) aparılsın.

***Evlilik öncəsi müayinə nə üçün vacibdir?*** Evlilikdən əvvəl sağlıq müayinəsi evlənəcək insanların-yoluxucu, genetik, irsi xəstəliklərinin, daşıyıcılığın olub-olmamasının, daşıyıcılarının aşkarlanması, dünyaya şikəst, əlil, genetik və qazanılma xəstəlikli uşaqların gəlməməsi, bu evlilikdən digər sağlam ər və ya arvadın zərər çəkməməsi məqsədi ilə aparılır. Nəticədə 1. Ailənin tibbi nöqteyi-nəzərdən üzərində yeni nəsil inşa ediləcək sağlam təməl üzərində qurulması; 2. Gələcək I-II nəsildə genetik xəstəlikləri olan eybəcər uşaqların doğulmasının və sonradan əlil olmasının qarşısının alınması; 3. Qohum evliliyini aşkarlayıb nəsil ağacına nəzər salmaq. Bir xəstəliyin genləri qohumlarda daha tez rastlaşdığından xəstə uşaqların doğulmaması üçün tibbin nailiyyətlərindən istifadə edilməsi mümkün olur. Əgər bəzi islam və xristian ölkələrində xəstə və şikəst uşaq doğulmasını Allahın onlara yazdığı tale hesab edirlərsə, digərləri isə tibbin nailiyyətlərindən məsləhətləşmə, maariflәndirmə nəticəsində yüksək riskli hesab edilən evliliklərin 90%-dən şüurlu olaraq imtina edirlər. Azərbaycanda da dünyanın bir çox ölkəsində olduğu kimi, sağlamlıq imkanları məhdud olan şəxslər dövlət qayğısı ilə əhatə olunmuşdur. İstər uşaq, istərsə yaşlı belə insanların yaşayışı, təhsili, sağlamlığı üçün dövlət büdcəsindən külli miqdarda vəsait sərf olunur.

Evlilikdən əvvəl hansı xəstəliklərə görə yoxlanma nəzərdə tutulur?

Hər bir ölkə bu proqramı qanuniləşdirdikdə ölkənin coğrafi mövqeyi, əhalinin irsi və dini mənsubiyyəti nəzərə alınır.

Yoxlanılacaq xəstəliklərə sifilis, QİÇS, Hemoqlobinopatiyalar-talassemiya, oraq hüceyrəli anemiya,



hepatitlər aid edilir. ***Hemoqlobinopatiyalar -*** tənəffüs sistemindən oksigeni alıb toxumalara çatdıran və əksinə toxumalardan karbon qazını ağ ciyərlərə çatdıran qırmızı qan hüceyrələri-eritrositlərin əsas tərkib hissəsi olan Hemoqlobinin-xəstəliyidir. İrsi qan xəstəliyi olan talassemiya ilk dəfə qohumlar arasında nikahın dəbdə olduğu İtaliyanın Siciliya adasında aşkar edilib. Ölkəmizdə də qan xəstəliklərinin-hemoqlobinopatiyaların-xüsusi ilə talassemiyanın coğrafiyası genişlənir. Tibbi hesablamalara görə Azərbaycanda talassemiya, xəstəliyin daşıyıcısı bir milyon nəfərdir. Bu isə o deməkdir ki, Azərbaycanda hər 9 nəfər şəxsdən biri talassemiya xəstəliyinin daşıyıcısıdır. Qohumlar arasında nikahda qan xəstəlikləri onların övladlarında olmasa belə, nəvələrində üzə çıxa bilir. Hal-hazırda sürətli metodlarla-testlərlə bütün dünyada Talassemiya xəstəliyinin-hemoqlobinopatiyaların erkən aşkarlanması proqramı dəstəklənir. Talassemiyalı uşaq bir ildə 10000-15000 $ xərc tələb edən müalicə alır. Bir ailədə belə 2 uşaq olarsa, ailənin psixi, maddi vəziyyəti daha da ağırlaşır. Dövlətlərin çoxunda, o cümlədən də ölkəmizdə də bu xərcin əsas hissəsini dövlət öz üzərinə götürür. Respublikamızda xüsusi təyinatlı Talassemiya mərkəzi bu xidməti layiqincə göstərir. Hər ay belə uşağa qan köçürülür. Ömrü az olan qırmızı qanın parçalanmasından bədəndə toplanan artıq dəmir uşağın daxili orqanlarında yığılıb, onları zəhərləyərək fəaliyyətini pozur. Buna görə də xəstələri dəmir zəhərlənməsindən xilas etmək - artıq dəmiri orqanizmdən xaric etmək üçün 24 saat Desferal preparatı sistemlə köçürülür. Talassemiya qarşısı alına bilən xəstəlikdir. "Talassemiya daşıyıcısı evlənərkən həyat yoldaşını yoluxdura bilərmi? Xeyr, talassemiya yoluxucu xəstəlik deyil, genetik xəstəlikdir. Valideyinlərdən övladlara irsən ötürülür. Məs.: Talassemiyanın daşıyıcısı olan şəxslər ailə həyatı qurarsa, genetik Mendelin hesablamalarına görə doğulacaq 4 uşaqdan 1-i xəstə,1-i sağlam, 2-si daşıyıcı ola bildiyi, bir talassemiya xəstəsinin bir illik qanla təmin edilməsi 10, 12, bəzən də 15 min manata başa gəldiyindən, nikahdan əvvəlki tibbi müayinənin vacibliyi aydınlaşır. Ancaq bir çox ölkələr bu xəstəlikdən yaxa qurtarmağın yolunu deмək olar ki, tapıblar. Belə ki, Avropada tibbi diaqnostika vasitəsilə talassemiya xəstəliyinin daşıyıcısı olan şəxsin övladının hələ ana bətnində olarkən bu xəstəliyin daşıyıcısı, yaxud da xəstəsi olacağı müəyyənləşdirilir. Bundan sonra talassemiya xəstəsi olacaq uşaq tibbi göstərişlə hamiləlik pozulur. Bu üsulla son zamanlar Avropa ölkələrində talassemiya ilə doğulan xəstələrin faizində azalma müşahidə olunur. Talassemiya genini yalnız bir valideyndən alan uşaq daşıyıcı doğulur. Böyük talassemiyaya isə bu xəstəliyin genini hər iki valideyndən alan uşaq düçar olur. 3-11 aylığın gizli keçən sonralar uşaqlarda hemoqlobinin miqdarı azalması ilə xəstəlik aşkar özünü göstərir. Ancaq artıq gecdir, ailədə xüsusi qulluq, bahalı müalicə, hər ay qan köçürüləcək bir övlad var.

Oraq hüceyrəli anemiya da yoxlanılması vacib olan hemoqlobinopatiyalara aiddir. **Oraq Hüceyrəli anemiyada** hemoqlobinin beta zəncirinin 6. sırasında bir nöktə mutasyası nəticəsində "**glutamin**" aminturşusu yerinə bir başqa aminturşu olan "**valin**" keçir. Son dərəcə bəsit görünən bu dəyişiklik anormal bir hemoqlobin S əmələ gətirir. HbS eritrositin klassik formasını dəyişir oraq şəklinə salır. Xəstəliyə buna görə




oraq hüceyrəli adı verilib.

1. Normal 2. Oraq hüceyrə

Yoluxucu deyil, genetik ötürülən xəstəlikdir. İki daşıyıcı, 2 xəstə və ya biri xəstə biri daşıyıcı insanların evliliyindən xəstə uşaq doğulur. İlk əlamətlər 6 aylıqdan uşağın qan azlığı ilə görünür. Ani baş verən şiddətli ağrı və qanın parçalanması-hemolizi, ağciyər, dalaq sindromu xəstənin ağırlaşması və ölümü ilə nəticələnə bilər. Sonralar isə bütün üzv və sistemlərdə xəstəliklər, ağırlaşmalar baş verir. Belə xəstə və daşıyıcıda Vit-$B_{12}$, Fol turşusu defisiti ola bilər. İlkin diaqnoz qan yaxması ilə qoyulur. Sonra daha spesifik üsullar lazım olur.

Cinsi yolla yoluxan bir xəstəlik də ***Sifilis xəstəliyidir.*** Sifilis ən çox cinsi yolla yoluxan, xroniki şəkildə keçən, bütün orqanlarda, o cümlədən dəridə, sinir sistemində xəstəlik törədən yoluxucu zöhrəvi xəstəlikdir. Dölün inkişafının ilk mərhələsində yoluxma baş verdikdə hamiləlik vaxtından əvvəl pozulur, ölü uşaq doğulması ilə qurtarır. Bəzən hamiləlik pozulmur, diri uşaq doğulur, lakin belə uşaqlar həmişə həm fiziki və həm də əqli cəhətdən inkişaf etmirlər. Onların çəkisi və boyları normadan az olur, dərialtı piy təbəqəsi inkişaf etmədiyindən dəri qırış-qırış olur, onların sifəti "balaca qocanı" xatırladır. Bəzən sümüklər, qaraciyər və dalaq bu prosesə tutulur. Anadangəlmə gecikmiş sifilis 10-15 yaşlarında və bəzən daha gec aşkar olunur. O, gözlərdə korluğa qədər çatan pozğunluqlar, karlıq, dişlərin formasının dəyişməsi, daxili üzvlərdə, dəridə qummaların əmələ gəlməsinə səbəb olur. Anadangəlmə sifilisin diaqnozu göstərilən inandırıcı əlamətlərdən birisi olduqda onun digər müayinələri də aparılır. Anadangəlmə sifilisin diaqnozu tez qoyulmadıqda müalicə yubanır və bunun nəticəsində uşaq kor, əqli cəhətdən əlil ola bilir. Bunun üçün gələcəyin ata və anası evlənmədən əvvəl müayinə olnmalı xəstəlik aşkarlanan tərəf müalicə olunmalı, hamiləliyə qabaqcadan lazımi səviyyədə hazırlaşmalıdırlar ki, xəstə, ölü, əlil uşaqlar doğulmasın. Yəni əvvəlcədən sifilisin müayinəsini aparmaq, evlilik zamanı digər tərəfin yoluxmasının və uşaq ölümü və əlilliyinin qarşısını alır. Cinsi yolla, qanla yoluxan: HİV-QİÇS, sifilisin az rast gəlinməsinə baxmayaraq, xəstəliyin ailələrin dağılmasına, ölü, xəstə uşaq doğulmasının qarşısını almaq üçün proqrama daxil edilmişdir. HİV – insan immun yetməməzliyi virusu, QİÇS – bu virusun yaratdığı Qazanılmış immun yetərsizliyi sindromu adlanan xəstəlikdir. 1981-ci ildə ABŞ-da aşkarlanıb. Əsas xalq sağlığı problemlərinə çevrilib. Bu xəstəlik zamanı insan vücudunun özünü müdafiə qabiliyyəti azalır və ya tamamilə yox olur. Nəticədə bəzi xəstəliklərin qoşulmasından müdafiəsiz qalan insan ölür. Yoluxucudur. Cinsi yolla 80-85%, qan və qan komponentləri ilə 10-15% yoluxur. Doğuş zamanı, hamiləliyin axırıncı aylarında, nadir hallda isə ana südü ilə dölə və yenidoğulmuşa keçə bilir. Ancaq görüşmə, eyni mətbəxdən istifadə, üzmə hovuzu, hamam ləvazimatı ilə yoluxma olmur. Diaqnoz erkən qoyularsa, həm digər insanların yoluxmasının, həm də xəstəliyin qısa müddətdə ağırlaşmasının qarşısının alınması xəstənin ömrünün uzadılması mümkün olur. Yoluxmadan 4 həftə sonra HİV1+2 antitel və P-24 antigen tərkibli 4-cü nəsil testlər müsbət cavab verir. HİV zamanı 2 həftədən sonra, qanla yoluxma zamanı isə 24 saat içərisində cavab verə bilir. HİV müsbət olan şəxslərdə yenidən doğrulama testi, məsələn, Vestern Blotu testi təkrarlanır. HİV qanda yoluxmadan 3-6 ay sonra antigen axtarılır. Cavab 3 ayda pozitif olubsa, 6-cı ayda testə gərək yoxdur.

**Hepatitlər. Qaraciyər vücudu toksik maddələrdən təmizləyən, öd sintezləyən karbohidrat, yağ və zülal mübadiləsində çox vacib funksiyaları yerinə yetirən orqandır. Bu viruslar qaraciyər hüceyrələrini zədələyərək hüceyrə ölümünə səbəb olur**. Hepatit A, B, C, D və E **törədiciləri-viruslar xəstəlik yaradır.** Hepatit A və E virusları ağız yoluyla-yemək və sudan yoluxur. Hepatit A ən sıx görülən xəstəlikdir. Hepatit E isə hamiləlik zamanı daha çox yoluxma riski daşıyır. Gigiyenik qaydalara əməl olunmayan ölkələrdə hepatit E daşıyıcılıq faizi yüksək olur. Xəstə insanın həm yemək hazırlaması, ailənin bu yemekleri yeməsi yoluxma yarada biləcəyi unudulmamalıdır. Virüs vücuda girməmişsə 3 mərhələli peyvəndlə qorunmaq mümkündür. Hepatit B qan və qan komponentləri köçürülməsi ilə qulaq deşilməsi, döymə, diş müalicəsi, manikür, pedikür, ortaq işlədilən diş fırçası, steril olmayan alətlərlə aparılan sünnət zamanı tər, tüpürcək və ya cinsi yolla geçir. Hepatit B-li ana doğum zamanı, uşağı virusla yoluxdura bilir. Dərideki bir çat, ya da açıq yara ilə təmas edən bir damla qan və ya tüpürcək belə yoluxmaya yetərli ola bilir. Hepatit B virusunun qaraciyər yetməzliyi və xərçəngi əmələ gətirdiyindən ölümcül səbəbdir. Hepatitli insanın ailə üzvləri müayinə olunur, xəstələr, yoluxanlar müalicəyə, hepatit B testləri mənfi olanlar isə peyvənd proqramına cəlb olunur. Hepatit C xəstəyə işlənmiş şpris işlədilirsə, qan və qan komponentləri köçürülməsi və cinsi yolla selikli qişalardan, yaralardan yoluxma baş verə bilir. Ana bətnindəki dölü yoluxdurur. Hepatit C səssiz və sinsi bir infeksiyadır, tədricən qaraciyərin sirroz və xərçənginə səbəb olur. Hepatit C qaraciyəri zədələməklə dəri, böyrəklər, tüpürcək vəziləri, göz və bəzi digər orqanlarda da problemlər yaradır. Bir çox xəstədə sarılıq olmur, ancaq arabir sidiyin rəngi tündləşə bilir. Virus qanda olduğundan əsas qanla yoluxur, ancaq cinsi yolla C hepatitli bütün insanlar yoluxdurucudur. Hepatit C əsasən qaraciyəri zədələyən anadan dölə keçişi HCV'nin ananın qanındakı virusun miqdarından birbaşa asılıdır. Hepatit C uşaqlara qan yolu ilə keçərək kəskin və xroniki qaraciyər xəstəliyi C tipli hepatit yaradır. Hepatit C uşaqlarda özünü göstərmədən qaraciyərdə yara əmələ gətirərək illər sonra sirroza səbəb olur. Nəticədə qaraciyər yetərsizliyi, xərçəngi ya da ölümcül qanaxma baş verir. Hepatit D virusu da xəstəyə işlənmiş kirli şprislə, xəstə insanın qan və qan komponentləri köçürülməsi ilə keçir. Bu virus yalnız hepatit B virusuna yoluxmuş insanlarda xəstəlik yaradır. Evlilikdən əvvəl evlənəcək olanlardan hər hansı birində hepatit B xəstəliyi və ya daşıyıcılığı aşkarlanarsa, bunu digərinə bildirməlidir ki, 3 dəfədə sonlanan peyvənd vurulsun və gələcəkdə yoluxma baş verməsin. Son zamanlar bu peyvənd 1dəfəlikdir. Yəni nişanlıların birində hepatit B xəstəliyi və ya daşıyıcılığı aşkarlanarsa, bu evliliyə əngəl deyil, ancaq həkim peyvənd haqda məlumat verərsə, sağlam tərəfi xəstəlikdən qoruyar. Evlilik öncəsi müayinənin nəticəsi üçüncü bir şəxsə və evlənənlərin digərinə deyilmir, hər iki şəxs öz aralarında danışır, bir-birini məlumatlandırır, sonra evlənənlərin razılığı və istəyi ilə bu xəstəliyin nələrə səbəb olacağı haqda məlumatlandırılırlar. Məqsəd ailənin, gələcək nəslin sağlamlığına diqqət yetirmək, maarifləndirmək, uşaq ölümünün, əlilliyinin qarşısını almaqdır. Əgər yuxarıdakı məlumat verilən xəstəliklərə diqqət yetirdinizsə, bu xəstəliklərin ya insanın öz sağlığına zərər vurduğuna, ya həyat yoldaşını yoluxdurduğuna, ya da ailədə xəstə, əlil uşağın dünyaya gəlməsinə səbəb olduğunu görərsiniz. Hər üç halda xəyal edilən xoşbəxt ailədən söhbət gedə bilməz. Ancaq evlilikdən əvvəl müayinələrlə xəstəliklər, daşıyıcılıq aşkarlanarsa, müvafiq peyvəndlər vurula, gələcəkdə hamiləlik müddəti bətndaxili dölün xəstə olduğu aşkarlanarsa, elə erkən həftələrdə tibbi göstərişlə hamiləliyi pozaraq, ailəni onu gözləyən psixi, sosial, maddi sıxıntıdan azad etmiş, milli genofondumuzu qorumuş, dövlətçiliyimizin qüdrətini artırmış olarıq. Beləliklə də, həm cəmiyyətin özəyi olan ailəni sağlamlaşdırıb möhkəmləndirmiş, ailə büdcəsinin bilməməzlikdən, istəmədən dünyaya gələn xəstə və əlil uşağın baxım və müalicəsinə sərf olunan vəsait və zamanı digər uşaqların tədris və tərbiyəsinə sərf etmiş olarıq.

***Gültəkin Əliyeva***
***Tibb fakültəsi, "Klinik fənlər və hərbi tibb" kafedrasının dosenti***

# HAMİLƏLİKDƏ ÜMUMİ SAĞLAMLIQ QAYDALARI

*Hamiləliyin yaxşı nəticələnməsi və doğulacaq körpənin müxtəlif risk faktorlarına məruz qalmaması üçün ciddi şəkildə əməl edilməsi lazım olan bəzi prinsiplər vardır. Problemsiz hamiləlik keçirtmək, ilk növbədə bu prinsiplərin yaxşı başa düşülməsinə və tətbiq edilməsinə bağlıdır.*

Hamiləlik dövründə riayət edilməli olan sağlamlıq qaydalarını ətraflı bilmək hamilə qadının həm öz sağlamlığı, həm də sosial məsuliyyətləri baxımından böyük əhəmiyyət kəsb edir. Hamiləliyin əvvəlindən sonuna qədər müntəzəm olaraq ünsiyyət qura biləcəyiniz bir həkimlə sıx əməkdaşlıq etmək tamamilə zəruridir. Yalnız bir həkim hamilə qadına insandan-insana dəyişə bilən amilləri nəzərə alaraq sağlam məsləhət verə bilər. Hamiləlik baxımına diqqət yetirmək və mümkün olduğu qədər bütün qaydalara riayət etmək həm gələcək körpənin sağlam inkişafı, həm də yaxşı doğum üçün lazımi mühiti təmin edəcək.

**FİZİKİ FƏALİYYƏT**. Hamiləlikdən əvvəl qadının fiziki hərəkətlilik vərdişlərindən və iş şəraitindən asılı olmayaraq, əsas qayda hamiləlik zamanı hər cür fiziki yorğunluğun qarşısını almaqdır. Hamilə qadın heç vaxt unutmamalıdır ki, yorğunluq nöqtəsinə çatmadan dayanmalıdır. Hamiləliyin ilk yeddi ayında yuxarıdakı qaydaya əməl etmək, yəni yorulmadan normal gündəlik fəaliyyətlər və iş həyatı rahat şəkildə davam etdirilə bilər. Hamilə qadının edə biləcəyi ən



yaxşı fiziki fəaliyyət hamiləlik gimnastikasıdır. Gimnastikaya həkim tövsiyə etdiyi zaman başlanmalı və bu fəaliyyət mütəxəssisin nəzarəti altında aparılmalıdır. Hamilə qadınlar müxtəlif zəhərli qazların olduğu sənaye müəssisələrində işləməməli və belə mühitlərdən uzaq durmalıdırlar. Hamilə qadınların sağlamlığı da qanunla qorunur. Müvafiq olaraq, heç bir hamilə qadını yük qaldırmağa, daşımağa, təhlükəli və ağır işlərdə işləməyə məcbur etmək olmaz.

**ŞƏXSİ GİGİYENA**. Hamiləlik dövründə dərinin təmizlənməsinə xüsusi diqqət yetirilməlidir. Çünki bu dövrdə qaraciyər və böyrəklərin zərərli maddələri orqanizmdən xaric etmək funksiyasını dəri də yerinə yetirir. Hamiləliyin ilk iki ayında nə çox soyuq, nə də çox isti su ilə çimmək olmaz. Sonrakı aylarda vannada çimməkdən çəkinmək lazımdır, çünki vannadakı mikroorqanizmlər uşaqlıq yoluna daxil olaraq çoxalır. Bu faktor daha əvvəl doğuş keçirmiş və ya uşaqlığın prolapsusu (sallanması) olan gələcək analar üçün risklidir. Son aylarda vanna deyil, duşda yuyunmaq daha məqsədəuyğundur. Hamilə qadının saç tərzində heç bir məhdudiyyət yoxdur. Amma



tərkibində az və ya çox zərərli maddələr olan saç boyalarından qətiyyən istifadə edilməməlidir. Bunlar baş dərisindən gələn qanla qarışa və zərərli təsir göstərə bilər. Nəhayət, ağız və diş qulluğunun əhəmiyyətini vurğulamaq lazımdır. Hamiləlik dövründə tüpürcək ifrazının dəyişməsi ilə əlaqədar diş əti xəstəlikləri və diş çürüməsi daha çox müşahidə olunur. Bunların qarşısını almaq üçün təmizliyə və qidalanmaya böyük diqqət yetirilməlidir.

**GEYİM**. Hamiləlik dövründə qarın və döş qəfəsini sıxmayan boş paltar geyinmək lazımdır. Soyuqdan qorunmaq üçün də diqqətli olmaq lazımdır. Soyuq bir mühitdə damarların daralması bütün qan dövranı sisteminə mənfi təsir göstərə bilər. Korsetdən istifadə edilməməlidir, qarnı örtən, lakin onu çox sıxmayan elastik bir kəmər istifadə edilə bilər. Qarın nahiyəsinə həddindən artıq təzyiq etmək tənəffüs və həzm çətinliyinə səbəb olur. Bu vəziyyət hamilə qadının sağlamlığı üçün böyük əhəmiyyət kəsb edən bu iki sistemin funksiyalarına mənfi təsir göstərə bilər. Ayaqqabılar rahat və yumşaq olmalı, daban hündürlüyü 4 sm-dən çox olmamalıdır.

**SİQARET.** Tütünün tərkibində ürək-



damar sisteminə mənfi təsir göstərən nikotin adlı maddə var. Siqaret səbəbi ilə hamiləlikdə onsuz da böyük yük altında olan qan dövranı sisteminə əlavə yük qoyularsa, ciddi sağlamlıq problemi yarana bilər. Qan dövranı sisteminin yaxşı işləməsi də inkişaf etməkdə olan dölə kifayət qədər oksigen çatdırılması üçün vacibdir. Bu baxımdan hamiləlik dövründə siqaretdən qətiyyən istifadə edilməməlidir. Hamiləlik dövründə çox siqaret çəkən qadınlar əksər hallarda az çəkili uşaq dünyaya gətirirlər. Çünki nikotinin təsirindən uşaqlıq damarlarının daralması dölə gedən qanın miqdarını azaldır. Hamilə qadın nəinki siqaret çəkməməli, hətta siqaret çəkilən mühitdə olmamalı, oksigenlə zəngin, təmiz, açıq havada, bağ və baxçalarda avtomobil tüstülərindən kənar yerlərdə dincəlməlidirlər.

**İDMAN.** Hamiləlikdə ağır idman hərəkətləri edilməməlidir. Xüsusilə atletika, xizək sürmə, tennis və basketbol kimi idman növləri dayandırılmalıdır. Omba nahiyəsində qan yığılmasına səbəb olan velosiped və at sürmə kimi idmanlardan da çəkinmək lazımdır. Əzələlərin gərginliyini artıran və onların düzgün işləməsinə mane olmayan idmanlar həddindən ar-



tıq olmamaq şərti ilə edilə bilər. Bu xüsusiyyətlərə uyğun gələn idman növü üzgüçülükdür. Həkim hər hansı bir xüsusi səbəbdən təhlükəli hesab etməzsə, hamiləliyin ilk yarısında üzgüçülük rahatlıqla edilə bilər. Yuxarıda qeyd olunanlardan başqa, hər bir hamilə qadının mütləq etməli olduğu başqa bir idman növü də yeriməkdir. Gəzinti hamiləliyin ən vacib tələblərindən birinə cavab verir. Gələcək ana ilk növbədə körpəsini kifayət qədər oksigenlə təmin edə bilməlidir. Dölün asanlıqla oksigeni qəbul etməsi üçün ananın qan dövranı sürətlənməli və çoxlu miqdarda oksigenli qan uşaqlığa daxil olmalıdır. Bu da ən yaxşı açıq havada edilən gəzinti ilə mümkündür.

**SƏYAHƏT.** Uzun səfərlər, xüsusilə də narahat şəraitdə, hamiləlik zamanı çox zərərli ola bilər və düşmə və ya vaxtından əvvəl doğuşa səbəb ola bilər. Avtomobil səyahətləri hamilə qadınlar üçün uyğun deyil, xüsusən də uzun müddət davam etdikdə. Lakin qət ediləcək məsafə qısa olarsa və nəqliyyat vasitəsi rahatdırsa, səfərə icazə verilə bilər. Motosikletlə səyahət hamilə qadınlar üçün qəti qadağandır. Hamiləliyin ilk dörd ayında hamilə qadın avtomobil idarə edə bilər. Qatar və təyyarə hamilə qadınlar üçün daha uyğun nəqliyyat vasitəsidir. Amma hamiləliyin ilk və son üç ayında təyyarə ilə səfər etmək olmaz, digər nəqliyyat vasitələri ilə səyahətləri mümkün qədər azaltmaq lazımdır. Birinci halda hamiləlik pozulması, ikinci halda isə vaxtından əvvəl doğuş riski olduğu üçün, hamiləliyin son aylarında səyahətdən çəkinmək və doğuşun baş tutacağı yerdə qalmaq lazımdır. Səyahət üçün hamiləliyin ikinci 3 aylığında 14-26 həftəsində icazə verilir. Hamiləliyin erkən toksikozu, öyümə, qusma, iy və dad bilmənin pozğunluqları arxada qalıb, hamiləlik hələ çox böyümədiyindən, hamilənin hərəkətləri sərbəst olduğu vaxt səyahət qadına yaxşı təsir edər. Yəni hamiləliyin I və III üçaylığında səyahət etmək məsləhət görülmür. Birinci üçaylıqda hamiləliyin pozulması riski varsa, üçüncü üçaylıq da vaxtından əvvəl doğuş, ciftin ayrılması ilə təhlükəlidir. Ona görə də, qadın düşməlidir ki, özünü əlavə stresə salınmayan səyahət məkanları və vasitələri seçsin, xüsusilə təyyarə ilə səyahət zamanı hamilə qadının orqanizmində dəyişikliklər baş verir.

Təyyarənin uçuş və enişi zamanı kəskin dəyişən atmosfer təzyiqi damarların spazmına səbəb olur. Ciftin arxasındakı damarlar da sıxıldıqda, ciftin ayrılması nəticəsində daxili qanaxma baş verə bilər. Uçuş zamanı qan dövranında durğunluq baş verməsin deyə, heç olmasa ayaq və əlləri hərəkət etdirmək, tez-tez oturma vəziyyətini dəyişmək və su içmək lazımdır. Ona görə də hamilələr hamiləlik zamanı təyyarə ilə səyahətlərdən mümkün qədər imtina etməlidirlər. Əgər hökmən təyyarə ilə getməniz lazımdırsa, o zaman hökmən həkim müayinəsindən keçmək lazımdır ki, fəsadların qarşısı alınsın. Qatarla səfərə çıxmaq təyyarəyə nisbətən etibarlıdır. Ancaq maksimal komfort olmalıdır. Kupedə aşağı yerdə gedilməlidir, yaş salfetkalar götürmək də unudulmamalıdır ki, tez-tez əlləri silərək, özünüzü mikroblardan qoruyasınız, çirkli əllərlə yoluxma baş verməsin. Çünki hamiləlik qadının ən həssas dövrüdür. Aşağıdakı hallarda səyahətə çıxmaq qəti olaraq əks-göstərişdir:

1. Xroniki xəstəliklərin kəskinləşməsi;
2. Ciftin yerləşməsinin problemi-aşağı hissədə və mərkəzi cift gəlişi;
3. Hamiləlik toksikozları, arterial təzyiqin yüksəkliyi, böyrək patologiyaları;



4. Hamiləliyin I və III üç aylığı. Hamilə qadın səyahətə, məzuniyyətə tək getməməlidir, hökmən əri, anası və ya yaxın bir qohumu ilə getməlidir ki, özünü daha güvəndə hiss etsin.

Ana dölü əhatə edən qoruyucu bir varlıq olması ilə bərabər, özü də xarici mühitin təsiri altındadır. Ekoloji kirlilik, vibrasiya, avtomobildən istifadə, radio, televiziya, cib telefonları bilgisayar, kabelsiz internet, elektromaqnit dalğaları ana bətnindəki dölə mənfi təsir edir. Hamilə qadınlar bilgisayar kimi cib telefonuna da aludə olmamalıdırlar. Cib telefonunun siqnalları nəinki qadının öz sinir sisteminə, həm də bətn daxilindəki dölün beyin toxumasına zərər verir. Digər zərərverici amil isə siqaret tüstüsünün tərkibindəki zəhərli maddələr dölə toksiki təsir edir. Yəni hamilələr mümkün olduqca siqaret tüstüsü olan yerlərdən uzaq durmalı, onun yanında siqaret çəkilməsinə icazə verməməlidir. Həkim məsləhəti olmadan dərman qəbul etməməli, çox isti və ya çox soyuq havalardan, kəskin temperatur dəyişikliyindən özünü qorumalıdır.

Qidalanmasında meyvə-tərəvəzə üstünlük verməlidir. Çünki bu qida məhsulları tez həzm olunan, liflərlə, vitaminlərlə və minerallarla zəngin, qəbzliyin qarşısını alan məhsullardır.

Hamiləlik boyunca həm qırmızı, həm də ağ ət yeməlidir (ağ ət - toyuq, balıq və digər dəniz məhsullarının əti; qırmızı ət - mal əti, dana əti, quzu əti). Qidaya paxlalılar, dənli məhsullar daxil edilməlidir ki, qadının dəmirə, bitki mənşəli zülallara tələbatı ödənilsin.

Kütləvi iaşə müəssisələrində ayaqüstü qidalanmalardan çəkinməli, kofe, şokolad, kola kimi məhsullara aludə olmamalıdır.

Çox yağlı qoyun əti, yaxşı termiki emal olunmamış ət yeməklərindən çəkinməlidir. Çiy farşın dadına baxma-



malıdır. Çünki çiy farş brüselloz, toksoplazmoz kimi xəstəliklərin törədicilərini özündə saxlaya bilər.

Qidasında istifadə edə biləcəyi əti 2-3 sm-lik kiçik tikələrə bölüb, çiy farşa duz qataraq dondurucuda saxlamalıdır.

Zülallar istər heyvani, istərsə də bitki mənşəli zülallar olmalıdır. Zülallara hamilələr üçün gündəlik tələbat 70-100 qr-a qədərdir. Çünki bu zülallar ciftdən keçərkən parçalanacaq və dölə xas yeni zülalların sintezinə sərf olacaq.

Hamilə qadınların fol turşusuna gündəlik tələbatı 0,4 mq-dır. Hamilə qadın bunu həb şəklində qəbul edərək ala bilər. Hamiləlik boyunca ananın və bətndaxilindəki dölün vitaminlərə və minerallara böyük ehtiyacı olur.

Hamilə qadın hamiləlik müddətində çəki artımına nəzarət etməlidir. Bütün hamiləlik boyu çəki 12-14 kq-dan çox və 8-10 kq-dan az artmamalıdır. Ancaq nənələrimizin dediyi kimi, “İki nəfərin yerinə yeməlisən” termini də düzgün deyil.

Hamilə qadın yağ qəbulundan tamamilə imtina etməməlidir. Ən azı səhər yeməyinə kərə yağı daxil etməlidir. Çünki yağda həll olan vitaminlər - A, E, D, K-nın yağsız qidalanma zamanı sorulması pozulur. Hamilə qadın və əri zərərli vərdişləri tərgitməlidir. Hamilə qadın stressli ailə şəraiti, iş şəraiti, peşə zərərləri ilə kontakt olarsa, qadın daha yüngül işə keçirilməli, gecə növbəsindən azad olunmalıdır.

***Elnarə Allahverdiyeva***
***Tibb ixtisası üzrə V kurs tələbəsi***

Baş redaktor:
Şəhla Şirəliyeva
shshahla36@gmail.com

Ünvan: AZ 7012,
Naxçıvan şəhəri
Universitet şəhərciyi
Telefon:
544-08-61 (1360)
yenifikir.ndu@gmail.com

Qeydiyyat № 330
Sifariş № 371
Tiraj 300

Dizayner:
SAHİLƏ ABBASOVA
"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində ofset üsulu ilə çap olunmuşdur.